# BP Azərbaycanda

**Davamlı inkişaf haqqında hesabat 2007**



**Bu hesabat barədə** Bu "BP Azərbaycanda davamlı inkişaf haqqında hesabat 2007" 2007-ci il ərzində bizim həyata keçirdiyimiz biznes fəaliyyətini, ətraf mühit məsələləri ilə bağlı gördüyümüz işləri və bizim Azərbaycanda apardığımız daha geniş sahələri əhatə edir. Bu, davamlı inkişaf haqqında bizim beşinci hesabatımızdır və əvvəlki hesabatlar haqqında aldığımız rəyləri əks etdirir. Əvvəlki nəşrlərimizi www.bp.com/caspian saytında əldə etmək olar.

"Davamlı inkişaf" termini ilə biz bir kommersiya təşkilatı kimi aktivləri yeniləşdirməklə, cəmiyyətin daim artan ehtiyaclarını təmin edən daha yaxşı məhsul və xidmətlər yaratmaq və onları çatdırmaqla, səhmdarlarımıza gəlir gətirməklə, dəyişən nəsillərin nümayəndələrini işə cəlb etməklə, davamlı ətraf mühitə töhfələr verməklə və öz müştərilərimizin və fəaliyyət göstərdiyimiz cəmiyyətlərinin inamını və verdikləri dəstəyi saxlamaqla, zamanın sınaqlarına davam gətirmək bacarığını nəzərdə tuturuq.

Xüsusi olaraq göstərilən hallar istisna olmaqla, bu hesabatda "bizə", "biz" və "bizim" sözlərinə edilən istinadlar BP Azərbaycan şirkətinə edilən istinadlardır. "BP" və "BP qrupu"na edilən konkret istinadlar BP p.l.c., onun törəmə şirkətləri və filialları deməkdir. Başqa cür nəzərdə tutulmayıbsa, mətndə BP p.l.c. və onun törəmə şirkətləri və filiallarının əməliyyatları və fəaliyyətləri arasında fərq qoyulmur.

**Ernst & Young şirkətinin bildirişi**

Bu hesabat BP qrupunun auditorları olan "Ernst & Young" şirkəti tərəfindən yoxlanılmışdır. Yoxlama prosesinin əsas məqsədi hesabatın mətnində BP-nin davamlı inkişafla bağlı fəaliyyətinə dair məlumatların, açıqlamaların və faktların dəlillərə əsaslandığını təsdiq etməkdən ibarətdir. Müstəqil üçüncü tərəfin yuxarıda deyilənlərə zəmanət verməsi bu prosesin əsasında dayanır. "Ernst & Young" şirkətinin gördüyü işlərin əhatə dairəsi və əldə etdiyi nəticələr 63-cü səhifədə verilmişdir. Bu bildiriş yalnız hesabatın ingilis dilində olan versiyasına aiddir.




"2007 Azərbaycanda davamlı inkişaf haqqında hesabatda" xüsusilə çıxarıla bilən həcmlərə və ehtiyatlara, əsaslı, əməliyyat və digər xərclərə və gələcək layihələrə aid bir neçə qabaqlayıcı bəyanatlar vardır. Faktiki nəticələr bir sıra amillərdən, o cümlədən tələb və təklif, qiymət və işlərin gedişi məsələlərindən və siyasi, hüquqi, maliyyə, kommersiya və sosial şəraitdən asılı olaraq belə bəyanatlarda əksini tapmış gözlənilən nəticələrdən fərqli ola bilər.

Bu hesabat BP qrupunun korporativ məsuliyyətini əhatə etməklə tərtib olunmuşdur və bu da davamlılı inkişafla əlaqədar BP-nin mövqeyini aydınlaşdırır. BP-nin fəaliyyətləri bizim birbaşa nəzarət etdiyimiz (məsuliyyətli əməliyyatlar) və əhəmiyyətli dərəcədə təsir göstərə bildiyimiz (yerli ətraf mühitə təsir və inkişaf) sahələrə uyğun olaraq təsvir edilir.

**Üz qabığında** Qazma mühəndisi Elnur İsmayılov "İstiqlal" qazma qurğusunda.


**1 BP Azərbaycan Strateji İcra Bölümü (SİB) prezidentinin giriş sözü**
**2 Ölkə haqqında məlumat**
**3 Nailiyyətlər və çətinliklər**
**4 Hesabatın konsepsiyası, əhatə dairəsi və hazırlanma prosesi**
**5 BP Azərbaycan SİB-nin maraqları**
**6 Fəsil 1 - BP Azərbaycanda: əməliyyatlarımız**
7 BP Azərbaycan - ilk baxışda
10 BP Azərbaycan - gələcəyə nəzər
11 Dialoq və görüşlər
14 Layihə və əməliyyatlarımız
21 Əməliyyatların məsuliyyətlə aparılması:
- STƏM idarəetmə sistemi
- Əməyin təhlükəsizliyi
- Ətraf mühit
- Sağlamlıq
34 Təhlükəsizlik və insan haqları
36 Əməkdaşlar, qanunlara riayət olunması, etik normalar
43 Fəsil 1 üzrə əsas statistik göstəricilər
**44 Fəsil 2 - BP Azərbaycanda: cəmiyyətdə rolumuz**
45 Davamlı inkişafa dəstək
- Regional inkişaf təşəbbüsü
- İctimai sərmayə
- Ətraf mühitə sərmayə
- Mədəni irsin qorunması
52 Gəlirlərin şəffaflığı
53 Yerli ehtiyatların inkişaf etdirilməsi
56 Təhsil təşəbbüsləri
59 Fəsil 2 üzrə əsas statistik göstəricilər
**60 Dörd il üzrə icra göstəriciləri**
**61 MŞŞT üzrə hesabat verilən məlumatlar**
**63 Müstəqil zəmanət bəyanatı**
**64 Sözlük**
**67 Necə...**
**68 Rəy və təkliflər**
**69 Əlavə məlumat**



# BP Azərbaycan Strateji İcra Bölümü (SİB) prezidentinin giriş sözü

2007-ci il BP Azərbaycan Strateji İcra Bölümü (SİB) üçün çox əhəmiyyətli bir il oldu və bu il ərzində biz bir çox nailiyyətlər əldə etdik və çoxlu mühüm hadisələri qeyd etdik.

SİB-nin əməliyyatları haqqında daha dolğun məlumatlarla bu hesabatın digər hissələrində tanış olmaq olar. Lakin bir neçə əlamətdar hadisəni burada qeyd etməyə dəyər. Bizim mövcud əməliyyatlarımız uğurla davam etdirilmişdir. İki dərin su platforması quraşdırmış və bununla da dənizdə inşaat işlərini yekunlaşdırmışıq. Şahdəniz geoloji-kəşfiyyat qrupu Xəzər dənizində indiyədək qazılmış ən dərin quyu ilə olduqca mühüm bir qaz kəşfi etdi.

Təhlükəsizlik sahəsində 2007-ci ildə BP qrupunda həyata keçirilən qurğularımızın integrasiya edilmiş dayandırılmasının da daxil olduğu bir sıra əhəmiyyətli nailiyyətlər əldə edildi. Quruda əməliyyatlar qrupumuz ili qəza nəticəsində itirilən heç bir iş günü (QNİİG) olmadan başa vurdu. Bu qrupun üç ölkədən keçən üç boru kəmərini və dünyanın ən böyük neft və qaz texnoloji emal terminallarından birini idarə etdiyi nəzərə alınsa, bu, çox böyük nailiyyətdir.

İlin sonunda BTC qrupu BTC konsorsiumunun maliyyə institutlarından 1,6 milyard ABŞ dolları kredit aldığı vaxt üzərinə götürdüyü bütün öhdəliklərin yerinə yetirilməsini başa çatdırdı. Hələ üstəlik, qrup buna qrafikdən altı ay əvvəl nail oldu.
Biz eləcə də şirkətin tarixində və indiyədək Azərbaycanda həyata keçirilmiş ən böyük vergi auditinin bir hissəsi kimi layihələrimizə 2004-2006-cı illər ərzində xərclənmiş 8 milyard ABŞ dolları məbləğində vəsait üçün tam hesabat verdik.

Biz gələcəyə nəzər saldıqca, diqqətimizi yerli kadrların işə götürülməsi və onların inkişafı və yerli ehtiyatlardan və yerli podratçılardan istifadənin artırılması yolu ilə obyekt və qurğularımızın məhsuldarlığının yaxşılaşdırılması üzərində cəmləyirik. 2007-ci ildə bu sahələrdə yaxşı irəliləyişlər əldə etmişik - 200 nəfərdən artıq yerli işçi götürülmüş və tərəfdaşlarımızla birgə yerli şirkətlərə 600 milyon ABŞ dollarından artıq vəsait xərcləmişik.

Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi və təlim məqsədləri üçün bir neçə yeni proqramın həyata keçirilməsinə başladıq. Biz eləcə də təhsil təşəbbüsləri də daxil olmaqla digər sosial sərmayə proqramlarının geniş bir diapazonuna dəstək verdik. Ümumiyyətlə, 2007-ci ildə Azərbaycanda qoyduğumuz sosial sərmayə 7,39 milyon ABŞ dolları həcmində olmuşdur.

Bu fonda qeyd etmək xoşdur ki, bizim 2007-ci ildə göstərdiyimiz səylər BP qrupu tərəfindən qiymətləndirilmişdir. Görkəmli nailiyyətlərimizə görə iki Helios mükafatına layiq görüldük və qrupun baş icraçı direktoru Toni Heyvard Azərbaycan SİB-ni düzgün seçilmiş adamların çox gözəl və təhlükəsiz işi ilə BP-nin necə uğurlu ola biləcəyinin əsl nümunəsi kimi təriflədi.

2007-ci ildə işlərin çox rahat getdiyini demək və ya SİB qarşısında heç bir problemin olmadığını iddia etmək tələskənlik olardı. Xüsusilə də, biz heç vaxt təhlükəsizliklə bağlı məsələlərdə özümüzdən razı olmağa yol verə bilmərik. Lakin 2007-ci il BP Azərbaycanın bir çox əlamətdar nailiyyətləri ilə məndə qürur hissi yaratdı. Bu hesabatda belə fəaliyyətlər daha ətraflı təsvir olunur. Ümid edirəm ki, onlar sizin üçün maraqlı olacaq və məlumatlılığınızı artıracaqdır.



**Bill Şreyder**
BP SİB-nin prezidenti

# Ölkə haqqında məlumat

**2007-ci ildə neft və qaz hasilatının çoxalması və dünya bazarlarına ixracatın artması Azərbaycanın regiondakı getdikcə güclənən mövqeyinə öz töhfələrini verdi.**





2007-ci ildə getdikcə artan neft və qaz gəlirlərinin milli iqtisadiyyat üçün faydaları bütün cəmiyyətdə hiss olunmağa başladı. Təxminən 7 milyard ABŞ dolları təşkil edən büdcə xərcləri 2003-cü ildəkinə nisbətən yeddi dəfə çox olmuşdur və bu xərclər 2008-ci ildə daha böyük bir məbləğə - dövlət xərclərinin beş il bundan əvvəlki 1 milyard ABŞ dollar həcmi ilə müqayisədə 10 milyard ABŞ dolları məbləğinə çatacaqdır. 2007-ci ildə yalnız BP-nin əməliyyatçısı olduğu layihələrin yaratdığı gəlir təxminən 4.3 milyard ABŞ dollarına bərabər olmuşdur.

Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) ildə təxminən 25% artır və 2007-ci ildə ən yüksək həddə - 29,4 milyard ABŞ dollarına çatmışdır. 16,7% təşkil edən inflyasiya ən əsas problem olaraq qalır. Mövcud istehsal gücündə çatışmazlıqlar iqtisadiyyata getdikcə daha çox təsir edir.

2007-ci ildə verilmiş rəsmi proqnozlar yeni bazarların və uzunmüddətli qaz təchizatı kontraktlarının təmin edilməsi üçün güclü səylərin göstərilməsi ilə yanaşı, daha böyük karbohidrogen yataqlarının kəşfi və daha yüksək gələcək hasilatdan xəbər verir.

Azərbaycanın həyata keçirdiyi 1991-ci ildən bəri davam edən azad bazar strategiyası xarici sərmayədarları hələ də cəlb etməkdədir və artıq onlar ölkəyə 30 milyard ABŞ dolları məbləğində sərmayə qoymuşlar. Ölkənin mövcud infrastrukturu və insan kapitalı, eləcə də ölkədə hökm sürən siyasi sabitlik beynəlxalq şirkətlərə dünya səviyyəli layihələr hazırlamağa və onları başa çatdırmağa real imkanlar yaradır.

Lakin bununla belə, neft və qaz sənayesi üçün biznes mühiti mürəkkəb olaraq qalır. "Trensperensi İnterneşnl" təşkilatının korrupsiya indeksində Azərbaycan 2006-cı ildə 163 ölkə arasında 130-cu yeri tuturdursa, 2007-ci ildə 179 ölkə arasında 150-ci yeri tutur.

BP şirkəti Azərbaycanda məsuliyyətli bir sərmayədar kimi bütövlükdə biznes mühitinin, gəlirlərin şəffaflığının və icmaların inkişafının yaxşılaşdırılmasına dəstək verməklə öz fəaliyyətlərində şəffaflığın inkişaf etdirilməsinə, insan haqlarına hörmətlə yanaşmanın yüksək səviyyədə saxlanılmasına və cəmiyyətdə müsbət rol oynamağa səy göstərir.

**2007-ci il Azərbaycan - faktlar və rəqəmlər**

| Maddə | Rəqəmlə ifadəsi |
|---|---|
| Ərazisi[a] | 86 600 $km^2$ (33 774 $mil^2$) |
| Əhalisi, cəmi (milyon)[a] | 8,5 |
| Qadınlar arasında orta uzunömürlülük (il)[a] | 75,1 |
| Kişilər arasında orta uzunömürlülük (il)[a] | 69,7 |
| Ümumi Daxili Məhsul (ÜDM (cari ABŞ dolları ilə) (milyard)[a] | 29,4 |
| ÜDM-in artımı (illik %)[a] | 25 |
| Qeyri-neft ÜDM (milyard ABŞ dolları ilə)[b] | 10,99 |
| Qeyri-neft ÜDM (ÜDM-də %)[c] | 36,83% |
| İnflyasiya, istehlak qiymətləri (illik %)[a] | 16,70% |
| Kapital qoyuluşu (ÜDM-də %-i)[c] | 26,85% |

[a] Dövlət Statistika Komitəsi (DSK): *http://www.azstat.org.*
[b] Azərbaycan Milli Bankı: *http://www.nba.az.*
[c] AMB-dən alınmış ilkin məlumatlar əsasında bizim hesablamalarımız.

[a] "Trensperensi İnterneşnl" şirkətinin reytinqi: http://www.transparency.org/policy_research/surveys_indices/cpi/2007.

# Nailiyyətlər və çətinliklər

**Bu səhifədə biz diqqətimizi Azərbaycandakı biznesimizin davamlılığı ilə əlaqədar məsələlər üzərində cəmləməklə, 2007-ci ilin əsas nailiyyətlərinin və qarşılaşdığımız çətinliklərin xülasəsini veririk.**

## Nailiyyətlər

**Əməliyyatlar** 2007-ci ilin sonunda Azəri, Çıraq, Günəşli (AÇG) platformalarından gündəlik neft hasilatını orta hesabla 668 000 barelə çatdırmağa nail olduq. Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəmərinin məhsuldarlığı orta hesabla gündə 600 000 barelə bərabər olmuşdur. Ceyhan terminalında 300-cü tanker AÇG nefti ilə yükləndi. Biz İnam yatağında yenidən kəşfiyyat işlərinə başladıq.

Şahdəniz (ŞD) yatağından hasil edilmiş qazın ümumi həcmi 3,1 milyard kub metr/il oldu ki, bu da plandan 11% çoxdur. ARDNŞ-yə 2,4 milyard standart kub metr AÇG qazı çatdırdıq. Şahdəniz yatağında çox mühüm yeni qaz kəşfi edildi. Cənubi Qafqaz Boru Kəməri ilə Türkiyəyə birinci qaz çatdırıldı.

Səngəçalda genişləndirmə layihəmizi başa çatdırdıq və bu da terminala gündə bir milyon barel nefti texnoloji emaldan keçirməyə imkan verdi (səhifə 16-18).

**Texnologiya** Dünyada ilk sualti, genişlənə bilən qum ələkli, quyudaxili axına nəzarət və suvurma komplektləri Dərinsulu Günəşli yatağında quraşdırıldı. Bu komplektlər lazım olan su injeksiyası quyularının sayını azaldır və biz onları su altına buraxmaqla bu injektorlar üçün platformadan uzaq məsafəyə qazılan mürəkkəb quyulardan qurtarmış oluruq. Komplektlər mədən mühəndislərinə neftin səmərəli bir tərzdə çıxarılmasına kömək edir və son nəticədə laydakı çıxarıla bilən ilkin neft həcmlərinin faizini yaxşılaşdırır.

Xəzərdə qazılmış ən dərin quyu - Şahdəniz yatağındakı SDX-4 qiymətləndirmə quyusu uğurla tamamlandı.

**Ətraf mühitin idarə edilməsi** Şahdəniz alfa (TPG-500), Şərqi Azəri, Maddi-texniki təchizat, Səngəçal terminalı (Şahdənizə aid olan hissə) və Sərəncə ətraf mühitin idarə edilməsi üzrə aparıcı beynəlxalq standart olan ISO 14001 standartlarına uyğunluq sertifikatı almışdır (səhifə 26).

**Tullantıların idarə edilməsi** Təhlükəli olmayan bərk tullantıların ləğv edilməsi üçün Sumqayıtda Avropa Birliyi standartlarına uyğun BP-yə məxsus poliqonun tikintisi başa çatdırıldı (səhifə 27).

**Təhlükəsizlik** Azərbaycan hökuməti və BP qrupu Azərbaycanda BP tərəfindən idarə olunan neft və qaz layihələrinin təhlükəsizliyinin təmin olunmasının idarə edilməsi üçün ikitərəfli təhlükəsizlik protokolu imzaladı. Bu protokolun məqsədi beynəlxalq səviyyədə tanınmış insan haqları prinsiplərinə hörmətlə yanaşmağı və onlara riayət olunmasını daha da yaxşılaşdırmaqdır (səhifə 34).

**Əməkdaşlarımız** 2007-ci ilin sonunda bizim peşəkar mütəxəssislərimizin 75%-i və qeyri-peşəkar əməkdaşlarımızın 100%-i Azərbaycan vətəndaşlarından ibarət olmuşdur. 2007-ci ildə biz BP-nin yerli əməkdaşları üçün yığım təyinatlı təqaüd planı təsis etdik (səhifələr 36, 40-41).

## Çətinliklər

**QİBK-nın dayandırılması** 2007-ci ildə Supsaya gedən Qərb İxrac Boru Kəməri (QİBK) geniş təmir proqramının başa çatdırılmasına imkan yaratmaq və onun bir kilometrlik hissəsinin Gürcüstanda



yeni marşrutla çəkilməsi məqsədi ilə bağlandı. Təmir və yerdəyişdirmə proqramı 2008-ci ilin birinci rübündə başa çatdırıldı (səhifə 19).

**Tullantıların idarə edilməsi** İl ərzində biz tullantıların idarə edilməsi ilə əlaqədar bir sıra çətinliklərlə üzləşdik. Bu çətinliklərə eləcə də dənizdə yenidən laya vurma imkanı əldə etməzdən əvvəl böyük həcmlərdə lay sularının atılması və dəniz obyektlərimizdə çirkab sularını təmizləmə komplektinin işləməməsi daxil idi (səhifələr 27-30).

**İşçi qüvvəsinin tərxis edilməsi**
2007-ci ildə dənizdə və quruda tikinti layihələrimiz başa çatdırıldıqdan sonra işçi qüvvəsinin tərxis edilməsi həyata keçirildi. Biz bu prosesin mümkün qədər problemsiz və ədalətlə həyata keçirilməsinə böyük səy göstərdik (səhifələr 39-40).

# Hesabatın konsepsiyası, əhatə dairəsi və hazırlanma prosesi

**"BP Azərbaycanda davamlı inkişaf haqqında hesabat 2007" bizim il ərzində Azərbaycanda həyata keçirdiyimiz fəaliyyətimiz və həmin müddət ərzində rastlaşdığımız problemlər barədə ətraflı və şəffaf məlumat vermək məqsədi daşıyır.**



## Əlamətdar hadisələr 2007

Bu hesabat BP Azərbaycan şirkətinin davamlı inkişaf haqqında hazırladığı beşinci hesabatdır və 2007-ci ildə bizim Azərbaycanda həyata keçirdiyimiz biznes fəaliyyətlərimiz haqqında ətraflı məlumat verir və eləcə də bizim əməliyyatlar, ətraf mühit və sosial sahədə gördüyümüz işləri təsvir edir. Hesabat bizim işçi heyət və tərəfdaşlarımız, dövlət nümayəndələri, mediya mənsubları, qeyri-hökumət təşkilatları, tələbələr və potensial işçilər də daxil olmaqla həm daxili, həm də şirkətdən kənar auditoriyalar üçün nəzərdə tutulub.

Bütün hesabat boyunca biz BP barədə məlumatların digər mənbələrlə əlaqələri və BP əməliyyatlarının daha geniş kontekstinə istinadları ön plana çəkirik. Məlumatların düzgünlüyünə kənar zəmanət, üzərinə bu hesabatda verilmiş hər bir rəqəmin, açıqlamanın və təsdiqin düzgünlüyünü və sənədlərə əsaslandığını və bizim Azərbaycandakı fəaliyyətlərimizlə bağlı əsas məsələlərin hesabatda tarazlaşdırılmış təqdimatını təmin etmək kimi bir vəzifə qoyulmuş BP qrupunun auditorları olan "Ernst & Young" şirkəti tərəfindən verilmişdir.

Hesabatın əsasını təşkil edən iki fəsil BP qrupunun hesabatlarla bağlı rəhbər prinsiplərinə uyğundur. Birinci fəsildə əsas diqqət 2007-ci ildə bizim Azərbaycandakı fəaliyyətimiz üzərində cəmlənmişdir. İkinci fəsildə bizim cəmiyyətdə oynadığımız rol, o cümlədən bizim icma və ətraf mühit proqramlarımız barədə məlumatlar verilir.

BP-nin davamlı inkişaf barədə necə hesabat verməsi və davamlı inkişaf haqqında hesabat verilməsinin rəhbər prinsipləri ilə əlaqədar daha ətraflı məlumatı *www.bp.com/sustainability* və ya *www.accountability.org.uk* və ya *www.globalreporting.org* saytlarından almaq olar.

# BP Azərbaycan SİB-nin maraqları






# 1

Soldan sağa: Səngəçal terminalında nəzarət otağı üzrə texnik Firdovsi İsayev və Səngəçal terminalı əməliyyatlar üzrə superintendent İbrahim Terequlov



# BP Azərbaycanda: əməliyyatlarımız


1.1 BP Azərbaycan - ilk baxışda
1.2 BP Azərbaycan - gələcəyə nəzər
1.3 Dialoq və görüşlər
1.4 Layihə və əməliyyatlarımız
1.5 Əməliyyatların məsuliyyətlə aparılması
- STƏM İdarəetmə sistemi
- Əməyin təhlükəsizliyi
- Ətraf mühit
- Sağlamlıq
1.6 Təhlükəsizlik və insan haqları
1.7 Əməkdaşlar, qanunlara riayət olunması, etik normalar
1.8 Fəsil 1 üzrə əsas statistik göstəricilər

# 1.1 BP Azərbaycan - ilk baxışda

## Bizim strukturumuz, təşkilatımız, aktivlərimiz və tariximiz

| | |
|---|---|
| **Hüquqi struktur** | BP Azərbaycanda bir sıra hüquqi şəxslər qismində fəaliyyət göstərir və bu da onun ölkədə və regionda 1992-ci ildən bəri keçdiyi təkamülü əks etdirir. Əsas hüquqi şəxs BP Eksploreyşn (Kaspian Si) Ltd. şirkətidir. |
| **BP Azərbaycan Strateji Icra Bölümü (SİB)[a]** | BP Azərbaycan SİB Azərbaycanda, Gürcüstanda və Türkiyədə fəaliyyət göstərən, BP şirkətinin təşkilati vahididir. BP Azərbaycanda bir neçə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) və Azərbaycan hökuməti ilə bağlanmış Tranzit Əraziyə Malik Ölkə Hökuməti Sazişi (TƏMÖHS) əsasında fəaliyyət göstərir. Gürcüstan və Türkiyədə o, ixrac boru kəmərləri və terminallarını əhatə edən TƏMÖHS-lər əsasında fəaliyyət göstərir. |
| **Biznes strukturu** | 2007-ci ilin sonunda səkkiz vitse-prezident BP SİB prezidentinə hesabat verirdi (bax: BP Azərbaycan - gələcəyə nəzər, səhifə 10). |
| **Baş ofis** | BP SİB-nin baş ofisin ünvanı: Azərbaycan Respublikası, Bakı AZ1003, Neftçilər prospekti 2 (Bayıl qəsəbəsi), Villa Petrolea ofisi. Telefon: +994 12 497 9000; Faks: +994 12 497 9602 |
| **Əməkdaşlar** | 2007-ci ilin sonunda BP Azərbaycan tərəfindən daimi işdə çalışan şəxslərin ümumi sayı 1 712 nəfər olmuşdur. |
| **Dəniz hasilat yataqları** | (1) Azəri-Çıraq-dərinsulu Günəşli (AÇG)[b] Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük neft yatağıdır, (2) Şahdəniz (ŞD) böyük dəniz qaz və kondensat yatağıdır. |
| **İstismarda olan dəniz qurğuları (2007-ci ilin sonu)** | Çıraq 1 platforması; Mərkəzi Azəri platforması; Kompressor və suvurma platforması; Qərbi Azəri platforması; Şərqi Azəri platforması; Şahdəniz TPG 500 platforması; Dərinsulu Günəşli (DSG) yaşayış bloklu qazma və texnoloji təchizat platforması; DSG Hasilat, Kompressor, Suvurma və Texnoloji təchizat platforması. |
| **Nəqletmə və ötürmə qabiliyyəti** | **Nəqletmə:** Qərb İxrac Boru Kəməri (QİBK): Səngəçal terminalını Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanı ilə birləşdirən 830 km uzunluğunda boru kəməri. Şimal İxrac Boru Kəməri (ŞİBK): Səngəçal terminalını Rusiya sərhədi ilə birləşdirən 231 km uzunluğunda boru kəməri. Səngəçal terminalı: Bakı şəhərinin cənubunda yerləşən neft və qaz emalı terminalı. Bakı-Tbilisi-Ceyhan boru kəməri (BTC): Səngəçal terminalını Türkiyənin Ceyhan dəniz terminalı ilə birləşdirən 1 768 km uzunluğunda (443 km Azərbaycanda) boru kəməri. Cənubi Qafqaz Boru Kəməri (CQBK): Səngəçal terminalı ilə Gürcüstan/Türkiyə sərhədi arasında BTC boru kəmərinə paralel çəkilmiş 690 km uzunluğunda qaz boru kəməri.<br>**2007-ci ilin sonunda ötürmə qabiliyyəti: İxrac boru kəmərləri:** ŞİBKM - gündə 115 000 barel (min barel/gün); BTC - gündə 1 milyon barel. CQBK - gündə 22,08 min standart kub metr. **Terminal:** Səngəçal - gündə 1,2 milyon bareldən (162 000 ton) artıq neft və 1,25 milyard kub fut (0,9 Şahdəniz və 0,35 QHKTT) qaz emal edə bilir. Rezervuarlarının xam neft tutumu 3 milyon bareldir (405 000 ton). |
| **Geoloji-kəşfiyyat işləri** | İnam - Şahdəniz yatağından cənubda yerləşən böyük geoloji struktur; Araz-Alov-Şərq - sərhəd zonasında yerləşən kəşfiyyat ərazisi. |
| **Əsaslı xərclər** | AÇG, BTC, ŞD Mərhələ1 və CQBK layihələrin başlanmasından bəri təxminən 25 milyard ABŞ dolları. |
| **Neft hasilatı** | ABƏŞ 1997-2007-ci illər: cəmi 792 milyon barel; 244 milyon barel (2007). |
| **Qaz hasilatı** | BP Eksploreyşn Şahdəniz Limited 2006-2007: ŞD qaz hasilatı - cəmi 3,255 milyard standart kub metr və 2007-ci ildə 3,14 milyard standart kub metr; ŞD qaz-kondensat hasilatı - 7,04 milyon barel. |

[a] Bu hesabatda BP Azərbaycana istinadlar SİB-nin yalnız Azərbaycandakı fəaliyyətlərinə istinadlardır, BP Azərbaycan SİB-yə istinadlar SİB-nin Azərbaycan, Gürcüstan və Türkiyədəki fəaliyyətlərinə istinadlardır.

[b] Dayazsulu Günəşli yatağının işlənməsi Azərbaycan Respublikasının Dövlət Neft şirkəti (ARDNŞ) tərəfindən həyata keçirilir.

[c] Şimal marşrutunun Novorossiysk şəhərinə qədər davam edən hissəsini "Transneft" işlədir. 2008-ci ilin əvvəllərində Şimal marşrutunun operatorluğunu Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) öz üzərinə götürdü.

# BP Azərbaycan SİB-nin rəhbər qrupu (2007-ci ilin sonu)



**Bill Şreyder**
**BP SİB-nin prezidenti**
Bill 2006-cı ilin noyabr ayından bəri BP Azərbaycan SİB-nin əməliyyatlarına rəhbərlik edir. O, BP-də 27 illik təcrübəyə malikdir və bu müddətdə BP kemikalz, emal və marketinq, dəniz, geoloji-kəşfiyyat və hasilat bölümlərində bir çox rəhbər vəzifələrdə çalışmışdır. O, ABŞ-da, Böyük Britaniyada, Şimal dənizində, İndoneziyada və Anqolada işləmişdir.



**Bryus Luberski**
**Əsas layihələr üzrə vitse-prezident**
Bryus AÇG layihəsinin və ŞD və AÇG yataqlarında gələcək potensial layihələrin həyata keçirilməsi üçün cavabdehdir. Onun bundan əvvəlki vəzifəsi Meksika körfəzinin (MK) dərinsulu hissəsində həyata keçirilən "Məd Doq" layihəsinə rəhbərlik olmuşdur. Bryus Alyaskada və Meksika körfəzində əməliyyatlar və layihələr üzrə zəngin təcrübə əldə etmişdir.



**Rəşid Cavanşir**
**Quruda əməliyyatlar üzrə vitse-prezident**
Rəşid SİB-də quruda həyata keçirilən əməliyyatlar və əməliyyatların təhlükəsizliyi üçün cavabdeh şəxsdir. Rəşidin İngiltərədə, ABŞ-da və Azərbaycanda geoloji-kəşfiyyat işlərində, əməliyyatlarda, qrup strategiyası və əlaqələrin müəyyənləşdirilməsində böyük rəhbərlik təcrübəsi vardır. O, geologiya və geofizika elmləri üzrə professordur.



**Qreq Mattson**
**Texniki işlər üzrə vitse-prezident**
Qreq petro-texniki, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit məsələləri üzrə cavabdeh şəxsdir. Onun BP-də geoloji-kəşfiyyat və hasilat sahəsində 26 illik iş təcrübəsi vardır və o, mühəndis-texniki, layihələr, əməliyyatlar, yeraltı işlər, kommersiya sahələrində çalışmış və rəhbər vəzifələrdə işləmişdir.



**Kler Bebbinqton**
**Əlaqələr və xarici işlər üzrə vitse-prezident**
Kler 2007-ci ildə BP Azərbaycan SİB-də şirkətdən kənar və daxili münasibətlər və əlaqələr üzrə məsul şəxs idi. O bu sahədə BP daxilində və ondan kənarda yüksək vəzifələrdə 19 il işləmişdir. Son vaxtlar o, Londonda BTC-nin Əlaqələr üzrə meneceri idi. *2008-ci ilin yanvar ayında Kler BP-nin geoloji-kəşfiyyat və hasilat seqmentində xarici işlər üzrə müşavir vəzifəsinə təyin olundu və onun yerinə Seymur Xəlilov təyin olundu* (səhifə 37).



**Pol Klayn**
**Yeni işlənmələr üzrə vitse-prezident**
Pol BP Azərbaycan SİB-nin geoloji-kəşfiyyat və yeni işlənmələr üzrə fəaliyyətləri üçün məsuldur. Onun Şimal dənizində "Şihalliyon", "Endru" və "Hardinq" kimi yeni işlənmələrdə operativ rəhbərlik təcrübəsi vardır. O, bundan əvvəl Alyaska, Kanada və Norveçdə işləyib.



**Mayk Skitmor**
**Dənizdə əməliyyatlar üzrə vitse-prezident**
Mayk AÇG və ŞD əməliyyatları və Maddi-texniki təchizat üzrə məsul şəxsdir. Bundan əvvəl Mayk əməliyyatlar (Avropa), geoloji-kəşfiyyat və texnologiya üzrə rəhbər işləmiş və əməliyyatlarda təşkilati struktur potensialını yaxşılaşdırmağa və Şimal dənizi əməliyyatlarının irəliləməsinə öz töhfələrini vermişdir.



**Çarlz Proktor**
**Kommersiya işləri üzrə vitse-prezident**
Çarlz planlaşdırma və iqtisadiyyatın idarə edilməsi, birgə müəssisələrin menecmenti, kommersiya əməliyyatları, biznes inkişafı, maliyyə və nəzarət, maddi-texniki tədarük və təchizat sisteminin idarə edilməsi üzrə məsul şəxsdir. O, Böyük Britaniyada, Avropada, Anqolada, İndoneziyada və Rusiyada işləmişdir.



**Syu Adlam-Hil**
**Əmək ehtiyatları üzrə vitse-prezident**
Syu BP Azərbaycan SİB-də kadrlar şöbəsinə (KŞ) rəhbərlik edir. Onun eksperimental psixologiya və kadrların idarə edilməsi üzrə elmi dərəcələri və dəyişikliklərin idarə edilməsi və kadrların idarə edilməsi sahələrində böyük təcrübəsi var. O, 1989-ci ildən BP şirkətində çalışır.

# Tarixi ekskurs

**Sentyabr 1994**

BP, onun tərəfdaşları və Azərbaycan hökuməti arasında Xəzər dəniz ehtiyatlarının işlənməsi üçün AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) imzalandı

**Fevral 1995**

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti təsis edildi.

**İyun 1996**

Şahdəniz yatağı üzrə HPBS imzalandı

**Noyabr 1997**

Çıraq yatağından Birinci neft hasil edildi

**İyul 1998**

İnam və Araz-Alov-Şərq yataqları üzrə HPBS-lər imzalandı

**Dekabr 1998**

Qərb İxrac Boru Kəməri (QİBK) istismara verildi

**Avqust 2001**

AÇG Faza 1 layihəsinə sanksiya verildi

**Sentyabr 2002**

AÇG Faza 2 layihəsinə sanksiya verildi

**Fevral 2003**

Şahdəniz Mərhələ 1 layihəsinə sanksiya verildi

**Aprel 2003**

BTC boru kəmərinin inşasına başlanıldı

**Sentyabr 2004**

AÇG Faza 3 layihəsinə sanksiya verildi

**Oktyabr 2004**

Cənubi Qafqaz qaz boru kəmərinin (CQBK) inşasına başlanıldı

**Fevral 2005**

Xəzər dənizində Mərkəzi Azəri yatağından hasilata başlandı

**May 2005**

Mərkəzi Azəri yatağından Azərbaycana qaz verilməyə başladı; BTC boru kəmərinin Azərbaycandakı hissəsi istismara verildi

**Dekabr 2005**

Dərinsulu Günəşlidə öncəqazma proqramına başlanıldı; Qərbi Azəri yatağında neft hasilatına başlanıldı

**May 2006**

Birinci qaz CQBK-yə nəql edildi

**İyun 2006**

Ceyhan terminalında ilk tanker Xəzər nefti ilə yükləndi; AÇG yatağında hasilat norması rekord həddə çatdı - gündə 500 000 bareldən çox

**İyul 2006**

BTC boru kəmərinin Türkiyədəki hissəsi, Ceyhan terminalı və BTC boru kəməri ixrac sistemi istismara verildi

**Noyabr 2006**

Şərqi Azəridə birinci mənfəət nefti hasil edildi

**Dekabr 2006**

Şahdəniz yatağından qaz hasilatına başlandı; Cənubi Qafqaz boru kəmərinin istismarına başlanıldı

**Mart 2007**

BTC-nin məhsuldarlığı gündə bir milyon barelə çatdırıldı

**İyul 2007**

Birinci qaz Şahdəniz yatağından Türkiyəyə çatdırıldı

**Noyabr 2007**

Şahdənizdə böyük bir qaz-kondensat yatağı kəşfi edildi və onun ardınca Xəzərdə rekord dərinliyə - 7 300 metrdən çox - bir quyu qazıldı; İnam yatağında kəşfiyyat qazmasına yenidən başlandı

## 1.2 BP Azərbaycan - gələcəyə nəzər

**Bizim şirkət Azərbaycanda üç və bir illik müfəssəl planlar əsasında BP qrupu dəyərlərinə, standartlarına və strukturlarına uyğun olaraq fəaliyyət göstərir.**

**Gələcəyi necə görürük** Biz işçi qüvvəsinin qabiliyyətlərini artırmaqla, yerli ehtiyatlardan istifadə etməklə və bacarıqlar yaratmaqla yüksək keyfiyyətli və aşağı qiymətli xidmətlər göstərmək və Xəzərdə davamlı və fərqli mövcudluq yaratmaq əzmindəyik. Biz qurğuların səmərəliliyini yaxşılaşdırmaqla, ehtiyatların işlənməsi ilə və hasilatı artırmaqla dəyər yaratmağa çalışırıq.

Bütün hallarda biz qəzasız işləmək, ətraf mühiti qorumaq və insan haqlarına hörmətlə yanaşmaq kimi öhdəliklərimizə sadiqik. Məqsədimiz Azərbaycanın neft və qaz ehtiyatlarının işlənməsində dəyərli və etibarlı bir tərəfdaş olmaqdır.

**Dəyərlərimiz** Biz Azərbaycanda həyata keçirdiyimiz işlərdə bütövlükdə BP qrupu üçün ümumi olan bir neçə fundamental və sabit dəyərlərə riayət etməkdə qərarlıyıq. Bu dəyərlərə sarsılmaz düzlük və təmizliyə sadiqlik, vicdanlı davranış, başqalarına hörmət və ləyaqətlə yanaşma, biznes fəaliyyətimizdə qarşılıqlı fayda və fəaliyyət göstərdiyimiz cəmiyyətə etibarlı töhfələr vermək daxildir. BP qrupunun korporativ idarəetmə siyasətləri idarəetmə istiqamətlərini müəyyənləşdirən və icraya nəzarəti təmin edən bünövrədir.

**Bizim idarəetmə strukturumuz** 2007-ci ildə Azərbaycan rəhbər qrupu strukturu dənizdə əməliyyatlar, quruda əməliyyatlar, yeni işlənmələr, əsas layihələr, sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühitin mühafizəsi və texniki məsələlər, kadrlar, maliyyə və əlaqələr və xarici işlər şöbələrinə rəhbərlik edən və BP Azərbaycan SİB prezidentinə hesabat verən səkkiz vitse-prezidentdən ibarət olmuşdur. Birinci dörd şöbə bizim biznesin aparılmasını bilavasitə idarə edir, qalan dörd şöbə əsas şöbələrə peşə xidmətləri göstərir və dəstək verir və BP-nin dünyanın başqa yerlərindəki peşə xidmətləri qrupları ilə sıx əlaqədə olurlar.

**Bizim biznes strategiyamız** Bizim Azərbaycandakı strategiyamız BP qrupunun strategiyasını əks etdirir. Bu isə müştərək faydalar əldə etmək üçün irimiqyaslı, dünya səviyyəli neft və qaz işlənmələri imkanlarının araşdırılması deməkdir. Bu qrup strategiyasının bir hissəsi kimi, biz əməliyyatların təhlükəsizliyini təmin etməkdə, fəaliyyətlərimizi məsuliyyətlə aparmaqda, insan haqlarına hörmətlə yanaşmaqda və işçilərimizin öz rəylərini söyləmək və ümumi işdə iştirak etmək imkanlarını yaxşılaşdırmaqda qərarlıyıq.



Bizim Azərbaycandakı prioritetlərimizə əməliyyatlarımızın insanlara heç bir xəsarət yetirməməsini təmin etmək, işçi qüvvəsinin bacarıqlarını gücləndirmək, yataqları öz öhdəliklərimizə uyğun olaraq işlətmək, Xəzər regionunda yeni neft və qaz imkanlarından istifadə etmək, fəaliyyət göstərdiyimiz ölkə hökumətləri və digər əsas xarici maraqlı tərəflərlə əlaqələri daha da yaxşılaşdırmaqdan ibarətdir.

# 1.3 Dialoq və görüşlər

**Biz inanırıq ki, bizim Azərbaycandakı maraqlı olan tərəflərlə apardığımız mütamadi dialoq və çoxsəviyyəli görüşlər konstruktiv və qarşılıqlı faydalı əlaqələrin saxlanılmasının ən səmərəli yollarından biridir.**

**Xülasə** Azərbaycanda fəaliyyət göstərən ən böyük sərmayəçi kimi, müxtəlif maraqlı tərəflərlə bizim qarşılıqlı əlaqələrimiz 2007-ci ildə də davam etdi və biz dövlət və yerli hökumətlə, yerli və beynəlxalq qeyri-hökumət təşkilatları (QHT) ilə, akademiya ilə, əməkdaşlarla, yerli icmalarla, media mənsubları ilə, çoxtərəfli təşkilatlarla və bizim fəaliyyətlərimizə nəzarət edən bir çox müstəqil tərəflərlə müxtəlif məsələlər üzrə əməkdaşlıq etdik. Bu əlaqələr öz əksini iclaslarda, brifinqlərdə, seminarlarda və istehsalat sahələrinə səfərlərdə tapırdı.

## Hökumətlə

- Əməliyyatlarımızı müzakirə etmək üçün Azərbaycan Respublikasının Prezidenti və digər yüksək rütbəli hökumət rəsmiləri ilə bir neçə görüş keçirildi. 2007-ci ilin aprel, avqust, oktyabr və dekabr aylarında BP qrupunun geoloji-kəşfiyyat və hasilat üzrə baş icraçı direktoru Endi İnqlis Prezident İlham Əliyevlə görüşdü. Endi İnqlis eləcə də Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayevlə ayrıca görüşdü.
- 2007-ci ilin noyabr ayında Azərbaycan hökuməti və BP Azərbaycan arasında ikitərəfli təhlükəsizlik protokolu imzalandı
- Bizim işlətdiyimiz istehsalat sahələrinə Azərbaycanın və digər hökumətlərin yüksək rütbəli rəsmiləri baş çəkdilər. 2007-ci ildə istehsalat sahələrimizə gəlmiş belə qonaqların sırasında Türkiyənin baş naziri, Belarusun baş naziri, ABŞ senatorları, çox möhtərəm Qildford lordu Hauvell, Yunanıstan parlamentinin və Fransa Senatının nümayəndələri və İsrail və Yaponiya xarici işlər nazirliklərinin rəsmi şəxsləri olmuşdur.
- Biz Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) "Oksford Ekonomiks" təşkilatı tərəfindən idarə olunan Azərbaycan iqtisadiyyatının makroiqtisadi modelləşdirilməsi layihəsində iştirakımızı davam etdirdik. 2007-ci ildə bu layihə modelin təkmilləşdirilməsi və Azərbaycan hökuməti çərçivəsində bacarıqların yaradılması üzərində cəmlənmişdi. Dekabr ayında ARDNF, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Milli Bank və Prezident aparatı nümayəndələrinin daxil olduğu işçi qrup təcrübə keçmək məqsədi ilə İngiltərəyə səfər etdi.
- BP qrupunun iqtisadiçıları İqtisadi İnkişaf Nazirliyi ilə həmin nazirlikdə makroiqtisadi siyasətin həyata keçirilməsi bacarıqlarının yaradılması ilə əlaqədar danışıqlar aparıldı.
- Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün (MSŞT) həyata keçirilməsində ARDNF-lə əməkdaşlığı davam etdirdik.
- Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə Hasilatın Pay Bölgüsü (HPBS-lər) və Tranzit Əraziyə Malik Ölkə Hökumətləri ilə Sazişlərinin (TƏMÖHS-lər) və digər müvafiq sazişlərin bir hissəsi kimi qarşılıqlı maraq doğuran bir sıra məsələlər üzrə birlikdə işləməyi davam etdirdik.
- İnam dəniz yatağında geoloji-kəşfiyyat işlərinin növbəti mərhələsi ilə bağlı son məlumatları çatdırmaq üçün Lənkəranda və Neftçalada yerli hökumət nümayəndələri ilə görüşlər keçirdik.
- Sahibkarlığın inkişaf etdirilməsi ilə əlaqədar gələcək əlaqələri müzakirə etmək üçün biz bütün il boyu İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan İnvestisiya Şirkəti və Azərbaycan İxracat və Sərmayələrin Yaxşılaşdırılması Fondunun nümayəndələri ilə görüşürdük.

## Vətəndaş cəmiyyəti ilə

- BP-nin Azərbaycanda davam etməkdə olan biznes inkişafını vətəndaş cəmiyyəti təmsilçiləri ilə müzakirə etmək və QHT nümayəndələrindən onların layihələri, problemləri və gələcək istiqamətləri barədə məlumat



almaq üçün biz hər rüb brifinqlər və dialoq üçün yığıncaqlar təşkil etmişik.
- Biz yerli QHT-lər və yerli jurnalistlər üçün mənfəət neftinin AÇG HPBS-inə uyğun olaraq bölüşdürülməsi mexanizmi üzrə təqdimat keçirdik.
- Tələbələr də daxil olmaqla şirkətdən kənar auditoriyalarla 2006-cı il Azərbaycanda davamlı inkişaf haqqında hesabat və BP-nin statistika göstəricilərinin xülasəsi üzrə rəy və təklifləri öyrənmək üçün iclas keçirilib.

## Əməkdaşlarla

- Biz aktual məsələləri müzakirə etmək üçün rüblük əsasda ümumi yığıncaqlar keçirdik.
- 2007-ci ildə biz işçi heyəti üçün Azərbaycan və ingilis dillərində "Compass" jurnalının doqquz nömrəsini nəşr etdik.
- İşçilərlə birbaşa və ləngimədən ünsiyyət yaradılmasını yaxşılaşdırmaq üçün BP Azərbaycan SİB prezidentinin aylıq elektron bülleteni BP-nin intranet səhifəsində yerləşdirildi.
- Əməkdaşlarımız və onların qohumları üçün bir sıra "ailə günləri" keçirdik. Xəzər Enerji Mərkəzi 300 nəfərdən artıq adamın iştirak etdiyi altı "ailə günü" tədbiri təşkil etdi.
- BP-nin əməkdaşlar üçün nəzərdə tutulan "Open talk" ("Açıq söhbət") adlanan qanunlara riayət və etika məsələlərinə xidmət edən etimad telefon xətti öz işini davam etdirmişdir (səhifə 41).
- Əməkdaşlarla hərtərəfli əlaqə yaratmaq üçün biz BP Azərbaycan SİB-nin intranet səhifəsini modernləşdirdik və təkmilləşdirdik.
- Biz gələcəyin liderlərinə biznes məsələlərini BP Azərbaycanın yüksək vəzifəli rəhbərləri ilə müzakirə etmək imkanı verən "Yeni Düşüncələr Şəbəkəsi"nə (YDŞ) dəstək verdik.

## İcmalarla

- BTC/CQBK boru kəmərlərinin inşası başa çatdıqdan sonra da görülən işlər barədə sakinləri məlumatlı saxlamaq və onları narahat edən məsələləri öyrənmək məqsədi ilə icmalarla əlaqə üzrə məsul 7 əməkdaşımız (İƏMŞ) və bir nəfər sahə təhlükəsizliyi müşaviri müntəzəm olaraq 130 icmaya səfərlər etmişdir.
- Biz ictimaiyyətlə əlaqələr üzrə əməkdaşlarımız, yerli təhlükəsizlik qüvvələri və BTC/CQBK boru kəmərləri boyunca yerləşən icmalar arasında əməkdaşlığa dəstək vermişik (səhifə 34-35).
- BTC/CQBK layihələri başa çatdırıldıqdan sonra da narazılıqların aradan qaldırılması üzrə rəsmi mexanizmlər öz işlərini davam etdirmişdir.
- Biz yeni bir əməkdaşların məşğulluq proqramının həyata keçirilməsinə başladıq. Proqramın qəbul edilməsindən sonra ilin axırıncı üç ayı ərzində BP Azərbaycanın 38 əməkdaşının iştirak etdiyi səkkiz layihə başa çatdırıldı. Müxtəlif icma layihələrinə, xüsusilə məktəblər və uşaq evləri ilə əlaqədar layihələrə 13 740 ABŞ dolları məbləğində sərmayə qoyduq.

## Kütləvi informasiya vasitələri ilə

- Biz layihələrimizin həyata keçirildiyi tikinti sahələrində mətbuat günləri təşkil edərək mətbuat nümayəndələri ilə layihələrin gedişi barədə brifinqlər keçirdik və eləcə də yerli və xarici ölkələrin jurnalistləri üçün çoxsaylı müsahibələr və tikinti sahələrinə səfərlər təşkil etdik.
- Biz yerli jurnalistlər üçün HPBS-lərin strukturu və mexanizmləri, 2006-cı ilin davamlı inkişaf haqqında hesabatı və sahibkarlığın inkişafı üzrə üç seminar təşkil etmiş və təlim proqramı keçirmişik.
- BP Azərbaycan SİB rəhbərliyi rüblük




əsasda mətbuat brifinqləri keçirmişdir.

- 2007-ci ildə fəaliyyətlərimizin bütün aspektlərini əhatə edən 27 pres-reliz (mətbuat üçün açıqlama) dərc etmişik.
- Əlaqələr üzrə menecerimiz Azərbaycan Radiosu stansiyasında müntəzəm olaraq BP-nin Azərbaycandakı fəaliyyətləri barədə 30 dəqiqəlik canlı söhbət aparmışdır.
- Britiş Kaunsl və Tomson Fondu ilə əməkdaşlıqda biz 12 nəfər azərbaycanlı jurnalist üçün biznes jurnalistikası üzrə təlim proqramını maliyyələşdirmiş və həyata keçirmişik (səhifə 58).

## Digər maraqlı tərəflərlə

**Yüksək vəzifəli şəxslərdən ibarət beynəlxalq nümayəndə heyətləri**

- İstehsalat sahələrimizdə NATO, İtoçu, Mitsubuşi Korporeyşn UK PLC, Ukrtransnafta, Beyker end MakKenzi, Hess, Total, TPAO, Statoyl, İnpeks və İdemitsu Kotsan Ltd.-nin yüksək vəzifəli nümayəndələrini qəbul etdik.

**Tələbələr**

- Biz tələbələr üçün yay internatura proqramının həyata keçirilməsinə davam etdik. Bu, üç nəfər tələbəyə İnterneşnəl Medikal Korps (İMK) və yerli "Mədəd" və "Ümid" QHT-lər tərəfindən idarə olunan icma sərmayə layihələrində iştirak etməyə imkan verdi. Onlar tərcümə, layihə sənədlərinin hazırlanması, icmalara səfərlər, tədqiqatlar aparmaq və proqramla bağlı digər fəaliyyətlərdə iştirak etdilər.
- Biz internatura proqramı vasitəsilə tələbələrə BP Azərbaycan SİB-nin müxtəlif şöbələrində işləyərək təcrübə qazanmaq imkanı verdik.
- Tələbələrdən 2006-cı il BP Azərbaycanın davamlı inkişaf haqqında hesabatı ilə əlaqədar rəy və təkliflər almaq üçün müşavirələr keçirdik.
- Biz müxtəlif təqaüd proqramlarına dəstək verdik (səhifə 58).
- Biz Azərbaycan - Böyük Britaniya ali təhsil məzunları cəmiyyətinə dəstək verdik (səhifə 58).

**Həmkarlar ittifaqları**

- 2007-ci ildə biz podratçılarımızın işi ilə əlaqədar əmək problemlərini həll etmək üçün ARDNŞ və həmkarlar təşkilatları ilə görüşlər keçirməyi davam etdirdik. Bu əməkdaşlıq nəticəsində biz bütün layihəni əhatə edən bir razılıq əldə etməyə müvəffəq olduq və bu, iş həcmlərinin tamamlanması ilə əlaqədar qarşılıqlı şəkildə razılaşdırılmış kateqoriyaların müəyyən məbləğdə maliyyə yardımı almasını təmin etdi.

**Xəzərdə İşlənmələr üzrə Məsləhət Şurası (XİMŞ)**

- Yanvar ayında biz XİMŞ-dən sonuncu hesabatı aldıq. Həm hesabat, həm də bizim ona cavabımızla *www.bp.com/caspian* və *www.caspsea.com* saytlarında tanış olmaq olar.

**Azərbaycan Sosial Təhlil Komissiyası**

- 2007-ci ilin əvvəllərində bizim Azərbaycanda ictimai fəaliyyətimizə aid olan istiqamətləri, problemləri və uzun müddətli məsələləri müəyyən etməkdə şirkətə kömək etmək üçün yeni bir müstəqil məsləhət qrupu kimi ASTK təsis edildi.

**Geniş ictimaiyyət**

- Biz Bakıda və Neftçalada ictimaiyyəti İnam dəniz yatağında kəşfiyyat işlərinin növbəti mərhələsi barədə məlumatlandırmaq üçün görüşlər keçirdik.
- Biz öz şirkətdənkənar veb-səhifəmizi saxlamaqda davam edir və onu mütamadi olaraq yeniləşdiririk: *ww.bp.com/caspian*
- BP-nin əməliyyatçısı olduğu neft və qaz layihələrinin gedişi və şirkətimizin regionda oynadığı rol barədə Azərbaycan xalqını məlumatlı saxlamaq məqsədi ilə biz beş "BP Azərbaycanda" və bir "BP regionda" adlı proqramlar hazırlamış və yerli televiziya kanalı ilə efirə vermişik.

# 1.4 Layihələr və əməliyyatlarımız

**2007-ci il əməliyyatlarımızda bir çox nailiyyətlərlə, o cümlədən Azəri-Çıraq-Dərinsulu Günəşli neft yatağında hasilatın artırılması, Şahdəniz (ŞD) qaz yatağında mühüm bir kəşf və Səngəçal terminalının genişləndirmə proqramının uğurla başa çatdırılması ilə əlamətdar oldu.**

## Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG)

**Xülasə** AÇG Xəzər hövzəsinin Azərbaycan sektorunda işlənməkdə olan ən iri neft yatağıdır. Bakıdan təxminən 100km şərqə doğru uzanan bu yataq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) əməliyyatçısı olan BP şirkəti tərəfindən işlənir.

AÇG-də hasilat işlərinə 1997-ci ildə Çıraq yatağından başlanmışdır. Faza 1 və Faza 2 işlənmələri Şərqi, Qərbi və Mərkəzi Azəri kompleksində aparılmışdır. Bundan sonra Faza 3 - Dərinsulu Günəşli yatağının işlənməsi gəlir. Tam miqyaslı AÇG əməliyyatları 2008-ci ilin ikinci rübündə başlanacaqdır. 2009-cu ilədək AÇG-dən əldə olunan hasilatın gündə təxminən bir milyon barel neft olacağı gözlənilir.

**2007-ci ilin əlamətdar hadisələri** AÇG hasilatı planda nəzərdə tutulan gündə 708 000 barel neftə qarşı orta hesabla gündə təxminən 668 000 barel neft olmuşdur. Buna səbəb Çıraq yatağındakı üç quyunun gözlənilmədən su və qum hasil etməsi, habelə Şərqi Azəri platformasındakı neftdə qaz əmsalının proqnozlaşdırıldığından yuxarı olması ilə əlaqədar məhsuldarlığın aşağı düşməsidir.

Orta hesabla gündəlik 668 000 barel neft hasilatının 129 000 bareli Çıraq, 244 000 bareli Mərkəzi Azəri (MA), 171 000 bareli Qərbi Azəri (QA) və 124 000 bareli Şərqi Azəri (ŞA) platformasının payına düşür. 1997-2007-ci illər arasındakı müddətdə (2007-ci il daxil olmaqla) AÇG yatağından 792 milyon barel (təxminən 107 milyon ton) neft hasil edilmişdir (bax: "AÇG hasilatı" cədvəli).

2007-ci ildə biz ARDNŞ-yə planlaşdırıldığından təxminən iki dəfə çox, 2,4 milyard standart kub metrə yaxın AÇG səmt qazı verdik.

Tikinti fəaliyyətimizin bir hissəsi kimi, biz sentyabr ayında 2007-ci ildə böyük dayandırılma olan AÇG platformasının müvəqqəti dayandırılmasına başladıq. Dayandırma heç bir qəza və ya xəsarət hadisəsi olmadan başa çatdırıldı.

İl ərzində bizim AÇG kompleksi ilə əlaqədar əməliyyat xərclərimiz 445 milyon ABŞ dolları, əsaslı xərclərimiz isə 2 822 milyon ABŞ dolları olmuşdur.

**2008-ci ilə nəzər** 2008-ci ildə mövcud dörd platformadan və yeni quraşdırılmış Dərinsulu Günəşli (DSG) platformasından gündə orta hesabla 840 000 barel neft hasil etməyi planlaşdırırıq. Gündəlik ümumi hasilatın 134 000 barelinin Çıraqdan, 243 500 barelinin Mərkəzi Azəridən, 235 300 barelinin Qərbi Azəridən,

**AÇG hasilatı**

| | Hasilatın başlanma tarixi | Ölçü vahidi | Hasilat başlanandan 2007-ci ilin sonunadək neft hasilatı | 2007 faktiki hasilat | 2008 planlaşdırılmış hasilat |
|---|---|---|---|---|---|
| Çıraq | Noyabr 1997-ci il | mln. barel | 429,15 | 47,13 | 49,16 |
| | | mln. ton | 57,8 | 6,35 | 6,62 |
| Mərkəzi Azəri | Fevral 2005-ci il | mln. barel | 216,13 | 89,13 | 89,13 |
| | | mln. ton | 29,1 | 12,01 | 12,01 |
| Qərbi Azəri | Dekabr 2005-ci il | mln. barel | 97,6 | 62,53 | 86,12 |
| | | mln. ton | 13,1 | 8,42 | 11,60 |
| Şərqi Azəri | Noyabr 2006-cı il | mln. barel | 49,4 | 45,18 | 52,86 |
| | | mln. ton | 6,7 | 6,09 | 7,12 |
| DSG | Aprel 2008-ci il | mln. barel | | | 30,31 |
| | | mln. ton | | | 4,13 |

**BP-nin Xəzərdə işlətdiyi bütün obyektlər üçün strateji mərkəz**




144 400 barelinin Şərqi Azəridən və 82 800 barelinin DSG-dən hasil olunacağı gözlənilir.

2008-ci ildə biz AÇG-dən ARDNŞ-yə səmt qazının çatdırılmasını davam etdirməyi planlaşdırırıq.

İl boyu əməliyyat xərclərinə 600 milyon ABŞ dollarından çox və əsaslı xərclərə təxminən 2 milyard ABŞ dolları sərf etməyi planlaşdırırıq.

**Gələcək potensial** AÇG yatağında potensial yekun hasilatın 5 milyard barel neftdən çox olacağı proqnozlaşdırılır. Belə hasilatın həyata keçirilməsi bizdən kollektorun idarə edilməsində mürəkkəb metodlardan, qabaqcıl texnaloqiyaların istifadəsi ilə əldə edilmiş seysmik məlumatlardan, çoxtərəfli tamamlama işlərindən və gücləndirilmiş neft çıxarma texnologiyalarından istifadə tələb edir. AÇG işlənməsi zamanı əldə etdiyimiz kollektor haqqında məlumatlarla birgə dünyada qazandığımız təcrübə bizdə inam yaradır ki, biz bu məqsədə çata bilərik.

## Şahdəniz (ŞD)

**Xülasə** Şahdəniz (ŞD) təbii qaz yatağı 1999-cu ildə kəşf edilmişdir. O, sahildən dənizə doğru 70 kilometrlik bir məsafədə, suyun dərinliyinin 50-600 metr arasında olduğu bir ərazidə yerləşir. Yataq çoxsaylı lay "horizontlarından" ibarət mürəkkəb geoloji strukturdur. Uzunluğu 22 km, layın qalınlığı 1 000 metrdən artıq olan bu yataqda təzyiq çox yüksəkdir. BP şirkəti ŞD-nin operatorudur.

**2007-ci ilin əlamətdar hadisələri** İl ərzində biz 2,8 milyard kub metr plana qarşı 3,1 milyard kub metr qaz və 0,8 milyon ton kondensat hasil etdik. Planlaşdırıldığından yüksək olan bu hasilat yaxşılaşdırılmış quyu davranışına və gücləndirilmiş səmərəliliyin nəticəsində yaranmışdır. Şahdəniz qazının satışına fevral ayında başlanıldı və birinci ŞD qazı iyul ayında Türkiyəyə çatdı.

Dördüncü qiymətləndirmə quyusu SDX-04 Xəzərdə rekord dərinliyə - 7 300 metrdən də artıq bir dərinliyə qazıldı. Bu qazma təsdiq etdi ki, ŞD cənuba döğru uzanır. Bu quyu həm də indi istismar olunan laydan aşağıda yerləşən yüksək təzyiqli yeni lay kəşf etdi - bu da mühüm kəşf deməkdir. Bundan sonra aparılan quyu məlumatlarının analizi göstərdi ki, ŞD-nin həmin yerində ikinci işlənmə mərhələsinin başlanmasına haqq qazandıran kifayət qədər qaz vardır.

2007-ci ildə biz ŞD işlənməsi üzrə əməliyyat xərclərinin ödənilməsinə 170 milyon və əsaslı xərclərin ödənilməsinə isə 364 milyon ABŞ dolları məbləğində vəsait xərclədik.

**2008-ci ilə nəzər** 2008-ci ildə biz daha bir qiymətləndirmə quyusu qazmaqla Şahdənizdə qiymətləndirmə işlərimizi davam etdirməyi planlaşdırırıq. Əməliyyat xərcləri təxminən 120 milyon ABŞ dolları, əsaslı xərclər isə təxminən 500 milyon ABŞ dolları həcmində olacaqdır. İl ərzində

**ŞD hasilatı**

| | Hasilatın başlanma tarixi | Ölçü vahidi | Hasilat başlanandan 2007-ci ilin sonunadək qaz hasilatı | 2007 faktiki hasilat | 2008 planlaşdırılmış hasilat |
|---|---|---|---|---|---|
| ŞD qazı | Hasilat 24 noyabr 2006-cı ildə başlandı | standart mlrd $m^3$ | 3,255 | 3,14 | 7,68 |
| | | normal mlrd $m^3$ | 3,03 | 3,0 | 8,2 |
| | | barrel ekvivalent/gün | 52,5 | 52,4 | 127,8 |
| ŞD kondensatı | Ilkin qaz təchizatı 15 dekabr, 2006-cı ildə başlandı | mln. barel | 7,04 | 7,04 | 16,3 |
| | | mln. ton | 0,8 | 0,8 | 1,9 |

**Səngəçal üzrə əsas faktlar**

- Sahəsi: 542 hektar.
- Yeri: Bakıdan 55 km cənubda, Qaradağ rayonu ərazisində.
- Texnoloji emal gücü: 1,2 milyon bareldən çox (162 000 ton) neft və gündəlik 1,25 milyard kub fut qaz (0,9 Şahdəniz və 0,35 buxarların kondensasiya temperaturuna nəzarət aqreqatı)
- Anbarın həcmi: 3 milyon barel (405 000 ton).
- Operatoru: BP Azərbaycan SİB



2007-ci ildə bütün dünyada BP-nin 10 ən məhsuldar hasilat quyusundan üçü Şahdəniz yatağında və dördü AÇG yatağında idi.

**BP-nin 10 ən yaxşı hasilat quyusu, dekabr 2007-ci il**[a]




[a] Bu diaqramda Avstraliyadakı Vudsayd quyuları daxil deyildir, çünki hazırda onların barəsində əlimizdə məlumat yoxdur. Rəqəmlər yalnız BP-nin payını yox, quyulardan alınan ümumi hasilatı göstərir.
[b] Manqo qaz yatağı Trinidaddadır və onun operatoru BP şirkətidir.
[c] Kannonbol qaz yatağı Trinidaddadır və onun operatoru BP şirkətidir.
[d] Anqoladakı neft yataqlarının operatoru tərəfdaşdır.

7,7 milyard kub metr qaz və 1,9 milyon ton (təxminən 16 milyon barel) kondensat hasilatı güman edilir.

**Əlavə potensial** ŞD Mərhələ 1-dən maksimum hasilatın sabit səviyyəsinin ildə 8,6 milyard kub metr qaz və gündə təxminən 45 000 barel kondensat olacağı gözlənilir. Mərhələ 1 işlənməsindən cəmi qaz hasilatının təxminən 6,5 trilyon kub fut (təxminən 180 milyard kub metr) olacağı gözlənilir.

Şah Dəniz yatağının ilkin geoloji qaz ehtiyatlarının[a] 1 trillion kub metr olması proqnozlaşdırılır.

## Səngəçal terminalı (ST)

**Xülasə** Səngəçal terminalı Xəzərdən çıxarılan karbohidrogenləri ixracdan əvvəl texnoloji emaldan keçirən mərkəzi emal terminalıdır. Terminal Xəzərdə BP tərəfindən idarə olunan bütün obyektlərdən gələn hasilatı emal etmək və gələcək genişləndirməyə imkan yaratmaq məqsədilə layihələşdirilmişdir. Terminal neft və qaz emalı qurğularını, BTC-nin birinci nasos stansiyasını və

[a] İlkin geoloji qaz ehtiyatları - kollektordakı 100% qaz həcmidir və onun çıxarılması üçün tələb olunan texnologiya ilə məhdudlaşmayan qaz kollektorunun ölçüsünü göstərir.



## Boru kəmərini yoxlama ərsinləri (BYƏ) BTC boru kəmərini qoruyur

Boru kəmərini yoxlama ərsini (BYƏ) boru kəmərinin daxili vəziyyətini yoxlamaq, onun konfiqurasiyasına dair məlumatları toplamaq, qeyd etmək və boru kəmərlərində korroziyaya dair məlumatları aşkar etmək üçün istifadə olunan xüsusi alətdir. Bu məlumatlar BYƏ borudan çıxarıldıqdan sonra kompütere yüklənir ki, mühəndislər kəmərin içini "görə" bilsinlər. Bu proses İntellektual Ərsinləmə (İƏ) kimi tanınır.

Səngəçal terminalından başlayan və Türkiyədəki Ceyhan terminalınadək gedən BTC boru kəməri 11 ərsinləmə mərhələsinə bölünür. Hazırda iki növ İƏ-dən istifadə olunur - Konfiqurasiya Ərsini (KƏ) və Korroziyanı Aşkar edən Ərsin (KAƏ). KƏ boru kəmərinin diametrində olan batıq yerlər (hətta ən kiçiklərini belə) kimi mexaniki dəyişiklikləri aşkar edir və boru kəməri boyunca hər bir qüsurun yerini qeyd edir. Daha sonra bu məlumat boru kəmərinin qaynaq yerlərinin zədələnmədiyinə əmin olmaq üçün ilkin qaynaq (tikilən vaxtda olduğu kimi) məlumatları ilə tutuşdurulur. KAƏ borunun içərisində və üstündə hər hansı metal itkisini, eləcə də metalın daxili və/ya xarici korroziyasını aşkar edə bilir. KAƏ həm də boru kəmərinə qeyri-qanuni qoşulmaların müəyyən edilməsinə kömək edə bilir. Borunun diametrindən asılı olaraq müxtəlif seqmentlərdə müxtəlif ölçülü ərsinlərdən istifadə olunsa da, onların hamısı oxşar məlumatları qeydə alırlar.

BTC boru kəmərində İƏ-dən ilk dəfə 2007-ci ilin aprel ayında istifadə olundu və ondan hər beş ildən bir və ya şərait tələb edərsə, daha tez-tez istifadə olunacaqdır.

CQBK kompessor stansiyasını əhatə edir. Üçüncü tərəf boru kəmərləri terminal sisteminə qoşulmuşdur.

Səngəçal inteqrasiya olunmuş və hər bir elementi ayrıca idarə oluna bilən kompleks terminaldır. Əsas texnoloji qurğular vahid idarəetmə qrupu (Səngəçal terminalının genişləndirilməsi proqramı -STEP) və vahid baş podratçı - Türkiyənin "Tekfen" şirkəti və ARDNŞ-in yaratdığı "Azfen" şirkətinin daxil olduğu "Tekfen-Azfen" alyansı - tərəfindən inşa edilmişdir və onlar tərəfindən birgə işlədilir. Əlaqələndirilmiş terminalın inşa olunması ilə bütün layihələr böyük məbləğdə vəsaitə qənaət etmişdir.

**2007-ci ildə yalnız BP qrupuna aid olan maye karbohidrogenlər hasilatı** [a]




[a] 2007-ci ildə maye karbohidrogenlər hasilatında yalnız BP-yə aid olan payı gündə 1 304 min barel (birgə müəssisələr istisna olmaqla) olmuşdur və bura xam neft, təbii qaz kondensat və kondensat daxildir.
[b] Digər"ə Anqola, Avstraliya, Kanada, Kolumbiya, Misir, Trinidad və Tobaqo, Venesuela və başqaları daxildir.

**2007-ci ilin əlamətdar hadisələri**

AÇG Faza 3 üçün beşinci və altıncı aqreqatların istismara verilməsi oktyabr ayında başa çatdırıldı və qurğular istismar əməliyyatları üçün təhvil verildi. Bununla da STGP uğurla başa çatdırıldı və terminalın ümümi neft texnoloji emal məhsuldarlığını gündə bir milyon bareldən çox artırmağa imkan yaratdı. 2007-ci ildə ən yüksək gündəlik ixrac norması dekabr ayının 21-də əldə olundu (991 276 barel neft).

İlin sonlarında biz terminalda müvəqqəti hasil edilmiş lay suyu layihəsini istismara verdik. 2008-ci ilin sonunadək əsas hasil edilmiş lay suyu qurğuları istismara verilənədək biz bu qurğudan istifadə etmək niyyətindəyik.

**2008-ci ilə nəzər** 2008-ci ildə terminalda tikinti işləri əsas hasil edilmiş lay suyu qurğuları üzərində cəmlənəcəkdir. Ümid edirik ki, 2008-ci ilin dördüncü rübü ərzində bu layihəni tamamlayacaq və yeni qurğuları işə salacağıq. Terminalda 2008-ci il üçün planlaşdırılmış digər işlənmələrə yeddinci neft qızdırıcısı və yeni buxarların kondensasiya temperaturuna nəzarət qurğusu ilə əlaqədar işlər daxildir. Bunlar nefti (neft qızdırıcısı) və səmt qazını (BKTNQ) texnoloji emal etmək üçün əsas qurğulardır.



**2007-ci ilin sonunda BTC-nin əsas göstəriciləri:**

- ötürmə qabiliyyəti gündə 1 milyon barel
- orta məhsuldarlığı gündə təxminən 600 min barel

BTC ilə əlaqədar əlavə əsas faktlar üçün "BP Azərbaycanda davamlı inkişaf haqqında hesabat 2006"-nın 20-ci səhifəsinə baxın.

2007-ci ilin faktiki qiymətlərinə görə, Azərbaycan ən yüksək təmiz gəlir gətirən BP SİB-ləri arasında (TNK-BP hasilatı istisna olmaqla) yeddinci yerdə idi. AÇG yatağının tammiqyaslı işlənməsinin 2009-cu ilədək gündə təxminən bir milyon barel neft hasil edilməsi ilə nəticələnəcəyi gözlənilir.

## Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri

**Xülasə** Uzunluğu 1 768 km olan BTC boru kəməri (Azərbaycanda - 443 km, Gürcüstanda - 249 km, Türkiyədə 1 076 km) Xəzər dənizi sahilindəki Səngəçal terminalını Türkiyənin Aralıq dənizi sahilndəki Ceyhan terminalı ilə birləşdirir. Bu boru kəməri ilə həm AÇG-dən neft, həm də Şahdəniz yatağından kondensat nəql edilir. Ceyhan terminalında məhsul tankerlərə yüklənir və dünya bazarlarına yola salınır.

**2007-ci ilin sonunda CQBK-nın əsas göstəriciləri:**

- ötürmə qabiliyyəti (il): 8,06 milyard kub metr
- orta məhsuldarlığı (gün): 8,970 milyon standart kub metr,
- ən yüksək məhsukdarlığı (gün) : 21,645 milyon standart kub metr

CQBK ilə əlaqədar əlavə faktlar üçün "BP Azərbaycanda davamlı inkişaf haqqında Hesabat 2006"-nın 21-ci səhifəsinə baxın.

**2007-ci ilin əlamətdar hadisələri** 2007-ci ilin mart ayında boru kəmərinin gündə bir milyon barel layihə gücü işə salındı. İl ərzində BTC-nin orta məhsuldarlığı gündə 600 min barel olmuşdur. Bəzi hallarda isə boru kəməri özünün layihə gücünə çatmışdır. 2007-ci ildə bizim BTC-yə sərf etdiyimiz əsaslı xərclər 154 milyon ABŞ dolları olmuşdur.

**2008-ci ilə nəzər** 2008-ci ildə biz BTC-yə 87 milyon ABŞ dolları məbləğində əsaslı xərclər qoymağı planlaşdırırıq.

## Cənubi Qafqaz Qaz Boru Kəməri (CQBK)

**Xülasə** CQBK Gürcüstan/Türkiyə sərhədinə çəkilmiş 690 km uzunluqda boru kəməridir və bu boru kəməri Şahdəniz yatağından hasil edilən qazı Gürcüstan və Türkiyə bazarlarına çatdırır. Bu kəmərin inşası üçün BP məsuliyyət daşıyırdı və o, kəmərin texniki operatorudur.

**2007-ci ilin əlamətdar hadisələri** 2007-ci ilin sonunda CQBK-nın ötürmə qabiliyyəti ildə 8,06 milyard kub metrə bərabər idi. İl ərzində CQBK-nın orta məhsuldarlığı gündə 8,970 milyon standart kub metr olmuşdur. Bura ARDNŞ-yə verilən aşağı təzyiqli Azəri səmt qazı da daxildir.

2007-ci ildə bir gündə maksimum nəqletmə həcmi 21,645 milyard standart kub metr/gün olmuşdur və bu, dekabr ayında baş vermişdir. İl ərzində bizim CQBK-ya qoyduğumuz əsaslı xərclərin miqdarı 64 milyon ABŞ dolları olmuşdur.

**2007-ci ildə yalnız BP qrupuna aid olan qaz hasilatı[a]**




[a] 2007-ci ildə BP qrupunun xalis təbii qaz hasilatı gündə 7,222 milyon kub fut (birgə müəssisələr istisna olmaqla) olmuşdur. Rəqəmlər yalnız BP-nin payına düşən hasilatı göstərir.
[b] Digər: Avstraliya, Kanada, Çin, Misir, İndoneziya, Şarca, Trinidad və Tobaqo və başqaları daxildir.

**2007 BP Azərbaycan SİB dəniz qurğuları**




**Gələcək potensial**




**2008 ilə nəzər** 2008-ci ildə biz CQBK-ya 35 milyon ABŞ dolları məbləğində əsaslı xərclər qoymağı planlaşdırırıq. İnanırıq ki, kifayət qədər əsaslı sərmayə qoymaqla CQBK-nın məhsuldarlığını ildə 20 milyard kub metrə çatdırmaq olar.

## Qərb İxrac Boru Kəməri (QİBK)

**Xülasə** QİBK 1998-ci ildə Xəzər dənizindən Gürcüstanın Qara dəniz sahilindəki Supsa terminalına neft nəql edən mövcud boru kəməri marşrutu boyunca inşa edilmişdir.

2007-ci il ərzində QİBK geniş təmir və dəyişdirmə işlərinin görülməsinə imkan yaratmaq məqsədi ilə dayandırılmışdı. Bu proqrama Gürcüstanda (Zestafoni dövrələmə marşrutu) və Azərbaycanda (Kür çayı, Qərb keçidi) seqmentlərinin dəyişdirilməsi daxil idi. Bu iş 2008-ci ilin birinci rübündə başa çatdırıldı. Boru kəməri marşrutunun dayandırıldığı müddətdə biz digər marşrutlardan istifadə etdik ki, tələbata və ya AÇG hasilatına heç bir təsir olmasın.

**Gələcəyə bir nəzər** 2008-ci ildə QİBK-ni yenidən işə salmaq məqsədi ilə boru kəmərinin təhlükəsizliyinə və bütövlüyünə tam əmin olduqdan sonra onun bir daha tam istismara verilməsi proqramının həyata keçirilməsinə başlayacağıq.

## Şimal İxrac Boru Kəməri (ŞİBK)

**Xülasə** ŞİBK Azərbaycan neftini Avropa bazarlarına çatdırmaq üçün Rusiyanın Novorossiysk limanına nəql edən boru kəməridir. 2007-ci ildə onun məhsuldarlığı gündə 115 000 barel neft olmuşdur. İl ərzində ABƏŞ boru kəmərinin Səngəçaldan Rusiya sərhədində yerləşən Şirvanovkadakı ölçmə stansiyasınadək olan hissəsinin operatoru olmuşdur. 2008-ci ilin əvvəllərində operatorluğu ARDNŞ (Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti) öz üzərinə götürdü.

**BP Azərbaycanın layihələrdə iştirak payları**

| HPBS/TƏMÖHS | Əməliyyat şirkəti | BP-nin müvafiq hüquqi şəxsi |
|---|---|---|
| AÇG | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) | BP Eksploreyşn (Kaspian Si) Limited/Amoko Kaspian Si Petroleum Limited |
| BTC | Bakı-Tbilisi-Ceyhan Payplayn Kompani | BP Payplaynz (BTC) Limited |
| ŞD | BP Eksploreyşn (Şahdəniz) Limited | BP Eksploreyşn (Azərbaycan) Limited |
| CQBK | Cənubi Qafqaz Payplayn Kompani Limited | BP Payplaynz (CQBK) Limited |
| İnam | BP Amoko Eksploreyşn (İnam) Limited | Amoko İnam Petroleum Kompani |
| Alov | BP Eksploreyşn (Alov) Limited | BP Eksploreyşn (Azərbaycan) Limited |

## Geoloji-kəşfiyyat işləri

**Xülasə** Biz Xəzər regionunda işlənmə potensialına malik yeni, iri karbohidrogen ehtiyatları axtarmaq barədə öhdəliyimizə sadiqik.

**İnam** 2007-ci ildə bizim geoloji-kəşfiyyat işimiz İnam HPBS-i üzərində cəmlənmişdi. Noyabr ayında biz İNX-2 kəşfiyyat quyusunda qazma əməliyyatlarına başladıq. Müqavilə sahəsi Bakıdan 140 km cənubda yerləşir və 225 kvadrat kilometr ərazini əhatə edir. Suyun dərinliyi 45-200 metr arasındadır. Bu ərazinin mərkəzi hissəsindəki "İnam bank"ında minimum dərinlik dörd metrdir.

**Alov, Araz, Şərq** 2007-ci ildə texniki tədqiqatlar və yeraltı qiymətləndirmə işləri davam etdirildi. Bununla belə, Xəzəryanı dövlətlər dənizin bölünməsi üzrə razılığa gəlməyincə, BP qrupunun Alov kontrakt sahəsində iş aparmaq planı yoxdur.

## Digər fəaliyyət sahələri

**Kompleks təchizat və ticarət (KTT)**
BP Azərbaycan SİB payına düşən xam nefti BP-nin Londondakı Kompleks Təchizat və Ticarət (KTT) qrupu vasitəsilə bazara çıxarır. Bu, səviyyəsinə və coğrafi miqyasına görə, dünyanın ən böyük enerji satıcılarından biridir.

**BP-nin istehsal etdiyi sürtkü yağları Azərbaycanda** "Petrochem" qrupu BP-nin Azərbaycandakı bütün layihələri üçün sürtkü yağlarının, o cümlədən BP və "Castrol" markalı sürtkü yağlarının rəsmi təchizatçısıdır. 2007-ci ildə 2 175 000 litr sürtkü yağı BP Azərbaycan və onun Azərbaycandakı podratçılarına çatdırılmışdır. Bundan başqa, Azərbaycanın neft yataqlarında xidmət göstərən əksər podratçılar BP/"Castrol" sürtkü yağları ilə təchiz edilmişdir.

# 1.5 Əməliyyatların məsuliyyətlə aparılması

**2007-ci il ərzində biz Azərbaycanda istismarda olan obyektlərimizin çoxunda inteqrasiya edilmiş vahid sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik, ətraf mühit və sosial (SƏTTƏMS) idarəetmə sistemini tətbiq etdik. Bir neçə istehsalat sahəsində qaydalara riayət edilməsinin auditi keçirildi.**

## SƏTTƏMS idarəetmə sistemi və onunla əlaqədar proqramlar

Texnoloji proseslərin təhlükəsizliyinin idarə edilməsində BP qrupunun neft və qaz sənayesində lider olması məqsədinə doğru bir irəliləyiş əldə etdik.

**SƏTTƏMS idarəetmə sistemi** AÇG Hasilatın pay bölgüsü sazişinin 1994-cü ildə imzalanmasından sonra BP-nin Azərbaycandakı əməliyyatlarının həcmi və çoxşaxəliliyi sürətlə artmışdır. Bu artıma müvafiq olaraq, bizim idarəetmə sistemlərimiz də inkişaf etmiş və tətbiq olunmuşdur.

2005-ci ildə biz mövcud ətraf mühitin idarə edilməsi sistemini (bu sistem İlkin Neft Layihəsi mərhələsi üçün nəzərdə tutulmuşdu) yeni inteqrasiya edilmiş SƏTTƏMS idarəetmə sistemi ilə əvəz etməyə başladıq. Yeni sistem BP Azərbaycan SİB-nin təşkilati strukturunu əks etdirən prosedurların çoxsəviyyəli yarus sistemi əsasındadır.

**Azərbaycan SİB-nin SƏTTƏMS idarəetmə sisteminin yarus strukturu**

| Səviyyə | Biznes bölümü | Təsviri |
|---|---|---|
| Yarus 1 | BP Korporasiyası, SİB, Regional, Ölkə rəhbəri | BP qrupunun əsas siyasəti, AzSİB fəaliyyətlərini idarə edən standartlar və qaydalar |
| Yarus 2 | Strateji İcra Bölümü | AzSİB-nin əsas siyasəti, AzSİB fəaliyyətlərini idarə edən standart və qaydaların tərkib hissələri |
| Yarus 3 | İcra bölümü | AzSİB İS təlimatları üzrə idarəetmə planları və proseslər, ümumi prosedurlar |
| Yarus 4 | Yataqlar və ya istehsalat sahələri | Yataqlar/istehsalat sahələri üzrə konkret işçi sənədlər və əməliyyatlara nəzarət mexanizmləri |
| Yarus 5 | Obyektlər və ya ölkə | Obyektlər/ölkə üzrə konkret işçi sənədlər və operativ idarəetmə |

Onun əsas məqsədi SƏTTƏMS risklərinin və imkanlarının SİB tərəfindən ardıcıl olaraq idarə edilməsinə dəstək verən proseslər barədə məlumatları toplamaq, sənədləşdirmək və həmin prosesləri həyata keçirməkdən və BP qrupunun hər hansı tələbatları ilə yanaşı, qanunvericiliyə uyğunluğu təmin etməkdən ibarətdir.

Gələcəkdə indiki idarəetmə sisteminin yeni işlənib hazırlanmış və BP-nin bütün əməliyyatlarına tətbiq olunacaq Əməliyyatların İdarə olunması Sistemindən (ƏİS) gözlənilən nəticələr əsasında təkmilləşdirilməsi lazım gələcəkdir.

Ayrılıqda götürülmüş yataqların idarəetmə sistemlərindən inteqrasiya edilmiş SƏTTƏMS idarəetmə sisteminə keçmə ayrı-ayrı yataqların layihə mərhələsindən istismar mərhələsinə keçdikcə baş verir.

2007-ci ilin sonlarında aşağıda göstərilən istismar qurğuları SƏTTƏMS idarəetmə sisteminə inteqrasiya olunmuş və İSO 14001 sertifikatı almışdır (ətraf mühitin idarə edilməsi üzrə aparıcı beynəlxalq standart):

- Səngəçal terminalı - İlkin Neft Layihəsi, Mərhələ 1 və 2 Genişləndirmə layihələri və Şahdəniz.
- ŞİBK, QİBK və Supsa.



## Əməyin təhlükəsizliyi və əməliyyatların bütövlüyü auditi

2007-ci ilin aqvqust ayında 2007-ci il üçün BP qrupunun əməyin təhlükəsizliyi və əməliyyatarın bütövlüyü auditinin bir hissəsi kimi bizim quruda və dənizdəki icra bölümlərimizdə audit keçirildi. Bu auditlər altı bəndli planın ayrılmaz tərkib hissələrindən biridir. Onların böyük əksəriyyəti neft və kimya şirkətlərinin nümayəndələri (bu qrupda bir nəfər astronavt və bir nəfər nüvə mühəndisi olsa da), yarısı isə BP qrupuna aid olmayan xarici şirkətlərin təmsilçiləri idi.

Qruplar Qərbi Azəri platformasına, Çıraq platformasına, Səngəçal terminalına, dəniz təchizat bazasına və tullantıların toplandığı əraziyə səfər etdilər. Auditorların rəhbəri Kolin Loqan BP Azərbaycan SİB-nin bütün fəaliyyətlərini təriflədi və texniki-təmir işlərinin, fövqəladə hallarda cavab tədbirləri prosedurlarının, əməyin təhlükəsizliyinin idarə edilməsi və ünsiyyətin yaxşı təşkil edilməsini xüsusi ilə vurğuladı. Onun çıxardığı nəticə belə oldu ki, SİB "yaxşı işləyən və idarə olunan təşkilatdır".

Bundan sonra audit nəticəsində əldə edilmiş məlumatlar bizim dənizdə və quruda çalışan qruplarla bölüşdürüldü və başa çatdırılması vaxtı müəyyən edilməklə təshihedici fəaliyyət planları işlənib hazırlandı. 2008-ci ildə nəzarətçi auditorlar Bakıya qayıdacaq və görülən tədbirlərin gedişini yoxlayacaqlar.

- Dəniz qurğuları - Çıraq 1, Mərkəzi Azəri və KSVP, Şərqi Azəri, Qərbi Azəri və Şahdəniz alfa platformaları.
- Yardımçı qurğular - maddi-texniki tədarük və Sərəncə təhlükəli tullantıların idarə edilməsi qurğusu.

SƏTTƏMS idarəetmə sisteminin effektiv şəkildə həyata keçirilməsinə müntəzəm olaraq keçirilmiş təftişlər, yoxlamalar və auditlərlə nəzarət edilmişdir. Lazım olan hallarda düzəlişlər aparılmış və daha sonra onların səmərəliliyi yoxlanılmışdır.

2007-ci ildə şirkətdənkənar nəzarət altında BP-nin əməkdaşları tərəfindən aprel və avqust aylarında daxili idarəetmə sisteminin auditləri keçirildi. Eyni zamanda, seçilmiş istehsalat sahələrində SƏTTƏM-lə bağlı hüquqi tələblərə riayət olunmasının auditi keçirildi. Keçirilən auditlər sonrakı xarici auditlərin keçirilməsindən əvvəl işlərin icrası ilə əlaqədar qiymətli məlumatlar əldə edilməsinə şərait yaratdı.

Xarici İSO 14001 auditləri Mudi İnterneşnəl Sertifikeyşn Qrupu tərəfindən may və noyabr aylarında keçirildi. Düzəliş edilməli yalnız bir fəaliyyət növü aşkar edildi (bu, SƏTTƏM üzrə idarəetmənin yoxlanılmasına həsr edilmiş illik iclasın sənədləşdirilməsinin qeyri-qənaətbəxş aparılmasına aid idi). Bu məsələ noyabr ayında keçirlən audit ərzində həll olundu.

**Ətraf mühitlə bağlı qayda və qanunlara riayət olunmasının idarə edilməsi** BP-nin həyata keçirdiyi biznes fəaliyyətlərində SƏTTƏM-lə bağlı bir sıra tələblərə, o cümlədən beynəlxalq müqavilə və konvensiyalara, yerli qanunlara və qaydalara, kreditor müqavilələrinə, sənaye üzrə götürülmüş öhdəliklərə və BP standartlarına riayət olunmalıdır. BP-nin fəaliyyət sahələrində bu göstərilənlərə riayət olunmaması riskini azaltmağa və gücləndirilmiş bütövlük mədəniyyəti yaratmağa kömək etmək üçün 2007-ci ildə Qlobal SƏTTƏM

**İSO 14001 sertifikatı cədvəli**

| Obyektlər | Planlaşdırılmış sertifikatlaşdırma | Sertifikatlaş-dırılmışdır |
|---|---|---|
| QİBK-in Azərbaycan hissəsi | | 2000 |
| BTC-nin Azərbaycan hissəsi | 2008-ci ilin may ayı üçün planlaşdırılmışdır | - |
| CQBK-nin Azərbaycan hissəsi | 2008-ci ilin may ayı üçün planlaşdırılmışdır | - |
| Səngəçal terminalı - İNL | | 2000 |
| Səngəçal terminalı - AÇG Mərhələ 1 | | 2005 |
| Səngəçal terminalı - AÇG Mərhələ 2 | | 2007 |
| Səngəçal terminalı - AÇG Mərhələ 3 | 2009-cu ilin may ayı üçün planlaşdırılmışdır | - |
| Səngəçal terminalı - Şahdəniz | | 2007 |
| Səngəçal terminalı - BTC/CQBK | 2008-ci ilin may ayı üçün planlaşdırılmışdır | - |
| QİBK-ni Gürcüstan hissəsi | | 2000 |
| Supsa terminalı | | 2000 |
| BTC-nin Gürcüstan hissəsi | 2008-ci ilin may ayı üçün planlaşdırılmışdır | - |
| CQBK-nin Gürcüstan hissəsi | 2008-ci ilin may ayı üçün planlaşdırılmışdır | - |
| Çıraq 1 platforması | | 2000 |
| DSG | 2009-cu ilin may ayı üçün planlaşdırılmışdır | - |
| MA/KCVP | | 2005 |
| QA platforması | | 2006 |
| ŞA platforması | | 2007 |
| Şahdəniz alfa platforması | | 2007 |
| Dədə Qorqud qazma əməliyyatları | 2008-ci ilin noyabr ayı üçün planlaşdırılmışdır | - |
| İstiqlal qazma əməliyyatları | 2008-ci ilin noyabr ayı üçün planlaşdırılmışdır | - |
| Maddi-texniki tədarük | | 2007 |
| Sərəncə TTİQ | | 2007 |
| Mərkəzi tullantı toplanma əraziləri | 2009-ci ilin may ayı üçün planlaşdırılmışdır | |

qaydalarına uyğunluğun əsasları (Zümrüd Layihəsi) tətbiq olunmağa başladı. Bu layihədə BP-nin dünyanın hər yerində həyata keçirdiyi fəaliyyətlərdə istifadə olunmalı SƏTTƏM qaydalarına uyğunluğun idarə edilməsi prosesləri üçün verilən minimum tələblər müfəssəl şəkildə öz əksini tapmışdır.

İl ərzində BP Azərbaycan SİB-nin mövcud uyğunluq prosesləri, onların nəticələri və nəzarət mexanizmləri üzrə çatışmazlıqların analizi aparıldı və bu uyğunluq prosesinin əsas tələbləri ilə müqayisə edildi. O vaxtdan bəri analizin nəticələrindən uyğunluq proseslərimizin yaxşılaşdırılması və tələb olunan fəaliyyətlərin və resursların müəyyən edilməsi üçün istifadə olunur.

Bu təşəbbüsün bir hissəsi kimi, məlumatların uyğunluq tapşırıqlarını idarə edən instrumental proqram təminatına daxil edilməsi sahəsində xeyli iş görülmüşdür. 2008-ci ildə aktivləşdiriləcək bu məlumat bazası uyğunluq tapşırıqlarını idarə edəcək və bütün BP Azərbaycan SİB-də standartlara uyğunluğun monitoringi üçün əsas kimi xidmət göstərəcəkdir.

**Altı-bəndli-planın həyata keçirilməsi**

2007-ci ilin mart ayında biz Texas Siti emal zavodunda baş vermiş qəzanın ikinci ildönümünü bütün BP ofislərində iki dəqiqəlik sükutla yad etdik. Bu bizim hamımıza əməyin təhlükəsizliyi və məsuliyyət barədə düşünməyə imkan verdi və bir daha bizə xatırlatdı ki, öyrənilmiş dərslərdən aldığımız nəticələri tətbiq etməyə borcluyuq.

BP Azərbaycan SİB texnoloji proseslərin təhlükəsizliyinin idarə edilməsi işində sənayenin lideri olmaq məqsədimizə nail olmaq üçün lazımi cəhdləri davam etdirmək öhdəliyinə tam sadiqdir. Bunun ən əsas vasitəsi bütün BP-də tətbiq olunan BP qrupunun "Altı-Bəndli-Plan"ının həyata keçirilməsidir.

**2007-ci il boyu SİB bu altı bəndin hər biri üzrə irəliləyişlər əldə etdi:**

- Bənd 1 - Texas Siti qəzasından sonrakı tövsiyələrin yerinə yetirilməsi. Texas Siti qəzasından sonra Azərbaycanda əməliyyat sahələrinin bilavasitə yaxınlığında olan bütün treylerlər və müvəqqəti yaşayış tikililəri ya götürüldü, ya da onların istifadəsinin qarşısını almaq üçün bu və ya digər şəkildə nəzarətə götürüldü. 2005-2006-cı illərdə səyyar yaşayış tikililəri (SYT) üçün əlavə tələbatlar tətbiq edildi. Buna cavab olaraq, BP Azərbaycan SİB bütün belə qurğuların reyesterini hazırladı və yüksək risk ərazilərində quruda az sayda səyyar yaşayış tikililərini (SYT) müəyyən etdi (Azərbaycanda və Gürcüstanda cəmi sayı səkkiz). Bundan sonra həmin tikililər ya başqa yerə köçürüldü, ya da onların sakinləri çıxarıldı və yenidən tutulmaması üçün bağlanıldı. Bundan başqa, BP bütün SİB-lərdən onların istifadə etdikləri qazın yandırılmadan atmosferə buraxılması borularınının risk kateqoriyaları üzrə qruplaşdırılmasını xahiş etdi. Buna cavab olaraq, BP Azərbaycan SİB-nin qazın yandırılmadan atmosferə buraxılması borularının reyestri yeniləşdirildi və yekunlaşdırıldı. Bu qiymətləndirmənin nəticəsi kimi, heç bir yüksək riskli boru (BP qrupunun verdiyi tərifə uyğun) müəyyən edilmədi.
- Bənd 2 - əsas qəza risklərinin qiymətləndirilməsinin həyata keçirilməsi. İl ərzində öz həllini tapmamış yüksək prioritetli əsas qəza riskləri ilə əlaqədar tədbirlərin, o cümlədən maddi-texniki tədarük şöbəsi tərəfindən inteqrasiya edilmiş gəmilərin toqquşması və nəqliyyatın idarə edilməsi planının həyata keçirilməsi başa çatdırıldı.
- Bənd 3 - bütövlüyün idarə edilməsi (BİE) və işə nəzarət (İN) standartlarının tətbiqi. Standartların həyata keçirilməsinə kömək etmək üçün BP Azərbaycan SİB-nin İN siyasəti və İN prosedurları 2007-ci ildə tətbiq olunmağa başladı. BİE standartı ilə əlaqədar irəliləyişlərimizdən aşağıda bəhs ediləcəkdir.
- Bənd 4 - proseslərin qanunlara və qaydalara uyğunluğunun yaxşılaşdırılması. Yuxarıda göstərildiyi kimi, uyğunluq tapşırıqlarının meneceri mexanizminin (alətinin) 2008-ci il üçün planlaşdırılmış aktivləşdirilməsi ilə, uyğunluq tapşırıqlarının işlənib hazırlanması uğurla davam etdirilir.
- Bənd 5 - keçmiş audit nəticələrinin nizamlanıb başa çatdırılması. Bütün yüksək və orta çətinlikli tədbirlərin həyata keçirilməsi müntəzəm olaraq yoxlanılmış və SİB-nin görülən tədbirlərin izlənilməsi sistemindən istifadə edilməklə yerinə yetirilmişdir. Bundan başqa, Azərbaycan rəhbər qrupu tədbirlərin sona çatdırılmasına əmin olmaq üçün onları aylıq əsasda yoxlayır.
- Bənd 6 - əməyin təhlükəsizliyi üzrə səriştələrin yaradılması. BP Azərbaycan SİB indi əsas səriştəlilik qiymətləndirilməsi aparmaqda və əsas əməliyyat liderləri üçün işlənmə planları hazırlamaqdadır.

**Yeni SƏTTƏM siyasəti ilə əlaqədar bəyanat**

2007-ci ilin mart ayında bizim bütün əməkdaşlarımız tərəfindən riayət olunması tələb olunan yeni SƏTTƏM siyasəti ilə əlaqədar bəyanatımız yenidən işlənildi və rəsmən yenidən nəşr olundu.

BP qrupunun əsas öhdəliyi - heç bir qəza, insanlara heç bir xəsarət və ətraf mühitə heç bir ziyan - dəyişmədən öz yerində qalır. Lakin bununla belə, təshih olunmuş siyasətə yeni işlənib hazırlanmış BP qrupu standartlarına (məsələn, inteqrasiya edilmiş idarəetmə standartı, işə nəzarət standartı) və praktikalarına (məsələn, yeni layihələr üçün ətraf mühitlə bağlı tələblər) uyğun olaraq SƏTTƏM üzrə görülən işlərin idarə edilməsinə dair tələb də daxildir. Bu siyasət həm də BP-nin "Altı-Bəndli-Planı"nın daxil edilməsi üçün genişləndirilmişdir.

SƏTTƏM siyasəti bütün əməkdaşlara və podratçılara mütəmadi əsasda treyninqlər, işçi heyəti ilə iclaslar və təlimatlandırma dəqiqələri, plakatlar, videolar və BP Azərbaycan SİB-nin intranet səhifəsi vasitəsilə çatdırılmışdır. Bu siyasət geniş ictimaiyyət üçün açıqdır və ona dair plakatlar BP və podratçı ofislərində asılmışdır.

## Əməyin təhlükəsizliyində liderlik forumu



2007-ci ilin oktyabr ayında Bakıda əməyin təhlükəsizliyində liderlik forumu keçirildi. Bu, BP Azərbaycan SİB tərəfindən ildə bir dəfə təşkil edilən tədbirdir. Podratçılarımız və tərəfdaşlarımızla bir araya gələrək biz təcrübə və fikir mübadiləsi aparır və nailiyyətlərimiz, irəliləyişlərimiz və digər məsələlər barədə dühüncələrimizi bölüşürük. 2007-ci ildə keçirilən tədbirin mövzusu "birlikdə irəli" idi. Tədbirdə 60 müxtəlif şirkəti təmsil edən təxminən 140 nəfər iştirak etdi.

Forumda ön plana çəkilən məsələlərdən biri ən yaxşı təcrübə və öyrənilmiş dərslərə həsr edilmiş podratçı təqdimatları oldu. Təqdimatların mövzularına işə nəzarət, əməyin təhlükəsizliyinin qızıl qaydaları və idarəetmə sistemləri daxil idi. Forumun diqqət mərkəzində dayanan məsələlərdən biri də podratçı və BP nümayəndələri tərəfindən işlənib hazırlanmış və iştirakçılara təqdim edilmiş əməyin təhlükəsizliyinin balla qiymətləndirilməsi kartı ilə SƏTƏM göstəricilərinin ölçülməsi üsulları idi.

**Əməliyyatların bütövlüyün idarə edilməsi**
2006-cı ilin əvvəllərində BP qrupu əməliyyatlarının bütövlüyünün idarə edilməsi (ƏBİE) üzrə yeni bir standart qəbul etdi. İndi BP-nin Azərbaycandakı bütün istismar qurğuları üçün bir ildən o biri ilə keçən üçillik BİE planı işlənib hazırlanmışdır və bu qurğuların 2008-ci ilin sonlarında BP qrupu standartlarına tam uyğun olacağı gözlənilir.

2007-ci il boyu bizim ƏBİE planlarımızın səmərəliliyini ölçmək üçün bir çox əsas icra göstəricilərinə nəzarət edildi. Bunlara qəzalar, dağılmalar, təftişin idarə edilməsi, təmir-texniki işlərin idarə edilməsi və korroziya və kimyəvi materialların idarə edilməsi daxil idi. Bu monitorinqlə yanaşı, BP Azərbaycan SİB gələcək qəzaların səbəblərini təhlil etmək və alınan nəticələri bütün təşkilatla bölüşməklə onların sayının, ağırlığının və baş vermə ehtimalının azaldılması məqsədi ilə qəzaların təhqiqi və öyrənmə Şəbəkəsi hazırlamışdır.

2007-ci ildə BP-nin müəyyən etdiyi mühəndis-texniki qaydalara uyğun olaraq SİB 1768 kilometrlik BTC boru kəmərinin uzunluğu boyu birinci əsas yoxlamanın həyata keçirilməsinə başladı. Boru kəmərinin Azərbaycandan keçən hissəsinin yoxlanılması uğurla başa çatdırıldı. Yoxlama nəticəsində alınmış nəticələrin təhlil olunması hal-hazırda davam edir. CQBK qaz xəttinin yoxlanılması da davam edir.

Bütün 2007-ci il ərzində ƏBİE barədə məlumatlılığın artırılması kampaniyası aparılmış və yanvar ayında regional SƏTƏM forum konfransında və may ayında SİB əməliyyatlarına həsr edilmiş konfransda ƏBİE ilə bağlı təqdimatlar edilmiş və müzakirələr aparılmışdır.

**Podratçılarla əlaqədar əməyin təhlükəsizliyinin idarə edilməsi**
Bizim podratçıların sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit məsələləri ilə əlaqadar gördüyü işlər podratçıların istehsalat sahələrində və qurğularında müntəzəm olaraq aparılan təftiş və auditlər, podratçı menecmenti ilə hər ay keçirilən görüşlər və fəaliyyətlərin nəticələri üzrə rüblük və illik hesabatlar vasitəsilə qiymətləndirilir.

2007-ci ildə tullantıların emalı, təkrar emal, anbar və tullantıların ləğv edildiyi yerlər (eləcə də tullantıların daşınması), kimyəvi materiallar anbarları, ekoloji laboratoriyalar, yaşayış yerləri və ofislər də daxil olmaqla podratçıların idarə etdiyi bir çox obyektlərdə auditlər keçirilmişdir.

Oktyabr ayında biliklərin ötürülməsini təmin etmək məqsədi ilə biz əsas podratçı şirkətlərimizin iştirakı ilə əməyin təhlükəsizliyində liderlik forumu keçirdik. Bundan başqa, podratçı tərəfindən əməyin təhlükəsizliyinin təmin edilməsinə aid bir sıra sənədlər, o cümlədən SİB-nin SƏTƏM üzrə podratçılardan gözlədikləri minimum prinsiplər təsvir olunan sənəd və podratçıların SƏTƏM auditi proseduru hazırlanmışdır.

**2007-ci ilin əməyin təhlükəsizliyi sahəsində əlamətdar hadisələr**

- Heç bir ölüm halı olmamışdır.
- QNİİG-lər: QİBKM səkkiz il, İstiqlal qazma qurğusu dörd ildən çox və Səngəçal terminalı üç il yarım heç bir QNİİG hadisəsi olmadan işləmişdir.
- BP Azərbaycan şirkətinin peşəkar sürücüləri Dubayda keçirilən BP-nin beynəlxalq sürücülük çempionatında iştirak edərək dörd mükafata layiq görüldülər. İki nəfər nümayəndə Amerika Birləşmiş Ştatlarında oktyabr ayında keçiriləcək böyük finalda iştirak edəcəkdir.

## Əməyin təhlükəsizliyi

**Xülasə** 2007-ci ildə biz öz fəaliyyətimizə BP qrupunun Altı-Bəndli-Planı prinsiplərini tətbiq etmək üçün xeyli səy göstərdik. Aparılan bu kampaniyanın bir hissəsi kimi, əməyin təhlükəsizliyi üzrə mütəxəssislərimiz biznesimizin müxtəlif sahələrində qəzaların və onların baş vermə potensiallarının hərtərəfli təhqiqatını apardılar.

**2007-ci ilin əlamətdar hadisələri** 2007-ci ildə bizim Azərbaycandakı obyektlərimizin heç birində ölüm hadisəsi baş verməmişdir. Buna imkan yaradan amillərdən biri 2006-cı ildə Səngəçal terminalında aparılan tikinti işləri zamanı bir nəfər podratçı-qaynaqçının ölümü ilə nəticələnən qəza hadisəsindən "öyrənilmiş dərslər"ə çox böyük diqqət verilməsi olmuşdur. Qəzadan sonra görülən konkret tədbirlər, fikrimizcə, öz bəhrəsini verdi.

Bizim təhlükəsiz iş mədəniyyətimiz fəaliyyətlərimizlə bağlı xəsarət və ya qəza risklərini mütəmadi olaraq qiymətləndirməyə və onları məqbul səviyyələrə endirməyə əsaslanır. 2007-ci ildə yüksək potensiallı hadisələrin sayı 2006-cı illə müqayisədə cüzi miqdarda artmışdır. Bizə belə gəlir ki, bu artım bütün hadisələr barədə, xüsusilə də yüksək potensiallı hadisələr və təhlükəli vəziyyətlər barədə hesabat verilməsi və onlarla əlaqədar təhqiqatlar aparılmasına yönəlmiş böyük diqqətin göstəricisidir. Bundan başqa, SİB-nin fəaliyyətləri layihə mərhələsindən istismar mərhələsinə keçməkdədir və bu da risk profillərində müvafiq dəyişikliklərə gətirib çıxarır.

**BP Azərbaycan SİB-nin Azərbaycanda və Gürcüstanda SƏTTƏM təlim kursları**[a]

| | Adam/saat | ABŞ dolları ilə |
|---|---|---|
| 2006 | 43 786 | 5 994 675 |
| 2007 | 148 105 | 6 884 812 |

[a] 2006-cı ildə olduğu kimi, yekunlara SƏTTƏM və əməliyyatlar üzrə keçirilən təlimlər daxildir. Sistem məlumatları BP Azərbaycan SİB-dən bir bölmə kimi toplandığından, məlumatlar yalnız Azərbaycan üçün təqdim oluna bilməz.

**Əməyin təhlükəsizliyi üzrə təlim və məlumatlılıq** 2007-ci ildə BP və BP-nin Azərbaycan və Gürcüstandakı bir sıra podratçı işçi heyətinin SƏTTƏM və əməliyyatlar təlimlərinə həsr edilmiş saatlarının miqdarı 148 105 saat olmuşdur. Təlim kurslarına yanğınla mübarizə, fövqəladə hallarda cavab tədbirləri, neft dağılmaları hallarında cavab tədbirləri/məlumatlılıq, dənizdə əməliyyatlar üzrə təlim, qəza hadisələrinin təhqiqi, təhlükəli materiallar barədə məlumatlılıq, işə nəzarət, əməyin təhlükəsizliyi qaydalarına riayət edilməsi üzrə müşahidələr və söhbətlər (ƏTMS), tullantıların idarə edilməsi, ilk tibbi yardım və yeni işə götürülənlər üçün əməyin təhlükəsizliyi qaydaları ilə tanışlıq daxil idi.

SƏTTƏM üzrə təlimlərin böyük bir hissəsi şirkətin özü tərəfindən aparılmşdır. Buna görə də təlim saatlarının sayı xeyli artmış və təlimə çəkilən xərclər az miqdarda artmışdır.

Hər ay keçirilən təhlükəsizlik məşğələləri bir sıra mövzuları, o cümlədən soyuq vurması, nəqliyyat

**BP Azərbaycan SİB-in əməyin təhlükəsizliyi üzrə göstəriciləri - 2005-2007 -ci illər**[a]

| | Faktiki 2005 | Faktiki 2006 | Faktiki 2007 | Plan 2008 |
|---|---|---|---|---|
| Ölüm halları [b] | 2 | 1 | 0 | 0 |
| YPH(t)[c] | 0,005 | 0,03 | 0,05 | 0,05 |
| QNİİG(t)[d] | 0,01 | 0,03 | 0,04 | 0,05 |
| QX(t)[e] | 0,33 | 0,25 | 0,31 | 0,33 |
| YNQÜS[f] | 0,49 | 0,71 | 1,29 | 1,2 |
| ƏTTA(t)/ƏTMS(t)[g] | 937 | 983 | 934 | 600 |
| STOP(t)[h] | 3 659 | 5 923 | 4 574 | 3 000 |
| Əməyin təhlükəsizliyi üzrə təlim(t)[i] | 4 537 | 6 241 | 5 601 | 4 000 |
| Qət edilmiş kilometrlər (milyon) | 59,24 | 46,46 | 39,65 | t/o |
| İşlənilmiş saatlar (milyon) | 44,09 | 31,18 | 26,29 | t/o |

**2006-2007 BP Azərbaycanın təhlükəsizlik üzrə göstəriciləri**

| | 2006 | 2007 |
|---|---|---|
| Ölüm halları[b] | 1 | 0 |
| YPH(t)[c] | 0,04 | 0,06 |
| QNİİG(t)[d] | 0,02 | 0,05 |
| QX(t)[e] | 0,32 | 0,35 |
| YNQÜS[f] | 0,99 | 1,54 |
| ƏTTA(t)/ƏTMS[g] | 988 | 998 |
| STOP(t)[h] | 6 255 | 4 200 |
| Əməyin təhlükəsizliyi üzrə təlim(t)[i] | 5 740 | 5 485 |
| Qət edilmiş kilometrlər (milyon) | 28,28 | 27,96 |
| İşlənilmiş saatlar (milyon) | 21,83 | 21,66 |

[a] Bu cədvəl BP Azərbaycan SİB-yə aid olan məlumatları göstərir. Cədvələ sırf layihə məlumatları daxil deyildir və bura BP tərəfindən qeydə alınan/nəzarət olunan sahələrin rəqəmləri daxildir. BP-də istifadə olunan xəsarət və xəstəlik tərifləri ABŞ Peşə Sağlamlığı və Əməyin təhlükəsizliyi İdarəsi (PSƏTİ) tərəfindən müəyyənləşdirilmiş təriflərdən və bu təriflərin müvafiq şərhlərindən götürülmüşdür.

[b] Məlumat verilən ölüm hallarını göstərən rəqəmlərə yalnız layihə işləri daxil deyildir.

[c] YPH akronimi Yüksək Potensiallı Hadisə ifadəsinin ixtisar edilmiş variantıdır.

[d] Qəza nəticəsində itirilmiş iş günü hadisəsi (QNİİG) iş ilə bağlı xəsarət və ya xəstəlik nəticəsində ziyan çəkmiş şəxsin iş qabiliyyətini itirməsinə və belə hadisənin baş verdiyi gündən sonrakı ən azı bir normal iş növbəsinə çıxa bilməməsinə (çünki belə şəxs hər hansı bir vəzifəni yerinə yetirmək iqtidarında olmur) səbəb olan hadisə deməkdir. QNİİG hadisəsinin tezliyi [QNİİG(t)] işlənmiş 200 000 saat ərzində şəxsin (əməkdaşın və ya podratçının) bir və ya bir neçə gün (növbə) ərzində iş qabiliyyətini itirməsi ilə nəticələnən xəsarət və ya xəstəliklərin sayı ilə ifadə olunur. QNİİG(t) 2005-ci ildə iki, 2006-cı ildə beş və 2007-ci ildə beş QNİİG hadisəsi əsasında hesablanmışdır.

[e] Qeyd olunan xəsarət (QX) işlə bağlı bütün xəsarət hallarının, yeni ilk tibbi yardımdan əlavə müalicə tələb edən,məhdudlaşdırılmış iş, başqa işə keçirilmə, işə çıxmamağa səbəb olan xəsarətlər, və ölüm hallarının sayı deməkdir. QX-nin baş vermə tezliyi [QX(t)] işlənmiş 200 000 saat ərzində qeyd olunan xəsarətlərin sayı ilə ifadə olunur. 2006-cı illə müqayisədə QX-nin baş vermə tezliyində bir qədər artım olmuşdur. Bu, işlənilmiş layihə saatlarının xeyli azalması ilə bağlı idi. 2006-cı illə müqayisədə qeydə alınan qəzaların başvermə tezliyi bir qədər artdı. Bu ona görə baş verdi ki, 2006 və 2007-ci illərdə qəzaların sayının bərabər olması şəraitində işlənilmiş layihə saatlarının sayı xeyli azaldı. Bu, qurğuların işə salınması və dənizdə iş həcmlərinin artması ilə əlaqədar fəaliyyətlərimizin istismar mərhələsinə keçməsinin nəticəsində baş verdi.

[f] Yol-nəqliyyat qəzalarının ümumi sayı (YNQÜS) nəqliyyat vasitəsilə qət edilmiş hər milyon kilometr məsafəyə düşən yol-nəqliyyat qəzalarının sayıdır.

[g] Əməyin təhlükəsizliyi üzrə təkmilləşdirilmiş auditin (ƏTTA) və Əməyin təhlükəsizliyi üzrə qaydalara riayət proqramının (ƏTMS) tezlikləri işlənmiş hər 200 000 saat ərzində başa çatdırılan ƏTTA və ya ƏTMS müşahidələrinin sayına əsaslanır.

[h] Əməyin təhlükəsizliyi qaydalarına riayət proqramının (STOP) tezliyi məlumat verilmiş STOP müşahidələrinin sayına əsaslanır.

[i] Təlim saatlarının tezliyi işlənmiş hər 200 000 saat ərzində keçilən təlim saatlarının sayı ilə ifadə olunur.

vasitələrindən təhlükəsiz istifadə, əllə yükləyib-boşaltma, ofisdə və evdə təhlükəsizlik, iş yerlərində davranış, risklərin qiymətləndirilməsi və təhlükələrin qarşısının alınması, qəza vəziyyətlərinə hazır olma, elektrik təhlükəsizliyi, erqonomika və yorğunluq, narkotik maddələrdən sui-istifadə və nəqliyyat vasitələrindən qışda istifadə kimi mövzuları əhatə etmişdir.

2006-cı ildə əməyin təhlükəsizliyi ilə əlaqədar qəzaların statistikası göstərdi ki, bədənin ən çox xəsarət alan hissələri əllər və barmaqlardır. Bu məlumata əsaslanaraq, 2007-ci ilin iyun ayında SİB təhlükə barədə məlumatlılığı və sözügedən məsələ ilə əlaqədar bilikləri artırmaq məqsədi ilə əllərin qorunması haqqında məlumatlılıq seminarı təşkil etdi. Seminardan sonra bütün məlumatlar bütün işçi qüvvəsinə, eləcə də podratçılara çatdırıldı.

**Nəqliyyat vasitələrindən təhlükəsiz istifadə** 2007-ci ildə nəqliyyat vasitələrindən təhlükəsiz istifadə ilə əlaqədar bir sıra yeni təşəbbüslər həyata keçirildi. Onardan biri - BP Azərbaycan SİB-nin Səngəçal terminalı yaxınlığında yerləşən sürücülük təlimi məktəbi tam işlək vəziyyətə gətirilmişdir. SİB-nin sürücüləri üçün müasir təlim paketi həyata keçirildi və SİB-nin təhlükəsizlik kəmərləri kampaniyası davam etdirildi. 1000 nəfərdən artıq işçi və podratçı BP-nin müxtəlif obyektlərində nəzarət edilən avtomobil toqquşmasının nəticələri nümayiş etdirilən məşğələlərdə iştirak etdi.

2006 və 2007-ci illərdə podratçı sürücüləri tərəfindən nəqliyyat vasitələrinin idarə olunması üzrə bir sıra auditlər keçirildi və alınmış nəticələrdən nəqliyyat qəzalarının köklü səbəblərini ümumi şəkildə göstərən nəqliyyat vasitələrinin idarə edilməsində çatışmazlıqların təhlilinin tərtib edilməsində istifadə olundu. Bu isə sürücülər üçün təklif edilən əlavə təlimə və tələb olunan hesabatvermə prosedurlarının / proseslərinin (o cümlədən, sürücülük intizamı kodeksinin) tətbiqinə gətirib çıxardı.

Nəqliyyat vasitələrindən təhlükəsiz istifadə üzərində mütəmadi diqqətə baxmayaraq, BP-də nəqliyyat qəzalarının ümumi tezliyi Azərbaycanda 2006-cı ildəki 0,99 ilə müqayisədə 2007-ci ildə 1,54-ə çatmaqla 55%-ə qalxdı. Bu, əsasən, Azərbaycanın yollarında nəqliyyatın hərəkətinin artmasına və ağır yük maşınlarının tikinti məqsədləri üçün Bakıya daxil olmasına icazə verilməsinə görədir. 2008-ci ildə nəqliyyat vasitələrindən təhlükəsiz istifadəni gücləndirmək üçün daha ciddi səylər göstərmək lazım gələcəkdir.

## Ətraf mühit

**Xülasə** 2007-ci ildə bizim məşəldə məcmu yandırmalar əhəmiyyətli dərəcədə azalmışdı. Biz özümüzün profilaktiki ətraf mühitin monitorinqi proqramımızı həyata keçirməkdə davam etdik. Dəniz platformalarımızda çirkab sularının emalı bir problem olaraq qaldı.

**İstixana qazları** 2007-ci ildə BP Azərbaycan SİB tərəfindən istixana qazları (İQ) emissiyalarının məcmu həcmi 729 min ton olmaqla (2006-cı ildə bu rəqəm 613 min ton olmuşdu) keçən illə müqayisədə 18,9% artdı. Lakin bununla belə, bizim normal əməliyyat şəraitində atmosferə buraxdığımız İQ emissiyaları, yəni hasil edilmiş hər bir min barel neft və qaz hasilatında buraxılmış emissiyalar 2006-cı ildəki 11, 8 t/mbne-dən 2007-ci ildə 8,97 t/mbne-dək düşərək 24% azaldı.

Artmış İQ emissiyalarının əsas mənbəyi aşağıdakılar olmuşdur:

- Səngəçal terminalı: Bu, 2006-cı ilin sonlarında terminalın Şahdənizə aid olan hissəsinin istismara verilməsi və dənizdə neft və qaz hasilatının artması ilə əlaqədar olmuşdur.
- Azəri dəniz platformaları: Bu artım öz əksini Şərqi Azəri yatağının 2006-cı ilin sonlarında istismara verilməsi, eləcə də bu obyektin istismarının sentyabr ayında planlaşdırılmış dayandırılması və bununla əlaqədar qazın məşəldə yandırılması və Mərkəzi Azəridə əlavə platformanı enerji ilə təchiz etmək üçün yanacaq qazının istifadəsindəki artımda tapdı.
- BTC boru kəməri: Burada artım istismarla bağlı xətti artımın və 2-ci nasos stansiyasının (PSA2) istismara verilməsinin nəticəsində baş verdi.

**Qazın məşəldə yandırılması** 2007-ci ildə BP Azərbaycan tərəfindən məşəldə yandırılan karbohidrogenin miqdarı 2006-cı illə müqayisədə 15,6% azalaraq 281 min ton olmuşdur.

2006-cı ilin ortalarında Çıraq platformasında həyata keçirilmiş qazın məşəldə yandırılmasının minimuma endirilməsi tədbirləri uğurlu oldu. İndi yeni sualtı ixrac boru kəməri Çıraq platformasını Mərkəzi Azəri Kompressor və Suvurma Platforması (KSVP) ilə birləşdirir və bu da gündə orta hesabla 2,3 min ton qazı inyeksiya və ixrac üçün KSVP-yə nəql etməyə imkan verir və beləliklə də Çıraqda qazın məşəldə yandırılmasını minimum əməliyyat normalarınadək azaldır.

Çıraq indi BP qrupunun hasilat üçün qazın məşəldə yandırılmaması siyasətinə uyğundur və eyni zamanda AÇG yatağında kollektordan hasilatı gücləndirməyə imkan verir. Çıraq həm də Azərbaycanın qazla əlavə təchizatını təmin etməklə Neft daşlarındakı qaz terminalına öz ixrac marşrutunu qoruyub saxlamışdır.

**Enerji istehlakı** 2007-ci ildə yanacaq qazının istehlakı 154 min ton (54,1%) artdı, dizel yanacağının istehlakı isə 5,6 min ton (23,1%) azaldı. Səngəçal terminalının Şahdənizə aid olan hissəsi və Şərqi Azəri dəniz platforması kimi yeni istismara verilən qurğular yanacaq qazı istehlakının artmasının başlıca səbəbləridir. Dizel yanacağı istehlakının bir qədər aşağı düşməsi QİBK-nin müvəqqəti olaraq dayandırılmasına görədir.

**Karbohidrogen dağılmaları** SİB 2007-ci ildə 71 karbohidrogen dağılmaları qeydə alıb (2006-cı ildə 41). Bunlardan beşi bir bareldən artıq olub; 2006-cı ildə belə dağılmaların sayı altı idi. Mümkün olan yerlərdə dağılmaların əsaslı şəkildə təmizlənməsi həyata keçirilib və belə hadisələrin təkrarən baş verməsinin qarşısını almaq üçün tədbirlər görülüb. 2007-ci ildə dağılmış 4 534 litr məhsulun təxminən 74%-i (3 342 litri) yenidən bərpa edilib.

Azərbaycanda karbohidrogen dağılmaları üzrə hesabat vermək üçün müfəssəl daxili və şirkətdən kənar

prosedurlar hazırlanıb istifadəyə verilmişdir. Bütün neft dağılmaları barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (ETSN) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə (ARDNŞ) məlumat verilir. BTC ilə əlaqədar bütün neft dağılmaları haqqında da BTC-nin Kredit Qrupuna məlumat verilir.

**BP Azərbaycan SİB-nin Azərbaycanda yalnız BP-yə aid olan İQ emissiyaları**

| Yalnız Azərbaycan | Faktiki 2006 | Faktiki 2007 | Plan 2008[a] |
|---|---|---|---|
| Əməliyyatlarda məcmu İQ emissiyaları ton/il | 612,67 | 729,06 | 634,64 |
| Normal əməliyyat şəraitində İQ emissiyaları ton/mbne | 11,8 | 8,97 | 7,99 |

a Lütfən nəzərə alın ki, 2007-ci ilin 3-cü rübündə yalnız BP-yə aid olan İQ emissiyalarının hesablanması üçün istifadə olunan metod dəyişdirilmişdir. Əvvəllər, o, iştirak payına əsaslanırdı. İndi belə hesablama hasilat payı üzərində mülkiyyət hüququna əsaslanır. Öncə qazma, yeni işlənmələr, ixrac boru kəmərləri və terminal üçün hesablama metodu olduğu kimi qalır.

**2006 və 2007-ci illərdə BP Azərbaycan SİB-nin Azərbaycanda hər obyektin payına düşən yalnız BP-yə aid olan İQ emissiyalarının sayı (min ton)**

| | 2006 | 2007 (keçmiş proqnozlar) | 2007[a] (yeni proqnozlar) |
|---|---|---|---|
| AÇG öncəqazma | 3,2 | 4,0 | 4,0 |
| AÇG Səngəçal terminalı | 142,0 | 180,6 | 180,6 |
| Şahdəniz Səngəçal terminalı | t/o | 67,1 | 67,1 |
| Şahdəniz dənizdə əməliyyatlar | 11,4 | 16,9 | 14,7 |
| Şahdəniz kəşfiyyat qazması | t/o | 4,6 | 4,6 |
| Azəri dəniz | 250,2 | 357,6 | 278,7 |
| BTC Azərbaycan | 2,4 | 13,7 | 13,7 |
| Çıraq | 196,7 | 83,0 | 69,6 |
| İnam | 0 | 0,5 | 0,5 |
| ŞİBK | 0,08 | 0,12 | 0,12 |
| CQBK Azərbaycan | 0,08 | 0,02 | 0,02 |
| QİBK Azərbaycan | 6,6 | 0,9 | 0,9 |

a Lütfən nəzərə alın ki, 2007-ci ilin 3-cü rübündə yalnız BP-yə aid olan İQ emissiyalarının hesablanması üçün istifadə olunan metod dəyişdirilmişdir. Əvvəllər belə hesablama iştirak payına əsaslanırdı. İndi, o, hasilat payı üzərində mülkiyyət hüququna əsaslanır. Öncə qazma, yeni işlənmələr, ixrac boru kəmərləri və terminal üçün hesablama metodu olduğu kimi qalır.

**BP Azərbaycan SİB tərəfindən Azərbaycanda birbaşa CO2 emissiyaları**

| | 2006 | 2007 (keçmiş proqnozlar) | 2007[a] (yeni proqnozlar) |
|---|---|---|---|
| Birbaşa karbon dioksid (100%) (min ton) | 1 686,5 | 1 980,1 | 1 980,1 |
| Yalnız BP-yə aid olan birbaşa karbon dioksid (min ton) | 571,8 | 650,1 | 582,8 |

a Lütfən nəzərə alın ki, 2007-ci ilin 3-cü rübündə yalnız BP-yə aid olan CO2 emissiyalarının hesablanması metodu dəyişdirilmişdir. Əvvəllər belə hesablama iştirak payına əsaslanırdı. İndi, o, hasilat payı üzərində mülkiyyət hüququna əsaslanır. Öncə qazma, yeni işlənmələr, ixrac boru kəmərləri və terminal üçün hesablama metodu olduğu kimi qalır.

**BP Azərbaycan SİB tərəfindən Azərbaycanda birbaşa qeyri İQ emissiyaları - SOx və NOx**

| | 2006 | 2007 (keçmiş proqnozlar) | 2007[a] (yeni proqnozlar) |
|---|---|---|---|
| Kükürd oksidləri (SOx) (ton) | 237 | 249 | 795 |
| Azot oksidləri (NOx) (ton) | 3 711 | 3 953 | 3 786 |

a Lütfən nəzərə alın ki, 2007-ci ilin 3-cü rübündə cəmi Sox və NOx emissiyalarının hesablanması metodu dəyişdirilmişdir və indi onlar nəzərdə tutulan normativlərdən deyil, faktiki mədən məlumatlarından istifadəni əks etdirən yeni emissiya amilləri əsasında hesablanır.

**Suya atılmalar - qazma şlamları** 2007-ci ildə Xəzər dənizinə 23 995 ton qazma şlamı və əlaqədar mayelər (qazma məhlullu) atılmışdır. 2006-cı illə müqayisədə bu 52% artım deməkdir və Çıraq platformasında qazma fəaliyyətlərinin artmasını özündə əks etdirir (2006-cı ildəki 3 873 m-lə müqayisədə 2007-ci ildə cəmi qazma intervalı 13 931 m olmuşdur).

BP Azərbaycan SİB özünün qazma əməliyyatlarında həm su əsaslı qazma məhlulundan (SƏQM), həm də sintetik əsaslı qazma məhlulundan (SnƏQM) istifadə edir. 2007-ci ildə qazma şlamlarının 56%-dən çoxu aşağı toksikli və dünyada geniş şəkildə istifadə olunan su əsaslı məhlulla qazılmış şlamlardır. Yerdə qalan şlamların 44%-nin tərkibində SnƏQM olmuş və onlar yalnız Çıraq platformasından atılmışdır. Bu atılmalar AÇG HPBS-in və ilkin neft layihəsinin ətraf mühitə təsirin qiymətləndirilməsi tələblərinə uyğundur.

2007-ci ilin üçüncü rübündə Çıraq platformasında şlam quruducusu quraşdırıldı. Bu sistemin dolayısı ilə verdiyi fayda qazma əməliyyatları üçün tələb olunan SnƏQM-in ümumi miqdarının azaldılmasıdır. Çıraq platformasının işçi heyəti indi bu sistemin başa düşülməsi və onun işinin optimallaşdırılması üzərində işləyir. Şlam quruducusunun işə salınmasından sonra qazılan quyular SnƏQM-in yenidən bərpası normasının 18-76% arasında olduğunu göstərir.

**Tullantıların idarə edilməsi** SİB yerli infrastrukturun verdiyi imkanlar çərçivəsində təhlükəli və təhlükəsiz tullantıları Azərbaycanda BP qrupunun siyasətlərinə və ən yaxşı beynəlxalq təcrübəyə uyğun olaraq idarə edir. Uzun müddət üçün biz Avropa Birliyi standartlarına riayət etməyə can atırıq və onlar mümkün olan yerlərdə ən yaxşı əməli ekoloji varianta əsaslanmaqla həyata keçiriləcəkdir.

2007-ci ildə biz əməliyyatlarımız nəticəsində yaranan 48 663 ton tullantı qeydə almışıq ki, bunun da 40 713 tonu



## Sumqayıt təhlükəsiz tullantıların poliqonu

2006-cı ilin sentyabr ayında biz təhlükəsiz bərk tullantıların Sumqayıtda yalnız BP-yə məxsus olan poliqonunun tikintisinə başladıq. Poliqonun layihələşdirilməsi və tikintisi yerli Təhlükəli Tullantılar MMC şirkəti tərəfindən yerinə yetirildi. Nəzarət və təlim üçün təcrübəli beynəlxalq şirkət olan Konteinment Kuoliti Asosieyts şirkəti texniki ekspert kimi bu işə cəlb edildi.

Tutumu 54 000 $m^3$ olan kamerası, tullantıların emal edilməsi yastığı, karuselli yuma ərazisi olan bu obyekt Avropa Birliyi standartlarına tam uyğundur.

Poliqonun kamerasının sıxılmış gilin mürəkkəb xətti sistemi, yüksək sıxlıqlı polietilen geodiafraqması və geoparça layneri vardır. Kameranın döşəməsində həm də parçalanma nəticəsində yaranan mayelərin (tullantılar basdırıldığı yerlərdə təbii parçalanma prosesinin bir hissəsi kimi yaranmış maye) yığılması üçün boru şəbəkəsi vardır. Tullantı poliqonundakı qazı ventilyasiya üsulu ilə toplamaq üçün qaz ventilyasiya qurğusunun quraşdırılması gələcək üçün planlaşdırılır.

Poliqonun tikintisi 2007-ci ilin yayında başa çatdırıldı və tullantıların ilk sınaq üçün çatdırılması noyabr ayında baş verdi. Gözləyirik ki, poliqon 2008-ci ildə tam işlək vəziyyətdə olacaqdır və sonrakı beş il üçün BP-nin Azərbaycandakı ehtiyaclarını ödəmək üçün kifayət edəcəkdir.

**2005-2007-ci illərdə BP Azərbaycan SİB tərəfindən məşəldə yandırılan qaz (hər obyekt üzrə yalnız BP-yə aid olan miqdar)**

| Məşəldə yandırılma (min tonla) | 2005 | 2006 | 2007 |
|---|---|---|---|
| Azəri yatağı | 94,5 | 140,1 | 124,3[a] |
| Çıraq | 260,4 | 151,4 | 44,2 |
| Səngəçal terminalı (AÇG) | 93,3 | 36 | 51,6 |
| Səngəçal terminalı (ŞD) | 0 | 0 | 58,5 |
| Şah Dəniz | 0 | 5,1[b] | 2,3[c] |
| BP Azərbaycan | 448,2 | 332,6 | 280,9 |

[a] Bura AÇG öncə qazması, [b] Apstrim, [c] Kəşfiyyat qazması daxildir.

**BP Azərbaycan SİB tərəfindən 2006-2007-ci illərdə enerji istehlakı**

| | 2006 | 2007 |
|---|---|---|
| Yanacaq qazı (min ton) | 284,2 | 438,0 |
| Dizel yanacağı (min ton) | 24,2 | 18,6 |
| Elektrik enerjisinin idxalı (MWh) | 5,5 | 4,8 |

**BP Azərbaycan SİB tərəfindən Azərbaycanda suya atılmış qazma şlamları**

| Obyektlər | 2007-ci ildə SƏQM ilə qazılıb suya atılmış şlamlar, ton | 2007-ci ildə SnƏQM qazılıb suya atılmış şlamlar, ton | 2007-ci ildə suya atılmış qazma şlamlarının cəmi, ton |
|---|---|---|---|
| Çıraq | 0 | 6 811 | 6 811 |
| Azəri dəniz | 3 750 | 0 | 3 750 |
| AÇG öncəqazma | 11 812 | 0 | 11 812 |
| Şahdəniz kəşfiyyat qazması | 737 | 0 | 737 |
| İnam kəşfiyyat qazması | 885 | 0 | 885 |
| Cəmi | 17 184 | 6 811 | 23 995 |

təhlükəli tullantılar və 7 950 tonu təhlükəsiz tullantılar olmuşdur. Bundan başqa, ümumi miqdarı 88 947 ton olan çirkab tullantıları və 84 970 ton lay suyu hasil edilmişdir.

Yaranmış təhlükəsiz tullantıların təxminən 50%-i ya təkrar emal olunmuş, ya da yenidən işlədilmişdir. Tullantıların qalanı (təhlükəli və təhlükəsiz növlər) aşağıdakılardan ibarət olmuşdur:

- xüsusi olaraq qiymətləndirilmiş və məqbul qaydada təmizlənmiş və atılmış tullantılar
- müvəqqəti olaraq Sərəncə təhlükəli tullantıların idarəedilməsi qurğusunda (TTİQ) saxlanılan tullantılar; və ya
- "ADES" Azərbaycan-Almaniya BM tərəfindən idarə olunan BP-nin xüsusi təyinatlı poliqonunda torpağa basdırılmış tullantılar.

Səngəçalda və Dərin Özüllər Zavodundakı (DÖZ) Mərkəzi Tullantıların Toplanma Sahələrinin (MTTS) BP ilə bağlanmış müqavilə əsasında idarə olunması davam etmişdir. Dəniz əməliyyatları nəticəsində hasil edilən bütün tullantılar (qazma şlamları istisna olmaqla) DÖZ MTTS tərəfindən qəbul edilir. Boru kəmərlərinin və terminalın fəaliyyəti nəticəsində yaranan tullantılar isə Səngəçal MTTS-də idarə olunur.

**Təkrar emal işində yerli şirkət BP-yə kömək edir**

2007-ci ildə əldə olunan əsas nailiyyətlərdən biri yerli "Karvan-L" şirkəti ilə tərəfdaşlıqda rəng təkrar emalı marşrutunun yaradılması oldu. Həmin vaxtdan bəri şirkət rəng və lak kimi yenidən satışa çıxarmaq üçün 210 ton rəng və ona bənzər örtük materialları emal etmişdir. Təkrar emal edilmiş məhsuldan həm sənayedə, həm də məişətdə istifadə etmək əlverişlidir. Bundan əvvəl, müvafiq təkrar emal marşrutunun olmamasına görə istifadə olunmamış rəng və mühafizə örtüyü materialları Sərəncə TTİQ-də müvəqqəti olaraq anbarlarda saxlanırdı.




Şlamların emalı və təhlükəli tullantıların müvəqqəti saxlanıldığı anbar kimi SİB əməliyyatlarının dayağı olan Sərəncə TTİQ 2007-ci ildə öz SƏTTƏMS idarəetmə sisteminin ətraf mühitlə əlaqədar hissəsi üçün ISO 14001sertifikatı aldı.

- **Qazma şlamları** 2007-cı ildə "Dədə Qorqud" və "İstiqlal" səyyar qazma qurğuları və Çıraq və Şahdəniz alfa platformalarının dənizdə qazma əməliyyatlarından hasil edilmiş ümumi miqdarı 23 010 ton olan xam (yəni, təmizlənməmiş) qazma şlamı Sərəncə TTİQ tərəfindən qəbul edilmişdir. Təxminən 14 922 ton sintetik əsaslı qazma məhlulu (SnƏQM) dolayısı ilə termal desorbsiya (DTD) qurğusunda emal edildi. Bunun nəticəsində 1 126 ton xam neft əldə olundu və sonra təkrar istifadə üçün kimyəvi maddələr təchizatçısına qaytarıldı. DTD-yə əlavə olaraq, 3 500 ton xam qazma şlamının emal edilməsi bioremediasiyanın payına düşür. Azəri platformalarının göyərtələrindən qazma şlamlarının yenidən laya vurulması (QŞYLV) davam etdirildi və bu prosesdən istifadə olunmaqla 2007-ci ildə 19 918 ton təhlükəli tullantı ləğv edildi. Qazma şlamlarının yenidən laya vurulması sonrakı saxlanma və emal üçün sahilə göndərilməsi tələb olunan şlam həcmlərinin azaldılması istiqamətində atılan əhəmiyyətli bir addımdır.
- **Çirkab suları** Dəniz platformalarımızda çirkab sularını emal edən aqreqatın işindəki çatışmazlıqlar 2007-ci ildə bizim üçün bir problem olaraq qalmaqda davam etdi. Xəzər dənizinə 2006-cı ildə təmizlənməmiş çirkab sularının atılması üzrə 10 hal qeydə alınmışdısa, 2007-ci ildə bu rəqəm 29-a bərabər olmuşdur. Bunların əksəriyyəti (15 atılma) Qərbi Azəri platformasında qeydə alınmışdı. Hər bir atılmadan sonra ETSN və ARDNŞ-yə bu barədə yazılı məlumat verilmişdir. Eyni zamanda Çıraq platformasında çirkab suları emalının optimallaşdırılması layihəsi həyata keçirildi. 2008-ci ildə yaxşı işləməyən çirkab sularının emalı aqreqatının çıxarılması və ya dəyişdirilməsi alternativ həll variantı kimi daha ətraflı şəkildə nəzərdən keçiriləcəkdir.
- **Hasil edilmiş lay suyu** Hasil edilmiş lay suyunun ləğv edilməsinin uzun müddət üçün həll edilməsi məqsədi ilə nəzərdə tutulmuş tikinti işləri bütün 2007-ci il boyu davam etdirildi. Böyük əhəmiyyətə malik hadisələrdən biri Səngəçal terminalından Mərkəzi Azəri KSVP-yə (burada hasil edilmiş lay suyu nəhayət yenidən kollektora vurulacaqdır) 14 düym ölçülü boru kəməri tikintisinin başa çatdırılması oldu. 2008-ci ildə işlər hasil edilmiş lay suyu üçün yeni rezervuarın və quruda emal qurğuları üzərində cəmlənəcəkdir. Məsələnin uzun müddət üçün həlli hazır olanadək, hasil edilmiş lay suyu ETSN-in icazə verdiyi ləğvetmə yerlərində, idarə olunacaqdır.

**2007-ci ildə şlamların emalı - Sərəncə TTİQ[a]**




[a] 2007-ci ildə şlamların emalı - Sərəncə TTİQ (2006-cı ilin sonlarında Sərəncədə anbarlarda saxlanılan şlamların 6838 tonu onun payına düşür)

- **Təhlükəli maye tullantılar** Sənaye tullantılarının utilizə edilməsi xidmətlərini yerinə yetirmək üçün ETSN tərəfindən lisenziya verilmiş "RT Services" adlı yerli şirkət 2007-ci il ərzində 10 971 ton çirklənmiş dəniz suyu (2006-cı ildə bu rəqəm 9 439 ton olmuşdu) və 13 532 ton hasil edilmiş lay suyu filtrasiya tullantıları emal etmişdir.

**Ətraf mühitin monitorinqi** Kompleks ekoloji monitorinq proqramı (KEMP) bizim Azərbaycandakı fəaliyyətlərimizi əhatə edir. KEMP peşəkarların rəyinə cavab olaraq ətraf mühitə göstərdiyimiz təsiri başa düşmək və apardığımız ətraf mühit tədqiqatlarının interpretasiya edilməsini yaxşılaşdırmaq üçün işlənib hazırlanmışdır. Bu proqramın məqsədi fəaliyyətlərimiz nəticəsində ətraf mühitə göstərilən təsir barədə aydın və dəqiq təsəvvürə malik olmaq üçün sabit məlumatlar dəstini təmin etməkdir.

2007-ci ilin sonunda KEMP dörd ildən artıq bir müddət ərzində aparılan 41 monitorinq tədqiqatını başa çatdırdı. 2007-ci ildə aparılan tədqiqatlardan 11-nin beşi dəniz tədqiqatı, altısı isə quruda həyata keçirilmişdir. 2007-ci ildə sahilyanı zonada heç bir tədqiqat aparılmamışdır, lakin bununla belə, Səngəçal körfəzində

**2004-2006-cı illərdə aparılmış dəniz ətraf mühiti tədqiqatlarında müəyyən edilmiş təmayüllərin xülasəsi**

| Problem | 2004-2005 | 2005-2006 | BP əməliyyatları üçün əhəmiyyəti |
|---|---|---|---|
| Dəniz ərazilərində bioloji dəyişiklik | AÇG kontrakt sahəsində əvvəllər dominantlıq təşkil edən növlərin yoxa çıxması | AÇG kontrakt sahəsində krevetəbənzər amfipod və qarınayaqlıl ilbizlərin müxtəlifliyinin xeyli azalması | Əməliyyatlarla heç bir əlaqəsi yoxdur. Çox böyük "təbii" dəyişikliklər potensialını nümayiş etdirir və eləcə də göstərir ki, elə bir müəyyən edilmiş əsas yoxdur ki, bu dəyişikliklər onunla müqayisədə qiymətləndirilsin. Müntəzəm regional monitorinqlər keçirilməsinin əhəmiyyətini xüsusi nəzərə çarpdırır. |
| Nereis qurdunun dəniz platformalarının yerləşdiyi ərazilərdə görünməsi | Çıraq və bütün yeni platformalarda mövcuddur. Sayca o qədər də çox deyil, lakin platformaların ətrafında cəmlənmişdir. | Populyasiyanın çoxalması və platformaların ətrafında mövcudluğu. Regional tədqiqat məntəqələrində buna müvafiq çoxalma yoxdur. | Belə görünür ki, Nereis artıq burada bərqərar olub və nəticədə dominant ola bilər. Bunun BP fəaliyyətləri ilə əlaqədar olmasına birbaşa sübut olmasa da, bu orqanizmlərin yalnız dəniz platformalarının yerləşdiyi ərazilərdə mövcudluğunu izah edən inandırıcı bir "təbii" hipoteza yoxdur. |
| Platformanın quraşdırılmasının və ondan sonra aparılan qazma işlərinin təsiri | Mərkəzi Azəri, Qərbi Azəri və Şahdəniz Alfa platformalarında təsirə dəlalət edən sübut azdır. | Şərqi Azəridə təsirə dəlalət edən sübut azdır. | Ümumiyyətlə, platformaların quraşdırılması və erkən istismarı çox kiçik ekoloji təsir göstərmişdir. Cüzi bioloji izlər yalnız sintetik əsaslı qazma məhlulunun və şlamların atılmasının davam etdirildiyi Çıraq-1 platformasında müşahidə edilir. |



balıq və dəniz otu ilə əlaqədar nəzarət müşahidələrinin aparılması 2008-ci il üçün planlaşdırılır.

2007-ci ildə aparılmış tədqiqatlardan əldə edilmiş məlumatlar hələ də təhlil olunur. 2004-2006-cı illərdə dənizdə keçirilmiş monitorinqlərin hesabatları bir sıra aydın təmayüllərin müəyyən

**2007 Ətraf mühitin mühafizəsi ilə bağlı əsas hadisələr**

- BP Azərbaycan SİB tam şəkildə İSO 14001 standartı sertifikatı almağa daha da yaxınlaşdı. Şahdəniz alfa platforması, Şərqi Azəri platforması, maddi-texniki tədarük, Səngəçal terminalı (terminalın Şahdənizə aid olan hissəsi) və Serencə təhlükəli tullantıların idarə edilməsi qurğusu noyabr ayında İSO 14001 sertifikatı aldı.
- Sumqayıtdakı yalnız BP-yə məxsus təhlükəsiz tullantılar poliqonunun tikintisi başa çatdırıldı. Poliqon Avropa Birliyinin standartlarına uyğundur.
- Yerli Karvan-L şirkəti ilə rənglərin təkrar emalı marşrutu təsis edildi.
- Çıraq platformasında qazın məşəldə yandırılmasının minimuma endirilməsi üçün görülən tədbirlər nəticəsində qazın məşəldə yandırılmasının 15.6% azalmasına nail olundu.
- BTC IPA1 və PSA2 nasos stansiyalarında çirkab sularını təmizləmək üçün yeni aqreqatlar quraşdırıldı.

edilməsinə gətirib çıxarmışdır. Onların böyük əksəriyyətinin bizim fəaliyyətlərlə heç bir əlaqəsi olmadığı ehtimal edilir. Lakin bununla belə, tədqiqatların birindən belə görünür ki, müşahidə edilmiş dəyişiklik - "Nereis diversicolor" qurdunun dəniz platformalarının ətrafında peyda olması platformanın quraşdırılması və ya qazma fəaliyyətləri ilə əlaqədar ola bilər. Əvvəllər bu qurdun dayaz sahilyanı sularda mövcud olduğu qeydə alınmışdı.

Quruda çoxlu vaxt və zəhmət Səngəçal terminalının yaxınlığında ətraf mühitin monitorinqinə sərf olundu. Bitki örtüyünün və torpağın stabilliyi monitorinq tədqiqatları keçən illərdə ildə iki dəfə həyata keçirilmiş tədqiqatlara uyğun olaraq yazda və payızda aparıldı. Digər torpaq istifadəçiləri tərəfindən otlaqdan çox istifadə təzyiqi və təsiri yaranmasının aydın əlamətləri olsa da, aparılan monitorinqlərin nəticələri hələlik göstərir ki, terminal əməliyyatlarının torpağın ətraf mühitinə əhəmiyyətli təsiri olmamışdır.

Balalamış quşların tədqiqatı 2004 və 2005-ci illərdə olduğu kimi yazda terminalın beş kilometrlik radiusu daxilində aparıldı. Təbii yaşayış mühitinə edilən bir sıra fiziki təsirlər - məsələn, bataqlıqların doldurulması, kolların qırılması - müşahidə olundu. Belə görünür ki, bunların heç birinin terminalın tikintisinə və infrastrukturun inkişafına aidiyyatı yoxdur.

Atmosfer havasının monitorinqi terminalın yaxınlığında onun təmir üçün dayandırılması və istismara verilməsindən sonrakı müddət ərzində aparıldı. Məqsəd havanın ilkin keyfiyyəti və terminal əməliyyatlarının ona etdiyi təsir barədə məlumatların toplanması idi. Təəsssüf ki, sahə üçün xarakterik olan dəqiq meteoroloji məlumatların olmamasına görə məlumatların interpretasiyası qüsurlu oldu. Yenidən işlənmiş monitorinq planı real vaxt hava kefiyyəti monitorinqi məntəqəsindən istifadə etməklə və Səngəçal ətrafındakı ərazidə üçüncü tərəfin yeni emissiyalarının nəzərə alınması ilə 2008-ci ildə həyata keçiriləcəkdir.

Terminalda suyun kefiyyəti və seldən müdafiə kanalının monitorinqinə 2007-ci ilin ikinci yarısında başlandı və 2008-ci ildə təxminən altı həftəlik intervallarla davam etdiriləcəkdir.

KEMP-ə əlavə olaraq, Azərbaycandakı ixrac boru kəmərlərinin ekoloji monitorinq proqramı bütün 2007-ci il boyu davam etdirildi. Bu sahədəki fəaliyyətlərə aşağıdakılar daxil idi:

- BTC-nin İPA1 Aralıq Ərsinləmə Stansiyasında və BTC-nin PSA2 stansiyalarında yerlərdə passiv nümunəgötürmə metodu ilə atmosfer havası keyfiyyətinin monitorinqi. Bu monitorinq illik orta məlumatları müəyyən etmək və BTC-nin Ətraf mühit və sosial fəaliyyət planı (ƏMSFP) standartlarına necə riayət etməsini aydınlaşdırmaq üçün 2008-ci il ərzində davam etdiriləcəkdir.
- PSA2 nasos stansiyasındakı turbinlərdə tüstü boruları emissiyalarının monitorinqi, eləcə də havanın mənbədəki kefiyyətini ətraf qəbuledicilərdəki kefiyyəti ilə müqayisə etmək üçün atmosfer havasının monitorinqi.
- PSA2 nasos stansiyasının yaxınlığında və bir BTC pazlı siyirtmələrin ətrafında ən yaxın icma reseptorlarda ekoloji küy monitorinqi. Bu monitorinqin bütün nəticələri ƏMSFP standartlarına uyğun idi.
- İPA1 və PSA2 nasos stansiyalarındaında səth sularının və Qarayazıdakı həssas su horizontu ərazisindəki PSA2 stansiyasının yaxınlığında yer (qrunt) sularının monitorinqi. Əvvəlki illərdə olduğu kimi, nəticələr ƏMSFP standartlarına və ilkin vəziyyətin nəticələrinə uyğunluğu nümayiş etdirdi.
- İPA1 və PSA2 QİBK-in 2, 5, və 8 saylı nasos stansiyalarında tullantı sularının monitorinqi. Çirkab sularının kefiyyətini yaxşılaşdırmaq üçün İPA1 və PSA2-də çirkab sularının təmizlənməsi aqreqatları (fırlanan bioloji ağardıcı) və qamış yataqlı süzmə sistemləri istismara verildi və 2008-ci ildə tam işlək vəziyyətdə olacaqdır. Hələlik isə çirkab sularının sahədən şəhər çirkab suları emalı zavoduna axıdılır. Biz BTC/CQBK boru kəmərləri dəhlizinin bərpasından sonra torpağın ilkin vəziyyətə qayıtmasına nəzarəti davam etdirdik. Bura bitki



## Sənaye gigiyenası təhlükəsizliyi təlimi

2007-ci il ərzində sənaye gigiyenası bacarıqları sahəsində hiss edilən boşluğu doldurmaq üçün cəhdlər edildi. Britaniyanın Peşə Gigiyenası Cəmiyyəti ilə (BPGC) birgə işləyərək BP qrupu sənaye gigiyenası peşəkarları və mütəxəssislərinin yeni kadrlarını inkişaf etdirmək üçün sınaqdan keçirilmiş təlim və attestasiya proqramı hazırladı.

Hər hansı bir tələbə altı modulu tamamlamaqla və bir əlavə şifahi imtahan verməklə sənaye gigiyenası mütəxəssisi kimi rəsmi BPGC şəhadətnaməsi ala bilər. Əgər tələb olunarsa, o, bundan sonra qiyabi təhsil də daxil olmaqla bir sıra variantlardan istifadə etməklə təhsilini dünyada qəbul edilən sənaye gigiyenası mütəxəssis ixtisası üzrə BPGC Peşə Gigiyenası Diplomunu alanadək davam etdirə bilər.

İl ərzində Bakıda iki modul - "Təhlükəli maddələrin ölçülməsi" və "Termal ətraf mühit" - keçirildi. Bu modulların keçirilməsində müxtəlif qurğu və obyektlərdən gəlmiş SƏTƏM üzrə məsləhətçilər, peşə sağlamlığı və sənaye gigiyenası mütəxəssisləri və həkimlər də daxil olmaqla təxminən 20 nəfər BP əməkdaşı iştirak etdi.

Mayk Teylorun (BP sənaye gigiyenası üzrə təlimatçı) fikrincə "sənaye gigiyenası modulu işçilərə qiymətli və tələb olunan SƏTƏM bacarıqları qazanmaq üçün gözəl imkanlar verir. Bizim məqsədimiz işçilərimizə onların öz karyerası və bütövlükdə BP-nin uğurları üçün seçdikləri fənlərə yiyələnməsinə imkan yaratmaqdır."

örtüyünün, növ müxtəlifliyinin və ağac və kolların salamat qalmasının qiymətləndirilməsi; peyk nəzarəti və bitki örtüyü barədə yüksək səviyyəli informasiya almaq üçün istifadə olunan torpağın uyğunluğunun müəyyən edilməsi; və illik fotoqrafiya çəkilişləri ilə landşaftın monitorinqi daxil idi. Yerdəyişmədə salamat qalma faizini müəyyən etmək məqsədi ilə nadir növ olan Iris Acutiloba (süsən çiçəyi) çiçəyinin monitorinqi də həyata keçirildi.

**Yeni layihələr üçün ətraf mühitlə bağlı tələblər** 2006-cı ildə BP qrupu özünün yeni layihələr üçün ətraf mühitlə bağlı tələblərin (YLƏT) - bütün şirkətdə layihənin ətraf mühitlə bağlı fəaliyyətinin ardıcıl şəkildə aparılması məqsədi daşıyan və layihənin həyata keçirilməsinin bütün dövrünü əhatə edən ətraf mühitin idarə edilməsi prosesinin tətbiqinə başladı.

İndi yeni layihələrdən aşağıdakı minimum tələblərə riayət etmək tələb olunur: seçmə və təsnifləşdirmə; layihənin kateqoriyasına müvafiq ətraf mühitə təsirin qiymətləndirilməsi prosesinin tələblərinə riayət; və ətraf mühitlə bağlı tələblərə uyğunluq.

Şirkətin bütövlükdə ətraf mühitlə bağlı göstəricilərinin mütamadi olaraq yaxşılaşdırılması öhdəliyimizə dəstək vermək üçün mövcud əməliyyatlarda da bu praktikadan istifadə etmək tövsiyə olunur.

İl ərzində Azərbaycandakı bütün istismar qurğuları və təklif olunan gələcək layihələr YLƏT tələbləri ilə müqayisədə qalan boşluqların analizini apardı.

## Sağlamlıq

**Xülasə** Bizim 2007-ci ildə sağlamlıq üzrə fəaliyyətlərimizdə ərzaq təhlükəsizliyi və sənaye gigiyenası üstünlük təşkil edən mövzular oldu. Əməkdaşlarımızın beynəlxalq təşkilatlar tərəfindən sponsorluq edilən sağlamlıqla əlaqədar məlumatlılıq üzrə keçirdiyi kampaniyalarda iştirak etməsi təşviq olundu.

**Sağlamlıq üzrə təlimlər** BP əməkdaşları üçün sağlamlıq üzrə təlimlər 2007-ci ildə BP tərəfindən xüsusi olaraq Azərbaycanda həyata keçirilmək üçün hazırlanmış proqramlar əsasında iki çox vacib sahə üzərində cəmləndi - ərzaq təhlükəsizliyi və sənaye gigiyenası (konkret misala baxın).

Bakıda Azərbaycanın, Gürcüstanın və Türkiyənin (o cümlədən podratçıların və səhiyyə xidməti göstərən təşkilatların) nümayəndələrinin iştirak etdiyi sağlamlıq şəbəkəsi iclası keçirildi. İştirakçılar və ölkələr arasında sağlamlıq üzrə məlumatların regionda sağlamlıq sahəsində bilik bazasını gücləndirən mübadiləsi aparıldı. BP Azərbaycan SİB-nin SƏTƏM əməkdaşları eləcə də Floridada (Orlando şəhərində) keçirilən BP qrupunun SƏTTƏM forumunda iştirak etdilər və BTC regional təcili tibbi xidmət planına görə mükafatlandırıldılar.

**Sağlamlıq kampaniyaları** İşçilərimiz 2007-ci ildə beynəlxalq təşkilatlar tərəfindən sponsorluq edilən bir neçə sağlamlıq haqqında məlumatlılıq kampaniyalarında iştirak etməyə təşviq olundu. May ayında BP Azərbaycan SİB-də məlumatlılıq təqdimatları keçirilməklə "Tütünsüz dünya günü" qeyd edildi (500 nəfərdən

**BP Azərbaycan sağlamlıqla əlaqədar əsas hadisələr 2007**

- Sağlamlığa nəzarət proqramının həyata keçirilməsinə başlandı.
- Ərzaq təhlükəsizliyi və sənaye bacarıqları üzrə təlimlər həyata keçirildi.
- İkinci tibb məntəqəsinin rekonstruksiyası başa çatdırıldı.
- Küyün monitorinqi keçirildi.

çox əməkdaş iştirak etdi) və dəm qazına nəzarət və ondan xilas vasitələri komplekti olan çantalar paylandı. Noyabr ayında təxminən 650 işçi sayıqlığı artırmaq, xəstəliyin qarşısını almaq, məlumatlılığı artırmaq və profilaktikanı və nəzarəti gücləndirmək məqsədi ilə keçirilən "Dünya diabet günü" tədbirlərində (təqdimatlarda və gümrahlığın qiymətləndirilməsində) iştirak etdilər.

BP Azərbaycan SİB-nin "Quş qripi haqqında məlumatlılıq " kampaniyasının bir hissəsi kimi platformalar, qazma qurğuları, gəmilər, terminallar, istehsalat meydançaları və nasos stansiyaları da daxil olmaqla bütün SİB-də plakatlar və kitabçalar paylandı. Bundan başqa, boru kəməri boyunca yerləşən icmalara, Azərbaycan Beynəlxalq Məktəbinə, və işçilərin yaşadığı bütün yaşayış komplekslərinə tədris materialı göndərildi.

Şelflayihətikintinin (ŞLT) istehsalat sahəsində ikinci ehtiyat tibb məntəqəsinin rekonstruksiyası başa çatdırıldı. Bu tibb məntəqəsi infeksion xəstəliklərin epidemiyası və ya başqa bir geniş miqyaslı tibbi hadisənin baş verdiyi halda təcili tibbi yardımının təmin edilməsi üçün layihələşdirilib və lazımi avadanlıqla təchiz edilib.

**Sağlamlıq ilə bağlı görülən işlər** Biz Azərbaycanda quruda və dənizdə olan istehsalat sahələrimizdəki iaşə obyektlərinin hamısında ərzaq gigiyenası auditlərini rüblük və illik əsasda keçirməkdə davam etdik. Tibbi hazırlıq səviyyələrini müəyyən etmək və tibbi xidməti daha da yaxşılaşdırmaq üçün tövsiyələr vermək məqsədi ilə SİB-nin tibb obyektlərində auditlər keçirildi. Bizim sənaye gigiyenası proqramımızın bir hissəsi kimi, iş yerində təsirlərin qiymətləndirilməsinə başlandı. Bütün istehsalat sahələrində küyün monitorinqi keçirildi və fərdi dozimetrik nəzarət proqramı işlənib hazırlandı.

# 1.6 Təhlükəsizlik və insan haqları

**Biz 2007-ci ildə dövlət orqanları, yerli icmalar və ixtisaslaşmış hüquq və təhlükəsizlik təşkilatları ilə əməkdaşlığı genişləndirməklə Azərbaycanda BP-nin əməliyyatçı olduğu obyektlərdə təhlükəsizliyi gücləndirdik.**

**Xülasə** BP qrupunun harada fəaliyyət göstərməsindən asılı olmayaraq təhlükəsizliyin təmin edilməsi məsuliyyəti tranzit ölkə hökumətlərinin üzərinə düşür. Azərbaycanda boru kəmərlərinin təhlükəsizliyi İxrac Boru Kəmərlərinin Mühafizəsi İdarəsi (İBKMİ)[a] və dənizdə təhlükəsizlik Azərbaycanın Hərbi Dəniz Donanması və Azərbaycanın Sahilyanı Mühafizə xidməti tərəfindən təmin edilir.

BP Azərbaycan BP-nin nəzarət etdiyi və ya əməliyyatçısı olduğu sahələrdə çalışan şəxslərin və qurğuların təhlükəsizliyinin qorunub saxlanılmasına görə cavabdehdir. 2007-ci ilədək bizim quruda yerləşən obyektlərimizdə[b] "hasar arxasında" silahsız mühafizə xidməti BP Azərbaycanın əməkdaşları və "Titan D Ltd" adlı Azərbaycanın özəl təhlükəsizlik podratçısı tərəfindən təmin edilirdi. 2007-ci ildə BP Azərbaycan öz təhlükəsizlik ehtiyaclarının ödənilməsini tamamilə "Titan D Ltd" şirkətinə həvalə etdi. İlin sonunda səlahiyyətlərin verilməsi uğurla başa çatdırıldı. "Titan D Ltd."-nin mühafizə xidməti əməkdaşlarının lazımi təlim keçmələrini təmin etmək məqsədi ilə biz onlarla təhlükəsizliyin əsasları üzrə kurs və bomba hədəsi barədə zənglər, nəqliyyat vasitələrinin yoxlanılması, yaşayış binalarının təhlükəsizliyi və rentgen yoxlaması üzrə təlim keçdik.

Boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsinə bizim rolumuz dörd prinsip əsasında müəyyən edilir - icma üzvləri ilə sıx işləmək; tranzit ölkə hökumətləri və onların təhlükəsizlik qurumları ilə səmərəli şəkildə əməkdaşlıq etmək; işçilərimizi və obyektlərimizi qorumaq; və təhlükəsizliyin, əməyin təhlükəsizliyi kimi, hər kəsin məsuliyyəti olaraq qəbul olunmasını təmin etmək.

Bu yanaşma təhlükəsizlik və insan haqları üzrə könüllü prinsiplərə tam uyğundur. Həmin prinsiplər boru kəmərləri üçün təhlükəsizlik planlarını istiqamətləndirən standartların əsasını təmin edir və layihələri ehtiva edən hüquqi rejimə daxil edilmişdir. 2007-ci ilin noyabr ayında biz Azərbaycan hökuməti ilə ikitərəfli təhlükəsizlik protokolu imzaladıq (aşağıya bax).



**İcmalar ilə işləyərək** Əməliyyatlarımıza yaxın olan icmalar təhlükəsizliyin təmin edilməsində ən vacib ünsürlərdir və biz həmişə öz qonşularımızla, o cümlədən yerli və mərkəzi hökumət orqanları ilə möhkəm və davamlı əlaqələr yaratmağa çalışırıq.

2007-ci ildə biz Təşkilatlararası Təhlükəsizlik Komitəsi (TATK) forumuna

"Bu boru kəmərinin qorunmasında öz işimi çox mühüm hesab edirəm."

Həftədə altı gün öz kəhər madyanının belində BTC marşrutuna nəzarət edən Seymur Əlizadə

[a] İxrac Boru Kəmərlərinin Mühafizəsi İdarəsi (İBKMİ) Xüsusi Dövlət Mühafizəsi Xidmətinin bir şöbəsidir
[b] Bura, əsas etibarı ilə, istehsal sahələrinə giriş və oradan çıxışa nəzarət və şirkətə məxsus əmlak itkisinin qarşısını almaq daxildir.

dəstək verməkdə davam etdik. Bu forumun məqsədi BP şirkəti, icma üzvləri və hökumətin təhlükəsizlik qurumları, o cümlədən yerli polis və hökumətin təyin etdiyi Boru Kəmərlərinin Mühafizəsi İdarəsi - (İBKMİ) arasında dialoqlara kömək etməkdir. 2007-ci ildə TATK boru kəmərinin keçdiyi 13 rayonda boru kəməri dəhlizi boyunca yerləşən bütün Azərbaycan icmalarında 115 iclas keçirmişdir.



**Şikayətlərin həlli** 2007-ci ildə inşaat işləri başa çatdıqdan sonra biz BTC/CQBK boru kəmərləri marşrutu boyunca yerli şikayət mexanizmindən istifadəni davam etdirdik. BP Azərbaycan tərəfindən işə götürülmüş yeddi nəfər icmalarla əlaqələr üzrə məsul şəxs (İƏMŞ), eləcə də boru kəməri texnikləri və bir nəfər sahə üzrə təhlükəsizlik müşaviri bilavasitə bu işə cəlb olundu. İƏMŞ-lər yerli icmalarla müntəzəm olaraq görüşmüş və gündəlik əlaqələrin yaxşılaşdırılmasını təmin etmişlər.

İl ərzində boru kəmərlərinin Azərbaycan dəhliz hissəsi boyunca yaşayan torpaq sahələrinin sahibləri və torpaq istifadəçilərindən 40 şikayət alınmışdır. Şikayətlər suvarmaya (25%), mülkiyyətə dəymiş ziyana (22,5%), kompensasiyaya (20%), torpağın bərpasına (7,5%), infrastruktura dəymiş zərərə (7,5%), yoldan istifadəyə (2,5%), torpaqdan istifadəyə (10%) və kiçik torpaq sahələrinə[a] (5%) aid olmuşdur. 2007-ci ilin sonunadək bu şikayətlərin 85%-i həll olundu. Hələ də həllini tapmamış altı şikayət kompensasiya məsələləri (5) və mülkiyyətə dəymiş ziyanla (1) bağlıdır.

2007-ci ildə qeydiyyata alınmış bu 40 şikayətdən üçü İBKMİ-nin fəaliyyətinə toxunurdu. Həmin narazılıqlar İBKMİ-nin rəsmiləri ilə əməkdaşlıq şəraitində, bizim öz fəaliyyətimizə aid Azərbaycanda Boru Kəmərləri üzrə şikayətlərin idarə edilməsi məqsədilə istifadə olunan eyni prosedur əsasında öz həllini tapmışdır. Bu narazılıqların hamısı şikayətçiləri qane edən şəkildə aradan qaldırılmışdır.

Biz eyni zamanda 2006-cı ildə alınmış, lakin həllini tapmamış 21 və ondan əvvəl alınmış (2004-2005) və 2006-cı ilin sonunda həll olunmamış qalan 14 şikayəti də nəzərdən keçirdik. 2007-ci ilin sonunda həll edilməmiş bu şikayətlərin otuz üçü həll edildi. Həll olunmamış iki şikayət infrastruktura dəyən zərərlə bağlıdır.

Daha beş şikayət (yuxarıda göstərilən 40 şikayətdən başqa) Səngəçal terminalına yaxın qəsəbələrdən alınmışdı. Bunlar qazın məşəldə yandırılmasına, küyə, mal-qaranın itirilməsinə və bəzi icma sərmayə layihələrinin keyfiyyətinə aid idi. 2007-ci ilin sonunda bu beş şikayətdən ikisi həll olunmamış qalırdı.

2007-ci ildə planlaşdırmışdıq ki, quruda həyata keçirdiyimiz əməliyyatların təsirinə məruz qalan adamlara onların təhlükəsizliklə bağlı məsələlər qaldırması üçün əlavə bir üsul kimi "qaynar telefon xətti" quraşdıraq. Lakin bu proses bizim gözlədiyimizdən uzun çəkdi və bu təşəbbüsü 2008-ci ildə həyata keçirməyə ümid edirik.

**Dövlət və özəl təhlükəsizlik orqanları ilə birgə fəaliyyət** 2007-ci ilin noyabr ayında biz Azərbaycan hökuməti ilə ikitərəfli təhlükəsizlik protokolu imzaladıq. Bu protokol BP Azərbaycan şirkətinin istismar etdiyi obyektlərin və qurğuların, o cümlədən BTC/CQBK boru kəmərlərinin, QİBK, ŞİBK, Səngəçal terminalının və Şahdəniz və AÇG dəniz yataqları ilə əlaqədar qurğuların təhlükəsizliyinin təmin edilməsini əhatə edir.

Protokolda güc və odlu silahdan istifadə, təhlükəsizlik xidməti əməkdaşlarının işə götürülməsi və təlimi, konsultasiya və informasiya mübadiləsi və monitorinq qaydalarına riayət olunma standartları müəyyən edilir. Bu protokol Birləşmiş Millətlər Təşkilatının hüquq mühafizə orqanları əməkdaşları tərəfindən güc və odlu silahlardan istifadə və təhlükəsizlik və insan haqları üzrə könüllü prinsiplər kimi beynəlxalq sazişləri özündə əks etdirir.

**Müstəqil monitorinq** 2007-ci ildə biz 2006-cı il üzrə BP-nin könüllü prinsiplərə uyğunluğunu qiymətləndirən və müstəqil nəzarətçi qurum tərəfindən hazırlanan hesabatı dərc etdik. Auditor - məhdud məsuliyyətli şirkət "Foley Hoag" belə bir qənaətə gəldi ki, biz "könüllü prinsiplərdən irəli gələn öhdəliklərimizi yerinə yetirmək üçün xoş məram və əlahiddə rəhbərlik nümayiş etdirməkdə davam etmişik". Eyni zamanda, "Foley Hoag" qeyd etdi ki, BTC/CQBK layihələri "insan haqları və təhlükəsizliklə əlaqədar davam etməkdə olan problemlərin həlli üçün 2006-cı il boyu çox mühüm tədbirlər görmüşdür". Boru kəməri layihələri üzrə insan haqları və təhlükəsizliyin xarici təşkilat tərəfindən monitorinq qiymətləndirilməsi barədə materiallarla www.bp.com/caspian veb-səhifəsində tanış olmaq olar.

[a] Bu elə torpaq sahəsidir ki, məsələn, BTC/CQBK-nin pazlı siyirtmələr kimi yardımçı obyektlərinin inşasından sonra rentabelli şəkildə istifadə üçün çox kiçikdir.

# 1.7 Əməkdaşlar, qanunlara riayət olunması, etik normalar

**BP Azərbaycan ixtisaslı milli kadrlar tərəfindən idarə olunan yerli bir şirkət yaratmaq üçün yüksək vəzifələrə təyin edilən yerli işçilərinin sayını artırmaq və belə vəzifələrdə əcnəbilərin sayını azaltmaq öhdəliyinə sadiqdir.**

## Əməkdaşlar

**2007-ci ilin əlamətdar hadisələri** 2007-ci il üçün Hasilatın Pay Bölgüsü Sazişinə uyğun olaraq kadrların yerləşdirilməsi planımız həm ixtisaslı xəm də və ixtisassız işçilər üzrə yerinə yetirildi. BP Azərbaycan Strateji İcra Bölümünün özünün 2007-ci il üçün planı ixtisas tələb edən vəzifələrə 75%-dən çox və ixtisas tələb etməyən vəzifələrə 100% yerli işçilərin götürülməsi idi. Bu məqsədlərin hər ikisinə nail olundu və yerli mütəxəssislər 77% və ixtisas tələb etməyən işçilər 100% olmaqla planda nəzərdə tutulduğundan artıq yerinə yetirildi.

Biz işəgötürmə öhdəliklərimizin gedişinə nəzarət etmək üçün tədbirlər müəyyən etmişik. BP əməkdaşlarının rəy sorğuları vasitəsilə əldə edilmiş daxili rəylərdən başqa, biz fəaliyyətlərimiz üzrə şirkətxarici auditlərin nəticələrini də öyrənirik. Buna misal olaraq, iyun ayında dərc edilmiş Azərbaycan Sosial Təhlil Komissiyasının hesabatını göstərmək olar (səhifə 13). Hesabat tikinti sahələrində işlərin qurtarması ilə əlaqədar işçilərin azad edilməsi, onların yenidən təlimləndirilməsinin maliyyələşdirilməsi və təsirə məruz qalmış müqavilə ilə işləyən işçiləri yeni iş yerlərini tapmağa kömək üzrə proqramımızı təqdir etdi.

**BP Azərbaycan SİB-nin peşəkar işçi heyəti[a]**

| Kateqoriya | işçilərin sayı | işçi qüvvəsinin ümumi həcmində %-lə |
|---|---|---|
| BP Azərbaycan SİB-də yerli peşəkar heyət | 1 664 | 77% |
| BP Azərbaycan SİB-də əcnəbi işçilər[b] | 511 | 23% |
| **Cəmi** | **2 175** | |

[a] Bura BP Azərbaycan SİB-nin Azərbaycan, Gürcüstan və Türkiyyədəki yalnız yerli peşəkar işçiləri daxildir.
[b] Bura karyerada irəliləmək üçün xaricdə təyinatla işləyən bütün Azərbaycan vətəndaşları daxildir.

**BP-nin Azərbaycanda peşəkar işçi heyəti[a]**

| Kateqoriya | işçilərin sayı | işçi qüvvəsinin ümumi həcmində %-lə |
|---|---|---|
| Yerli peşəkar işçi heyəti | 1 462 | 75% |
| BP-nin xarici əməkdaşları[b] | 487 | 25% |
| **Cəmi** | **1 949** | |

[a] Bura BP Azərbaycanın yalnız yerli peşəkar işçiləri daxildir.



**Yerli əməkdaşlar**
2007-ci ilin sonunda, BP Azərbaycan Strateji İcra Bölümü nəzərdə tutulan 75%-ə nisbətdə 77% yerli peşəkar heyətə malik idi.



## Seymur Xəlilov - irəli getməyi bacaran insan

2008-ci ilin yanvarından, BP Azərbaycanın əlaqələr və xarici işlər üzrə vitse-prezidenti vəzifəsində çalışan Seymur Xəlilov həyatda hər şeydə birinci olmağa adət edib. Hələ 1996-cı ildə Azərbaycan Dillər Universitetinin (ADU) tələbəsi olarkən, o, ABŞ hökumətinin təsis etdiyi və qaliblərə Amerika universitetlərindən birində haqqı ödənilmiş təhsil almağa imkan verən təqaüd proqramında iştirak etməyə ərizə vermiş 3 600 nəfər arasında seçilmiş dörd nəfərdən biri oldu. O, Sent-Luis şəhərindəki Missuri Universitetinə qəbul olundu və oranı bir il sonra, 1997-ci ildə ADU-dan olan 60 nəfər arasında əla qiymətlərlə qurtardı. Seymur Bakıya qayıdaraq ABŞ səfirliyində kommersiya üzrə mütəxəssis kimi işləməyə başladı və üç ildən sonra əla xidmətə görə mükafata layiq görüldü. 2002-ci ildə ABŞ-Azərbaycan Ticarət palatasının icraçı direktoru vəzifəsinə təyin edildikdən sonra, o, 50-dən çox beynəlxalq şirkətin Azərbaycana gəlməsinə kömək etdi. Dörd dili səlis və beşinci dili yaxşı bilən 32 yaşlı Seymur həmişə biznesə çox meyilli olub. O, boş vaxtlarında səyahət etməyi və mütaliə ilə məşğul olmağı xoşlayır. Bir dəfə o, Azərbaycandakı universitetlərə kömək üçün ABŞ kitabxanalarından 20 000 cild kitab gətirilməsini təşkil edib. Bu vəzifədə o, eləcə də Azərbaycanın dövlət sektoru məzunları üçün USACC-Kennedy İdarəetmə Məktəbinin təqaüd proqramına 1 milyon ABŞ dolları məbləğində vəsait toplanması işini başa çatdırıb.

2006-cı ilin may ayında Seymur BP Azərbaycan şirkətində xarici əlaqələr və siyasət forumu meneceri vəzifəsinə təyin edildi. Bu vəzifədə o, şirkətin hökumət və beynəlxalq QHT-lərlə əlaqələrinə rəhbərlik etdi və BP-nin Xəzər regionunda gəlirlərin idarə edilməsi prinsiplərini işləyib hazırladı və həyata keçirdi. İndi isə BP Azərbaycan SİB-də ikinci yerli vitse-prezidenti kimi tutduğu geniş diapazonlu yüksək vəzifə onun hələ neçə-neçə birinci yerlərə nail olacağına dəlalət edir.

**İşəgötürmə**[a] Azərbaycan vətəndaşlarının işə götürülməsi 2007-ci ildə davam etdirildi. Ümumi sayı 226 nəfər olan Azərbaycan vətəndaşı işə götürüldü ki, bunların da 75%-in kişi, 25%-ni isə qadınlar təşkil edirdi. İllik işəgötürmə proqramı vasitəsilə biz 47 nəfər universitet məzunu, 41 nəfər təcrübəli mütəxəssis və 106 nəfər istismar və texniki xidmət üzrə təlim keçmiş mühəndis-texnik işə götürdük. Yerdə qalan 32 yeni əməkdaş şirkətə ehtiyac yaranan hallarda istifadə olunan işəgötürmə prosedurları vasitəsilə işə götürüldü. 2007-ci ildə biz planlaşdırdığımızdan daha çox təcrübəli peşəkarları işə götürdük. Bu, rəhbər səviyyələrdə yerli kadrlara dəstək verilməsində mühüm bir addım idi.

2007-ci ilin sonunda BP Azərbaycanda 155 nəfər "sınaq təcrübəçisi" işləyirdi ki, onlardan 137 nəfəri Azərbaycan vətəndaşı (82% kişi və 18% qadın), 18 nəfəri xarici ölkə vətəndaşları idi (78% kişi və 22% qadın). Həmin ildə 55 nəfər (82% kişi və 18% qadın) "sınaq təcrübəçisi" proqramını başa vurdu. Onların 50 nəfəri Azərbaycan vətəndaşı idi.

BP Azərbaycan SİB-nin işəgötürmə proseslərini yoxlamaq və gücləndirmək üçün şirkətdaxili layihəni başa çatdırdıq. İş bazarında yerli namizədlərin iş yerləri tutmaq üçün müraciət etmələrini daha da asanlaşdırmaq üçün biz daha sadə və aydın yollar tapmağı öhdəmizə götürdük. Kənar şəxslər tərəfindən də tutula bilən boş iş yerləri barədə BP Kaspian intranet

[a] İşəgötürmə prosesinin (addım-addım) müfəssəl izahı "BP Azərbaycan davamlı inkişaf haqqında hesabat 2006"-da (səhifə 40) verilib və buna görə də burada təkrar olunmayacaqdır.

### BP-nin Azərbaycandakı daimi işçiləri

| Kateqoriya | Ümumi | Kişi | Qadın |
|---|---|---|---|
| Daimi yerli işçilər[a] | 1 712 | 1 348 | 364 |
| Əcnəbilər | 487 | 433 | 54 |
| **Cəmi** | **2 199** | **1 781** | **418** |

[a] Daimi yerli işçilərin sayına peşəkar və qeyri-peşəkar daimi yerli işçilər daxildir.

### BP-nin Azərbaycandakı aqentlik müqaviləsi əsasında işləyən əməkdaşlar

| Kateqoriya | Ümumi | Kişi | Qadın |
|---|---|---|---|
| Agentlik müqaviləsi əsasında işləyən yerli əməkdaşlar | 266 | 126 | 140 |
| Agentlik müqaviləsi əsasında işləyən əcnəbi əməkdaşlar | 619 | 588 | 31 |
| **Cəmi** | **885** | **714** | **171** |

**Bilirdinizmi?**

- 2007-ci ilin sonlarında 225 nəfər Azərbaycan vətəndaşı orta və yüksək rəhbər vəzifələr tuturdu (bu rəqəm 2006-cı ildə 170 idi). Onların 69 nəfəri yüksək rəhbər vəzifələrdə idi (bu rəqəm 2006-cı ildə 40 idi).
- Onların 22%-ni qadınlar təşkil edirdi (225 nəfərdən 50 nəfəri).
- İkinci bir Azərbaycan vətəndaşı BP Azərbaycan SİB-nin vitse-prezidenti təyin edildi.
- Azərbaycandan kənarda BP qlobal təşkilatında 13 nəfər Azərbaycan vətəndaşı yüksək və 8 nəfər orta rəhbər vəzifələr tuturdu.

## Beynəlxalq təcrübənin vətənə gətirilməsi



Əmək ehtiyatları üzrə menecer Leyla Novruzova 1993-cü ildə Amoko Kaspian Si Petroleum Limited şirkətinə işə götürüldü. 1998-ci ildə BP və Amoko şirkətlərinin birləşməsindən sonra o, öz karyerasına kadrlar şöbəsində ƏE üzrə məsləhətçi kimi başladı. 2001-ci ildə o, kadrlar şöbəsinin xidmətlərinin yerinə yetirilməsi qrupunun rəhbəri oldu. 2003-cü ildə o, Moskvaya getdi və BP Moskvada dörd il beynəlxalq yerdəyişmələr üzrə menecer işlədi. O, BP-dən TNK BP-yə ezam olunanlar üçün vahid əlaqələndirici vəzifəsini yerinə yetirir və BP-nin Rusiyadakı bütün xarici əməkdaşlarına təyinatdan əvvəl, təyinat müddətində və onların vətənə qayıtması zamanı dəstək verirdi.

2007-ci ildə o, Bakıya qayıtdı və özü ilə əhəmiyyətli iş təcrübəsi gətirdi və əlaqələri və müştəri xidmətlərini yaxşılaşdırmağa xüsusi diqqət yetirməklə, BP Azərbaycan SİB-də beynəlxalq yerdəyişmə qrupuna rəhbərlik etdi. O vaxtdan bəri, o, quruda əməliyyatlar təşkilatınında ƏE meneceri vəzifəsində çalışır.

**2007-cı ildə Azərbaycanda illik işəgötürmə proqramı**

| Sahələr üzrə məzunlar | Cəmi | Kişi | Qadın |
|---|---|---|---|
| Yerüstü mühəndis-texniki işlər | 17 | 17 | 0 |
| Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit (SƏTƏM) | 6 | 4 | 2 |
| Əmək ehtiyatları (ƏE) | 1 | 0 | 1 |
| Qazma və Tamamlama (Q və T) | 7 | 6 | 1 |
| Maliyyə nəzarəti və mühasibat (MN və M) | 4 | 4 | 0 |
| Kommersiya | 3 | 2 | 1 |
| Yeraltı işlər | 9 | 8 | 1 |
| **Cəmi** | **47** | **41** | **6** |

**2007-ci ildə təcrübəli şəxslərin ehtiyac olduğu təqdirdə işə götürülməsi (Azərbaycan)**

| Sahələr üzrə məzunlar | Cəmi | Kişi | Qadın |
|---|---|---|---|
| İnzibati işlər | 14 | 1 | 13 |
| Əlaqələr və xarici işlər (Ə və Xİ) | 4 | 4 | 0 |
| Kommersiya | 5 | 2 | 3 |
| Qazma və tamamlama (Q və T) | 3 | 3 | 0 |
| Rəqəmli və kommunikasiyalar texnologiyası (RKT) | 3 | 3 | 0 |
| Maliyyə nəzarəti və mühasibat (MN və M) | 24 | 13 | 11 |
| Əmək ehtiyatları (ƏE) | 4 | 0 | 4 |
| Sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühit (SƏTƏM) | 15 | 13 | 2 |
| Hüquq | 2 | 1 | 1 |
| Maddi-texniki təchizat | 10 | 7 | 3 |
| Əməliyyatların idarə edilməsi (Əİ) | 1 | 0 | 1 |
| Layihələr | 2 | 2 | 0 |
| Tədarük və təchizatın idarə olunması (TTİO) | 6 | 4 | 2 |
| Təhlükəsizlik | 2 | 2 | 0 |
| Yeraltı işlər | 10 | 7 | 3 |
| Yerüstü işlər - mühəndislər | 10 | 7 | 3 |
| Yerüstü işlər - əməliyyatlar | 7 | 4 | 3 |
| Yerüstü işlər - texniklər | 102 | 96 | 6 |
| Vergi | 2 | 1 | 1 |
| **Cəmi** | **226** | **170** | **56** |

saytında elan vermək üçün bir proses işə salındı. Biz həm də BP qrupunun əmək ehtiyatlarının strateji planlaşdırılması prosesini başa çatdırdıq.

Biz daha bir yay təcrübə proqramını[a] uğurla həyata keçirdik. Bu proqramda maliyyə işlərindən tutmuş mühəndislik işlərinədək müxtəlif sahələrdə 71 nəfər tələbə (79% kişi / 21% qadın) iştirak etdi.

**Karyeranın inkişaf etdirilməsi** BP-nin "sınaq" proqramı 2007-ci il üçün nəzərdə tutulmuş təlim və inkişaf planını yerinə yetirdi. Bundan başqa, Azərbaycan vətəndaşı olan 14 nəfər "sınaq təcrübəçisi" bir illik karyeralarında ilk inkişaf mərhələsi üçün təyinatla xaricə göndərildi. Biz eləcə də şirkət üçün lazımlı hesab edilən "sınaq təcrübəsini" keçmiş mütəxəssislərimizə daha yaxşı kömək etmək üçün "xidmətdə bir pillə yuxarı" adlanan inkişaf mexanizmi tətbiq etdik. Bizim "xidmətdə bir pillə yuxarı" inkişaf təklifimiz peşə ixtisaslı bütün məzunlara işləyə-işləyə təcrübə qazanmaq, öz peşələrinə daha dərindən yiyələnmək və özlərini daha məsuliyyətli vəzifələrə hazırlamağa kömək edən səriştə əsasında strukturlaşdırılmış bir

[a] Təcrübə proqramının müfəssəl təsviri "BP Azərbaycan davamlı inkişaf haqqında hesabat 2006"-da (səhifə 41) verilib.

proqramdır. Təklif karyerada irəliləməyə kömək etmək üçün BP-nin bütün ümumi mexanizmlərini ixtisas üzərində cəmlənmiş istiqamətdə bir araya gətirir.

2007-ci ildə BP Azərbaycan SİB-də qırx bir vəzifə yerli əməkdaşlara həvalə olundu. Milli İnkişaf Proqramı (MİP) yerli rəhbər işçiləri müəyyən edir və onların inkişafını sürətləndirir. 2007-ci ilin sonlarında MİP əməkdaşlarımız 100 nəfərdən artıq yerli kadrdan ibarət idi. Bu işçilərin hər biri öz karyera planları üzərində diqqəti cəmləşdirmək məqsədi ilə yüksək vəzifəli rəhbərlərlə görüşərək inkişafın qiymətləndirilməsi prosesindən keçdi.

**Karyeranın inkişafı üçün xarici ölkələrə təyinatlar** 2007-cı ildə 43 nəfər Azərbaycan vətəndaşı xaricdə, ya BP Azərbaycan SİB-də, ya da BP qrupu daxilində digər biznes bölümlərində işləyirdi. Onların 30%-i qadın, 70%-i kişi idi.

**Podratçı işçi qüvvəsi** 2007-ci ilin sonunda, AÇG layihəsində təqribən 4000 podratçı işləyirdi ki, onların 74%-i Azərbaycan vətəndaşları idi. Səngəçal terminalında 1500-dən çox işçi çalışırdı ki, onların təxminən 72%-i Azərbaycan vətəndaşları idi.

**2008-ci il üzrə BP Azərbaycanda yerli peşəkarların işə götürülməsi planı**

| İşə götürülməsi planı | Məzunlar | Təcrübəli peşəkarlar | Praktikant-texniklər |
|---|---|---|---|
| Əməliyyatlar | 13 | 62 | 150 |
| SƏTTƏM | 2 | 12 | 0 |
| Q və T | 8 | 4 | 0 |
| Texniklər | 44 | 13 | 0 |
| Layihələr | 4 | 14 | 0 |
| Yeraltı işlər və quyular | 10 | 5 | 0 |
| TTİO | 1 | 2 | 0 |
| Kommersiya | 3 | 0 | 0 |
| RKT | 0 | 1 | 0 |
| Ə və Xİ | 2 | 14 | 0 |
| Rəhbərlik | 0 | 0 | 0 |
| İnzibati dəstək | 0 | 10 | 0 |
| **Cəmi** | **87** | **137** | **150** |



**Əməkdaşlarla yaxşı əlaqələr**

"Əməkdaşlarla yaxşı əlaqələr menecer və işçi arasında sabit, ikitərəfli səmərəli ünsiyyət deməkdir. Belə ünsiyyət qarşılıqlı inam yaradır, rəhbərliyin qərarlar qəbul etməsində işçini iştirak etməyə sövq edir və ədalətlilik hissini gücləndirir. Bu, eləcə də qrupun üzvləri arasında əlaqələrin genişlənməsinə kömək edir və sağlam bir iş mühiti yaradır."

Vüqar İbrahimov,
İşçilərlə əlaqələr üzrə menecer



## Elxan Məmmədov təlimə və inkişafa can atır

Çıraq dəniz hasilat qurğusunda dəniz əməliyyatları üzrə mühəndis Elxan Məmmədov bir çox biznes fəaliyyətlərini idarə edir və Xəzərdə BP-nin yüksək vəzifəli əməliyyat rəhbərlərindən biridir.

Azərbaycan Dövlət Neft Akademiyasını sistemlər mühəndisi ixtisası üzrə bitirdikdən sonra, Elxan beş il Azərbaycan hava yolları şirkəti AZAL-da mühəndis-texnik ixtisası ilə əlaqədar olan müxtəlif vəzifələrdə çalışdı. O, BP Azərbaycan şirkətinə 2001-ci ildə gəldi. Xəzər Texniki Təlim Mərkəzini vaxtından əvvəl bitirən Elxan 2002-ci ilin mart ayında Çıraq platformasında cihazlar üzrə texnik kimi dənizdə əməliyyatlar qrupuna qoşuldu. Keçmişə nəzər salaraq, o, peşəkarlardan ibarət bir qrupda işlədiyi həmin vaxtları çox böyük təcrübə məktəbi kimi xatırlayır.

Bundan sonra o, xaricdə - BP-nin Şimal dənizindəki Miller platformasında cihazlar üzrə texnik vəzifəsində çalışdı və 2004-cü ilin may ayında qayıdaraq Mərkəzi Azəri qrupunda işləməyə başladı. Bu qrup platformanın inşası/istismara verilməsi/birinci neftin hasil edilməsi kimi bütün mərhələləri uğurla başa çatdırdı və 2005-ci ildə BP-nin Pol Martin mükafatına layiq görüldü. Kanadanın Vankuver şəhərində keçirilən təntənəli mərasimdə mükafatı fəxrlə qəbul edən BP Azərbaycan SİB-nin əməliyyatlar qrupu üzvləri arasında Elxan da var idi.

Elxanın vəzifəsi tezliklə bir də böyüdü və o, texniki xidmət üzrə nəzarətçi olduqdan sonra, Çıraq platformasında indiki dəniz əməliyyatları mühəndisi vəzifəsinə irəli çəkildi. Burada o, iş planının yerinə yetirilməsini diqqət mərkəzində saxlamaqla, öz işçilərinin təlim və inkişaf ehtiyaclarını müəyyənləşdirir, eləcə də büdcə məsələlərini idarə edir. Çıraq platforması qrupunun dəstəyi sayəsində o, 2007-ci ilin avqust ayında mühüm fövqəladə halların idarə edilməsi (MFHİE) üzrə imtahan verdi və MİP-yə üzv oldu.

**Əmək münasibətləri** Bu il Bakının əsas istehsalat sahələrində işlərin hər hansı nəzərəçarpan dayandırılması olmadan bir neçə əsas dəniz tikinti layihəsinin uğurlu başa çatdırılması ilə yadda qaldı. Hər bir sahədə müvafiq hesablaşma paketləri razılaşdırıldı. Mümkün olan hallarda, keçmiş işçilərə yeni iş yerləri tapmaqda kömək təklifləri olundu.

**Mükafatlandırma** Biz bütün daimi işçilərimizə nəğd pulsuz mənfəətlərin rəqabətədavamlı paketini verməyi davam etdirdik. Bura tibbi sığorta, stomatoloji sığorta, istirahət obyektlərindən istifadə, qəza sığortası və ailəyə yardım ödənişlərinin təmin edilməsi daxil idi. Yerli işçilər eləcə də BP qrupunun alınan səhmlərin ikiqat artırılması planı, fərqləndirici mükafatlandırma planı (VPP) (illik stimullaşdırıcı bonus) və icra bölümünün nəticələrinə görə mükafatlandırma planı kimi əsas qlobal mükafatlandırma proqramlarında iştirak edirlər.

Mənfəətlər paketi 2007-ci ildə regionda ilk fərdi təqaüd proqramlarından biri olan təqaüd əmanəti proqramının tətbiq edilməsi ilə genişləndirildi. Bu yeni mənfəət paketi şirkətin öz işçiləri qarşısında götürdüyü uzun müddətli öhdəliyi əks etdirir. Bütün işçilər bu paketdə iştirak edir və işçilərin 30%-i öz gələcək təqaüd mənfəətini artırmaq üçün

**2007-ci ildə ölkəyə gəlmiş əcnəbi işçilər (yalnız Azərbaycan)**

| Sahə | Cəmi | Kişi | Qadın |
|---|---|---|---|
| Kommersiya | 5 | 4 | 1 |
| Q və T | 20 | 18 | 2 |
| MN və M | 4 | 4 | 0 |
| ƏE | 4 | 0 | 4 |
| SƏTƏM | 9 | 8 | 1 |
| Hüquq | 1 | 0 | 1 |
| Əməliyyatların idarə edilməsi | 1 | 1 | 0 |
| Digər | 1 | 0 | 1 |
| Layihələr | 5 | 5 | 0 |
| TTİO (tədarük və təchizatın idarə olunması) | 4 | 3 | 1 |
| Yeraltı işlər | 10 | 9 | 1 |
| Yerüstü işlər - mühəndislər | 10 | 8 | 2 |
| Yerüstü işlər - əməliyyatlar | 23 | 19 | 4 |
| Yerüstü işlər - texniklər | 9 | 8 | 1 |
| Vergi | 1 | 1 | 0 |
| **Cəmi** | **107** | **88** | **19** |

**2007-ci ildə işdən çıxıb öz ölkələrinə qayıtmış əcnəbi işçilər (yalnız Azerbaycan)**

| Sahə | Cəmi | Kişi | Qadın |
|---|---|---|---|
| Ə və Xİ | 2 | 1 | 1 |
| Kommersiya | 5 | 4 | 1 |
| Q və T | 10 | 9 | 1 |
| RKT | 1 | 1 | 0 |
| MN və M | 3 | 2 | 1 |
| ƏE | 5 | 5 | 0 |
| SƏTƏM | 3 | 3 | 0 |
| Hüquq | 3 | 3 | 0 |
| Maddi-texniki təchizat | 1 | 0 | 1 |
| Layihələr | 8 | 8 | 0 |
| TTİO | 2 | 2 | 0 |
| Yeraltı işlər | 11 | 9 | 2 |
| Yerüstü işlər - mühəndislər | 16 | 14 | 2 |
| Yerüstü işlər - əməliyyatlar | 13 | 11 | 2 |
| Yerüstü işlər - texniklər | 16 | 13 | 3 |
| Vergi | 1 | 1 | 0 |
| **Cəmi** | **100** | **86** | **14** |

könüllü olaraq şirkət tərəfindən ikiqat artırılan əlavə ödənişlər etməyi seçdilər. Təklif olunan səhm planında iştirak etmək üçün qeydə alınan işçilərin sayı 2007-ci ildə 1 104 nəfər olmuşdur ki, bu da bütün yerli işçilərin 66%-ni təmsil edir.

**Təlim kurslarına çəkilən xərclər** Yerli kadrların inkişafına dəstək vermək məqsədi ilə biz həm texniki, həm də davranışlar üzrə tam təlim planı təklif edirik. Bu sahəyə qoyulan vəsaitlər 2007-ci ildə 20 milyon ABŞ dollarından çox olmuşdur.

**Texniki təlim kursları** 2007-ci ilin sonunadək Xəzər Texniki Təlim Mərkəzi (XTTM) Azərbaycanda getdikcə artan neft və biznesinin əməliyyatları ilə əlaqədar ehtiyacları ödəmək üçün BP-nin və agentliklərin 1 000 nəfərdən çox texniki mütəxəssisinə təlim verilməsini təmin etdi[a].

XTTM texniki mütəxəssislərə fundamental texniki bacarıqlar aşılayır və SƏTƏM, ingilis dili və davranışlar sahələrində bilik və təcrübə verir. 2007-ci ildə 106 nəfər texniki işçi (2006-cı ildə 100 nəfər) əsas proqramını bitirmiş və BP Azərbaycan SİB-də işə qəbul olunmuşdur.

[a] http://www.caspianttc.com/index.htm.

**Yeni düşüncələr şəbəkəsi**

BP Azərbaycan SİB-də yeni düşüncələr şəbəkəsi peşəkar kadrların böyük bir diapazonunun yüksək vəzifəli rəhbər heyətlə bir araya gələrək bütün ixtisas sahələrində və ölkələrdə həyata keçirilən mühüm biznes fəaliyyətləri barədə məlumatlar vermək və öz rəylərini bildirmək üçün bir vasitə kimi öz işinə 2005-ci ildə başladı. Onun özünəməxsusluğunu saxlamaq üçün üzvlər hər il dəyişir. 2007-ci ildə bu şəbəkə rəhbərliyə yerli işçilərin xidmət illərinə görə mükafatlandırma proqramının hazırlanmasından başlamış işçi heyətinin milliləşdirilməsinə verilən dəstəyə qədər bir çox sahələrdə kömək etdi.

**Peşə təlimi** 2007-ci ildə biz kadrlarla iş, mühasibat, idarəetmə, layihələrin idarə edilməsi və ictimai əlaqələr kimi sahələrdə 100 nəfər işçinin peşə təhsili almasına dəstək verdik. Məsələn, kadrlar şöbəsinin 32 əməkdaşı hazırda Böyük Britaniyanın İşçi heyət və İnkişaf İnstitutunda ixtisas almaq üçün oxuyur. Onların on dörd nəfəri təhsillərini 2008-ci ildə başa vuracaqlar.

Biz eləcə də Heriot Vatt magistr dərəcəsi proqramına təxminən 53 nəfər tələbə daxil etmişik. Bu proqram BP Azərbaycan SİB-də və digər regionlarda quyuların qazılması və tamamlanması üzrə ilkin inkişaf proqramı ilə birləşdirilmişdir ki, bizim "sınaq təcrübəçilərimiz" güclü mühəndis özülünə malik olsunlar. İlk məzunların buraxılışı 2008-ci il üçün gözlənilir.

**Neft Mühəndisləri Cəmiyyəti (NMC)** 2007-ci ildə biz bilik mübadiləsi məqsədilə neft və qaz sənayesində çalışan mütəxəssisləri bir araya gətirən Neft Mühəndisləri Cəmiyyətinə verdiyimiz dəstəyi davam etdirdik. Azərbaycan NMC özünün 400 tələbə və 100 peşəkar üzvü ilə NMC-nin ən sürətlə böyüyən filiallarından biri olaraq qalır. Bakıdakı illik proqrama mühazirələr silsiləsi, eləcə də tələbələri ön plana çəkən tədbirlər və yerli universitetlərə dəstək daxildir.

## Qanunlara riayət olunması və etik normalar

Harada işləməyindən asılı olmayaraq BP qrupunun bütün əməkdaşları BP-nin Davranış Məcəlləsinə (DM) riayət etməli və onu təşviq etməlidirlər. Bütün qrupa aid olan bu Məcəllə oxşar məsələləri əhatə edən yerli qanun və qaydalarla yanaşı tətbiq olunur və bütün şirkətdə düzgünlüyün və davranışların yüksək standartlarını müəyyən etmək və onlara nail olmaq üçün işlənib hazırlanmışdır. Məcəlləyə əməl etməmək halları çox ciddi pozuntu hesab edilir və inzibati tədbirlərin görülməsindən tutmuş işdən azad edilməyə qədər gətirib çıxara bilər.

Məcəllədə aydın şəkildə göstərilir ki, Məcəllə yerli qaydalar, qanun və ya normalar arasında fərqlər olduğu təqdirdə, həmişə davranışın ən yüksək standartlarını nəzərdə tutan standarta üstünlük verilməlidir.

**2007-ci ildə BP Azərbaycan SİB üzrə cəmi təlim xərcləri**




Məcəllənin müddəalarında qeyri-qanuni, korrupsiya və ya qeyri-etik hallara qadağa qoyulur. Digərləri maddi və ya hər hansı başqa bir formada BP-nin heç bir korporativ siyasi yardımlar etməmək siyasətini vurğulayır. Məcəllə, eyni zamanda, hədiyyələrin verilməsi və alınması, əyləncənin təşkili, maraqların toqquşması, rüşvətxorluq, rəqabət, ticarət məhdudiyyətləri, çirkli pulların yuyulması və təchizatçılar ilə işə aid müfəssəl təlimatlar verir.

BP Azərbaycan apardığımız əməliyyatlarda daha çox baş vermək potensialına malik dələduzluq və etik risklərin olduğu xüsusi sahələri müəyyən etmişdir. Əsasən, həmin sahələr müqavilə və təchizatçının seçilməsi, müqavilələrin idarə edilməsi, mənafelərin toqquşması və hədiyyələrin verilməsi və əyləncə proseslərinə aiddir.

BP Azərbaycanın bütün işçiləri hər hansı etik narahatlıqlarını birbaşa rəhbərlik qarşısında və ya şirkətin "OpenTalk" (Açıq Söhbət) adlanan etik qaydalara riayət üzrə yardım xətti vasitəsilə qaldıra bilərlər. Bu təşəbbüsün müddəalarına uyğun olaraq, şirkət vəd edir ki, bildirilən hər hansı narahatlıq lazımi qaydada nəzərdən keçiriləcək, müvafiq hesab edildiyi halda, məxfi formada araşdırılacaq və onunla bağlı tədbirlər görüləcəkdir.

**2007-ci ilin əlamətdar hadisələri** 2007-ci ildə yuxarıda qeyd edilən sahələrin hər



## Mühəndis-Mexaniklər İnstitutu Vüqar Məmmədovu yüksək qiymətləndirir

Çıraq Dərinsulu Günəşli İcra Bölümünün üzvü Vüqar Məmmədov BP şirkətində işə 2006-cı ildə mühəndis-mexanik kimi başlayıb. Vüqar Azərbaycan Dövlət Neft Akademiyasında maşınqayırmada materialşünaslıq üzrə elmlər doktoru dərəcəsi almışdır. O, yerli və beynəlxalq jurnallarda 25 elmi məqalə nəşr etdirmişdir.

2007-ci ildə o, BP Azərbaycan SİB-də "imtiyazlı" diplomlu və İngiltərədəki Mühəndis-Mexaniklər İnstitutuna (MMİ) qoşulan ikinci yerli mühəndis oldu.

Bütün dünyada nüfuzlu bir təşkilat olan MMİ-yə sədrliyi 2007-ci ildə BP qrupunun mühəndis-texniki işlər üzrə direktoru Con Bakster edirdi. Bu təşkilat bütün dünyada müxtəlif şirkətlərin və ölkələrin peşəkar mühəndislərini bir araya gətirir.

hansı birində riskləri minimuma endirmək məqsədilə biz üçüncü tərəflər üçün riskin qiymətləndirilməsi modelinin hazırlanması, etik qaydalar üzrə işçilərlə söhbətlərin aparılması, mənafelərin potensial toqquşmasının qeydə alınması və kodeksin əsas məsələlərinin yada salınması da daxil olmaqla bir sıra tədbirlər həyata keçirdik. Bundan başqa, şöbələrdə qaydalara və etik normalara riayət məsələləri üzrə məsul şəxslərdən təşkil edilmiş qrup müxtəlif sahələrdə etik normalara əməl olunmasına dəstək verməyə davam etdi və biz bütün yeni işçilər üçün məlumatlandırma yığıncaqlarının keçirilməsini davam etdirdik.

İl ərzində Azərbaycanda işləyən bir sıra işçilər və podratçı heyət tətbiq olunan qanunlara, normalara və ya Davranış Məcəlləsinə riayət etmədiklərinə görə işdən azad edildi. Norma və qaydalara riayət olunmaması hallarına alkohol və narkotik maddələrdən istifadə, şirkət resurslarından düzgün istifadə olunmaması, dələduzluq və oğurluq halları daxil idi.

Davranış Məcəlləsinə və tətbiq oluna bilən qanun və qaydalara SİB-nin nə dərəcədə riayət etməsinin əsas göstəricisini etik normalara riayət üzrə bütün BP qrupunu əhatə edən və hər il keçirilən attestasiya prosesi müəyyən edir. Bu, bizə Azərbaycanda potensial riskləri və narahatlıqları müəyyən etmək və lazım olan yerlərdə tədbirlər görmək imkanı yaradır. Aşkar edilən hər hansı risk və narahatlıqlar barədə BP Azərbaycan SİB-nin prezidenti tərəfindən imzalanan etik normalara riayət hesabatında BP Qrupunun rəhbərliyinə məlumat verilir. İllik etik qaydalara riayət üzrə sonuncu attestasiya hesabatını 2007-ci ilin noyabr ayında tamamlamışıq.

Bu prosesin bir hissəsi olaraq, biz hədiyyə və əyləncələr və mənafelərin toqquşması hallarının konkret olaraq necə həll edilməsinin təsdiqinə dair fərdi bəyanatlar aldıq. BP Azərbaycanın bütün işçilərindən 2007-ci ildə yerinə yetirdiyi işlərin Davranış Məcəllesi ilə uyğun olduğunu yazılı şəkildə təsdiqləmək xahiş edildi. 2006-cı ildəki 400 fərdi məsələ ilə müqayisədə 2007-ci ilin təsdiqləmə prosesi zamanı 600 fərdi məsələ qaldırıldı. Onların hamısı nəzərdən keçirilərək 2006-cı ildəki 65 potensial etik narahatlıqla müqayisədə 83 belə hal seçildi. 83 narahatedici halın əksəriyyəti təxirə salınmadan həll edildi. Qalan məsələlərlə bağlı 2008-ci il ərzində düzəliş xarakterli müdaxilə tədbirləri görüləcəkdir.

2008-ci ildə biz attestasiya nəticələrinə əsaslanaraq Azərbaycanda çalışan işçilər arasında düzgün biznes davranışı barədə məlumatlılığı daha yüksək səviyyəyə qaldırmaq məqsədilə səylərimizi davam etdirmək niyyətindəyik. Planlaşdırılmış tədbirlərə aşağı dəyərli müqavilələrin diqqət mərkəzində saxlanılması, bütün SİB-də təlimatlandırma və siyasət və prosedurlara necə riayət olunmasının yoxlanılması daxildir.

**Podratçılar və etik mormalar** Biznesimizin böyük bir hissəsi xarici və yerli podratçılar ilə əməkdaşlıq şəraitində aparılır. BP-nin prosesləri, xüsusilə maraqların toqquşması, yolverilməz hədiyyələr və əyləncələrdən yayınmaq vurğulanmaqla, podratçıları diqqətlə və layiqincə seçmək məqsədilə hazırlanmışdır. Biz podratçılarımızdan bütün qanuni tələblərə riayət edilməsini gözləyirik. Bizim məqsədimiz yalnız öz biznes fəaliyyətini Davranış Kodeksinə uyğun həyata keçirən podratçılarla iş görməkdir.

# 1.8 Fəsil 1 üzrə əsas statistik göstəricilər[a]

## İstismar

- Çıraq 1, Mərkəzi Azəri, Qərbi Azəri və Şərqi Azəri platformalarından neft hasilatı ilin sonunadək orta hesabla gündə 668 000 barel olmuşdur (129 000 barel Çıraq-1, 244 000 barel Mərkəzi Azəri (MA), 171 000 barel Qərbi Azəri (QA) və 124 000 barel Şərqi Azəri (ŞA) platformalarından).
- Şahdənizdə (ŞD) qaz hasilatının ümumi həcmi 3,1 milyard kub metr/il olmuşdur ki, bu da plandan 11% çoxdur.
- Biz ARDNŞ-yə 2,4 milyard standart kub metr AÇG səmt qazı təhvil verdik.

## Maliyyə

- AÇG işlənməsinə qoyulmuş əsaslı xərclər (tərəfdaşlarla) 2,822 milyard ABŞ dolları məbləğində olmuşdur.
- ŞD işlənməsinə qoyulmuş əsaslı xərclər (tərəfdaşlarla) 364 milyon ABŞ dolları məbləğində olmuşdur.
- BTC tikintisinə qoyulmuş əsaslı xərclər (tərəfdaşlarla) 154 milyon ABŞ dolları məbləğində olmuşdur.
- ŞD/CQBK tikintisinə qoyulmuş əsaslı xərclər (tərəfdaşlarla) 64 milyon ABŞ dolları məbləğində olmuşdur.
- AÇG/ŞD-yə qoyulmuş əməliyyat xərcləri (əməkdaşlarla) 615 milyon ABŞ dolları məbləğində olmuşdur.

## Ətraf mühit

- İQ-lərin cəmi emissiyası 2006-cı ildəki 613 min ton müqabilində 2007-ci ildə 729 min ton olmaqla 18,9% artmışdır.
- Normal əməliyyat şəraitində atmosferə buraxılan və yalnız BP-yə aid olan İQ emissiyaları (hasil edilmiş hər min barel neft və qaz hasilatında buraxılmış emissiyalar) 2006-cı ildəki 11,8 t/mbne-dən 2007-ci ildə 8,97 t/mbne-dək düşərək, 24% azalmışdır.
- Məşəldə yandırılan məşəl qazının ümumi həcmi 2006-cı ildəki 333 min tondan 281 min tonadək aşağı düşərək, 15.6% azalmışdır.
- Yanacaq qazından istifadə 2006-cı ildəki 284,2 min tondan artaraq 2007-ci ildə 438,0 min tona çatmaqla, 54,1% artmışdır.
- Dizel yanacağından istifadə 2006-ci ildəki 24,2 min tondan 2007-ci ildə 18,6 min tona düşərək, 23,1% azalmışdır.
- Elektrik enerjisinin idxalı 2006-cı ildəki 5,5 MW/s-dan 2007-ci ildə 4,8 MW/s-a düşərək 14,6% azalmışdır.
- Dənizə atılan qazma şlamının miqdarı 2006-cı ildəki 15 811 tondan 2007-ci ildə 23 995 tona çataraq 52% artmışdır.
- Hasil edilmiş təhlükəli tullantının miqdarı 2006-cı ildəki 35 683 tondan 2007-ci ildə 40 713 tona çataraq 14% artmışdır.
- Neft dağılmalarının sayı 2006-cı ildəki 41 dağılma ilə müqayisədə 2007-cı ildə 71 dağılma olmaqla 74% artmışdır.
- 2006-cı ildə axıdılmış həcmlər 8 396 litr müqabilində 2007-ci ildə 4 534 litrədək aşağı düşərək 46% faiz azalmışdır.

## Əməyin təhlükəsizliyi

- 2007-ci ildə Azərbaycanda həyata keçirdiyimiz əməliyyatlarla əlaqədar heç bir ölüm hadisəsi baş verməmişdir.
- Azərbaycanda cəmi nəqliyyat qəzalarının baş vermə tezliyi 0,99-dan 1,54-dək artaraq 55,6% çoxalmışdır.
- BP Azərbaycan SİB-nin əməkdaşlarına SƏTTƏM və Əməliyyatlar üzrə təlim saatları 2006-cı ildəki 43 786 saat müqabilində 2007-ci ildə 148 105 saat olmaqla 238% artmışdır.

## Əməkdaşlar

- 2007-ci ilin sonunda BP Azərbaycan SİB-də yerli ixtisaslı kadrların faiz nisbəti planlaşdırılmış 75% müqabilində 77% olmuşdur.
- Azərbaycanda işə götürülmüş kadrların sayı 2006-cı ilin sonunda 2 048 nəfərdən 2007-ci ilin sonunda 2 199 olmaqla 7% artmışdır.
- Yeni işə götürülən yerli kadrların sayı 2006-cı ildəki 303 nəfərdən 2007-ci ildə 226 nəfərə düşərək 25% azalmışdır.
- Təcrübəli yerli mütəxəssislərin illik işəgötürmə proqramı vasitəsilə işə götürülməsi 2006-cı ildəki 25 nəfərlə müqayisədə 2007-ci ildə 41 nəfərə çataraq 64% artmışdır.
- Orta və yüksək idarəetmə səviyyələrindəki Azərbaycan vətəndaşlarının sayı 2006-cı ildəki 170 nəfərlə müqayisədə 2007-ci ildə 225 nəfər olmaqla 32% artmışdır. Yüksək idarəetmə səviyyələrindəki Azərbaycan vətəndaşlarının sayı 2006-cı ildəki 40 nəfərlə müqayisədə 2007-ci ildə 69 nəfər olmaqla 72,5% artmışdır.
- Təlim üzrə çəkilən xərclər 2006-cı ildəki 30,3 milyon ABŞ dollarından 2007-ci ildə 28 milyon ABŞ dollarınadək düşərək 8% azalmışdır.

[a] Əgər başqa cür göstərilməyibsə, məlumatlar BP Azərbaycan SIB-nin 2007-ci il üzrə icra göstəricilərinə aiddir.

# 2

Yevlax rayonundan Xəzər Enerji Mərkəzinə gəlmiş uşaqlar



# BP Azərbaycanda: cəmiyyətdə rolumuz

**2.1 Davamlı inkişafa dəstək**
- **Regional inkişaf təşəbbüsü**
- **İctimai sərmayə**
- **Ətraf mühitə sərmayə**
- **Mədəni irsin qorunması**

**2.2 Gəlirlərin şəffaflığı**

**2.3 Yerli ehtiyatların inkişaf etdirilməsi**

**2.4 Təhsil təşəbbüsləri**

**2.5 Fəsil 2 üzrə əsas statistik göstəricilər**

# 2.1 Davamlı inkişafa dəstək

**2007-ci ildə BP və tərəfdaşları Azərbaycanda sosial-iqtisadi inkişaf layihələrinə təxminən 7,39 milyon ABŞ dolları həcmində sərmayə qoymuşdur.**

## Regional İnkişaf Təşəbbüsü (RİT)

Regional İnkişaf Təşəbbüsü (RİT) yerli sahibkarlığı inkişaf etdirmək, enerji mənbələrinə çıxış imkanı yaratmaq və səmərəli idarəetməni gücləndirmək üçün geniş miqyaslı, bütün ölkəni əhatə edən və mümkün olan hallarda regional layihələri həyata keçirən uzunmüddətli proqramdır. 2007-ci ildə bu proqram Azərbaycan, Gürcüstan və Türkiyədə həyata keçirildi. Azərbaycanda həyata keçirilən proqramda əsas diqqət yerli sahibkarlığın inkişafı üzərində cəmlənir. 2007-ci ildə ölkədə həyata keçirilən müxtəlif RİT layihələrinə təxminən 3,7 milyon ABŞ dolları məbləğində vəsait xərclənmişdir.

**2007-ci ilin əlamətdar xadisələri** 2007-ci ildə bir sıra layihələri başa çatdırdıq, digərlərini davam etdirdik və yenilərini həyata keçirmək üçün müqavilələr imzaladıq:

- **Kiçik və orta müəssisələr (KOM) üçün biznes xidmətlərinin inkişaf etdirilməsi:** Bu üçillik biznes xidmətlərinin inkişaf etdirilməsi layihəsi Azərbaycan Bank Təlim Mərkəzi (ABTM) tərəfindən 2007-ci ildə başa çatdırıldı. Layihə ABTM-də yüksək keyfiyyətli və məqbul qiymətlərlə KOM sektoruna kommersiya baxımından davamlı əsasda təlim və məsləhət xidmətləri göstərmək üçün lazımi bacarıqları yaratmaq məqsədi ilə təşkil edilmişdi. 2004-2007-ci illər arasındakı müddətdə ABTM 42 yeni təlim kursu işləyib hazırlamışdır. 2007-ci ildə təlim alan 52 nəfər də daxil olmaqla, yerli şirkətlərin təxminən 1 178 nəfər nümayəndəsi bu mərkəzdə təlim almışdır.
BP Azərbaycan şirkətinin əməkdaşları üçün biznes təlimi xidmətlərini təmin etmək üçün ilin sonlarında keçirilən müsabiqəli tenderdə ABTM BP Azərbaycan SİB ilə podrat müqaviləsi bağladı. Bu inkişaf layihəsi Beynəlxalq Maliyyə Korporasiyası (BMK) və RİT ilə birgə maliyyələşdirildi və RİT layihəyə 0,24 milyon ABŞ dolları məbləğində vəsait verdi. BP və tərəfdaşları tərəfindən maliyyələşdirilən Biznes Mərkəzi bu layihəyə fəal şəkildə dəstək verdi və bu işi gələcəkdə də davam etdirəcək.
- **Özəl və dövlət müəssisələrinin tərəfdaşlığı (ÖDMT) layihəsi:** Təchizatçıları inkişaf etdirmək üçün həyata keçirilən bu layihə Almaniya Texniki Əməkdaşlıq (ATƏ) təşkilatı tərəfindən 2007-ci ildə başa çatdırıldı. Layihə neft və qaz sektorunda fəaliyyət göstərən yerli şirkətlərə xüsusi texniki yardım göstərmək üçün nəzərdə tutulmuşdu. Layihənin ümümi xərci təxminən 625 000 avro idi və bunun 200 minini RİT verdi. Üç il ərzində layihə 17 yerli şirkətə texniki yardım göstərmişdir. Onlardan yeddisi sonradan BP-nin attestasiyaqabağı tender tələblərini ödəməyə qadir oldu



## Debet necə inkişaf etdi

2004-cü ildə təchizatçıların inkişaf etdirilməsi layihəsi həyata keçirilməyə başlayanda, "Debet Uniform ltd." fəaliyyət dairəsini genişləndirmək üçün yollar axtarırdı.

Üç il sonra "Debet Uniform" BP Azərbaycan və BP Gürcüstan şirkətlərini fərdi mühafizə ləvazimatı ilə təchiz etmək üçün üçillik, 6 milyon dollarlıq bir müqavilə imzaladı. Bu, Biznes Mərkəzinin şirkətə beynəlxalq standartlara cavab vermək üçün zəruri olan bacarıqların əldə edilməsində göstərdiyi köməkdən sonra baş verdi. İndi bu şirkətdə 117 nəfər işçi vardır.

RİT-nin Azərbaycandakı meneceri İbrahim İsmayılovun fikrincə, "Debet Uniform-un müvəffəqiyyəti yerli sahibkarlığı inkişaf etdirmək strategiyamızın müsbət nəticəsidir". Debet Uniform-un baş direktoru Əsəd Nəsrullayev əlavə edir: "BP ilə bağlanmış müqavilə qısa bir müddətdə çoxlu yeni iş yerləri açmağa imkan verəcəkdir. Bizim keyfiyyəti idarə etmək, sağlamlıq və ətraf mühitin mühafizə sistemlərimiz mütəmadi olaraq inkişaf edir və BP ilə bağlanmış müqavilə bu prosesə kömək edəcəkdir".

2008-ci ilin yanvar ayında Debet-in inkişaf səyləri öz bəhrəsini verdi - şirkət təchiztçıları maliyyələşdirmə mexanizmindən mühüm əhəmiyyətli kredit götürdü.



və ikisi - AzMETCO (2005-ci ildə) və "Debet Uniform Ltd" (2007-ci ildə) tenderdə uğur qazandılar. Layihənin nəticəsi olaraq, BP Azərbaycan şirkəti təchizat sisteminin ölçmə və fərdi mühafizə ləvazimatının təmin edilməsi kimi iki əsas sahəsini yerli şirkətlərə həvalə etdi.

- **Sahibkarlığın inkişafı və təlim proqramı (SİTP):** Yerli biznesin inkişafına dəstək vermək üçün nəzərdə tutulmuş bu üçillik təşəbbüs 2007-ci ildə həyata keçirilməyə başladı və uğurla davam etdi. Dəyəri bir neçə milyon olan və RİT vasitəsilə layihələşdirilmiş və maliyyələşdirilən bu proqram Biznes Mərkəzi tərəfindən idarə olunur və kənd təsərrüfatının beynəlxalq kooperativ inkişafı və könüllülər xarici kooperativ yardımda beynəlxalq qeyri-mənfəət inkişaf təşkilatı (ACDİ/VOCA) tərəfindən həyata keçirilir. Bu, bizim müqavilələrin Azərbaycanda yerli ehtiyatlardan istifadəsini artırmaq səyimizin bir hissəsini təşkil edir. SİTP 2006-cı ilin sonlarında BP və onun tərəfdaşlarının BMK və Azərbaycan Mikromaliyyələşdirmə Bankı (AMMB) ilə birgə həyata keçirməyə başladıqları dəyəri 15 milyon ABŞ dolları olan təchizatın maliyyələşdirilməsi mexanizmini tamamlayan bir proqramdır. Buraya potensial yerli podratçıların müəyyən edilməsi, yerli şirkətlər üçün seminarlar və müvafiq hallarda inkişaf planının yaradılması və həyata keçirilməsi daxildir. 2007-ci ildə ictimai iaşə, tərcümə və mühəndis-texniki sahələr də daxil olmaqla 30 təşkilatı təmsil edən 36 nəfər üçün üç seminar təşkil edildi.
- **Mikromaliyyələşdirmə kredit proqramları:** 2006-cı ilin sonlarında BP Azərbaycan öz tərəfdaşları adından yerli kiçik biznesin və sahibkarların kommersiya maliyyələşdirilməsindən daha səmərəli istifadə etməsinə dəstək vermək məqsədi ilə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə üçillik bir müqavilə imzaladı. Bu müqaviləyə uyğun olaraq, BP Azərbaycan SİB və onun tərəfdaşları Azərbaycanda və Gürcüstanda özəl sektorun inkişafına kreditlər verilməsi üçün 6 milyon ABŞ dolları verir. Bu proqram mikromaliyyələşdirmə sektorunda fəaliyyət göstərən bir sıra yerli maliyyə institutları ilə bağlanmış ayrı-ayrı müqavilələr vasitəsilə AYİB tərəfindən həyata keçirilir. 2007-ci ilin



Solda: AzMetkonun mühəndis metroloqu Andrey Sdobnov. Sağda: TMMM krediti almış ilk Azərbaycan şirkəti AzMetkonun baş direktoru Şükür Ağazadə

**2007-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyyədə sosial xərclər**

| | Azərbaycan | Gürcüstan | Türkiyə | Cəmi |
|---|---|---|---|---|
| Ümumi xərclər - BP və tərəfdaşları (ABŞ dolları ilə) | 7 386 192 | 8 724 588 | 4 992 513 | 21 103 293 |
| Yalnız BP tərəfindən çəkilmiş xərclər (ABŞ dolları ilə) | 2 581 673 | 3 845 208 | 1 502 746 | 7 929 627 |

noyabr ayında biz Azərbaycanın qərb rayonlarında mikro və kiçik müəssisələrin (MKM) maliyyə vəsaitlərindən istifadəsini genişləndirmək məqsədi ilə BMK ilə dəyəri 1 milyon ABŞ dolları olan ayrıca bir qrant müqaviləsi imzaladıq. Bu layihə Azərbaycan Mikromaliyyələşdirmə Bankına (AMMB) öz filial şəbəkəsini Mingəçevir və Qazaxda açmağa, eləcə də özünün Gəncə filialının xidmətlərini yaxşılaşdırmağa imkan verəcəkdir. Bu təşəbbüsə ayrıca bir müqavilə əsasında BMK və AMMB tərəfindən 2,3 milyon ABŞ dolları həcmində qrantlar ayrılmışdır.

- **Təchizatçı müəssisələri maliyyələşdirmə mexanizmi (TMMM):** 2007-ci ilin may ayında təchizatçı müəssisələri maliyyələşdirmə mexanizminin (TMMM) ikinci mərhələsinin həyata keçirilməsinə başlandı. Bu mexanizmin məqsədi Azərbaycanın yerli neft və qaz sənayesinin təchizatçı və xidmət müəssisələrinin maliyyə vəsaitlərindən daha asan istifadəsini təmin etməkdən ibarətdir. Bu mexanizm öz tərəfdaşları adından BP şirkəti və BMK tərəfindən təsis edilmişdir və AMMB tərəfindən həyata keçirilir.
  İkinci mərhələ BP Azərbaycan SİB-nin yerli podratçılarına 15 milyon ABŞ dollarından istifadə etməyi təklif edir. Bu məbləğə BP və onun tərəfdaşlarının maliyyələşdirdiyi 6 milyon ABŞ dolları, BMK-nın maliyyələşdirdiyi 6 milyon ABŞ dolları və AMMB tərəfindən maliyyələşdirilən 3 milyon ABŞ dolları daxildir. 2007-ci ildə bir sıra fəaliyyətlər, o cümlədən kredit alınması ilə bağlı AMMB ilə müqavilənin imzalanması və Azərbaycanın maliyyə bazarında vəziyyət barədə məlumatlara əsaslanmış TMMM-nin rəqabətədavamlılıq analizinin tamamlanması və Biznes Mərkəzinin yerli resursları planının TMMM-in 2008-ci il planına inteqrasiya edilməsi həyata keçirildi.
- **Mikromaliyyələşdirmənin ilkin vəziyyətinin yoxlanılması layihəsi:** Azərbaycan Mikromaliyyələşdirmə Assosiasiyası (AMA) tərəfindən həyata keçirilən bu layihədən məqsəd Azərbaycan mikro-maliyyələşdirmə sektorunda şəffaflığı artırmaqla



## O, qanad açır

54 yaşlı İntizar Rzayevanın Bakıda əsasən paltar və geyim əşyalarının satışı ilə məşğul olan kiçik biznesi var. Onun biznesi gündən-günə böyüdüyündən, o, 2007-ci ildə onu daha da genişləndirmək üçün əlavə maliyyələşdirmə yolları axtarmağı qərara aldı.

İntizar BP və onun tərəfdaşlarının RİT vasitəsi ilə dəstək verdiyi sahibkarlar və mikro- və kiçik şirkətlərin ehtiyaclarına xidmət edən qeyri-bank maliyyə institutu olan FİNCA Azərbaycan vasitəsilə kredit götürməyə müvəffəq oldu.

Onun bu işi Azərbaycanın hər yerində yerli sahibkarlar və firmaların RİT və AYİB tərəfindən təsis edilmiş birgə kredit proqramının yaratdığı maliyyə məhsullarından istifadə imkanından faydalandığını göstərən misallardan biridir. Götürdüyü kredit İntizara Sahil ticarət mərkəzində daha bir dükan açmağa və beləliklə də öz ticarət həcmlərini artırmağa imkan verdi.



## Gələcək yolların tapılmasına kömək

Hələ uşaq olarkən Niyaz həmişə elektrik cihazlarını söküb təzədən yığmağa maraq göstərirdi və böyüyəndən sonra bu həvəs onu belə cihazları təmir etmək işinə gətirib çıxardı. Orduda xidmət edərkən, onun bu bacarığı diqqəti cəlb etdi və onu telefon xətləri üzrə nəzarətçi vəzifəsinə təyin etdilər. Hərbi xidməti başa vurduqdan sonra, o, mobil telefonların təmiri ustası olmaq qərarına gəldi, lakin o, bilirdi ki, bunun üçün müvafiq təlim kursu keçməlidir.

Usta yanında şagirdlik kurslarının olduğunu biləndən sonra, 23 yaşlı Niyaz Sahil qəsəbəsində yerli qeyri-hökumət təşkilatı "Ümid"lə tərəfdaşlıqda BP-nin sponsorluq etdiyi "Uşaqları Müdafiə Təşkilatı" tərəfindən həyata keçirilən "canlı universitet" proqramının peşə təlimi layihəsinə daxil oldu. Burada o, öz diqqətini mobil telefonların təmiri üzərində cəmləmək imkanı qazandı və beləliklə də, arzusuna müvafiq olaraq öz karyerasının istiqamətini dəyişdi.

Kursun elə birinci günündən Niyaz hər şeyi öyrənməyə böyük həvəs göstərdi. Kursu bitirdikdən sonra o, Sahil qəsəbəsində dəbdə olan mobil telefon təmiri mərkəzində özünə təmir ustası kimi bir iş tapdı. Amma bir problem var idi - onun sərəncamında olan ləvazimat bu işin öhdəsindən gəlmək üçün kifayət deyildi. Usta yanında şagirdlik proqramında onun göstərdiyi səylərə görə, "Uşaqları Müdafiə Təşkilatı"/"Ümid" ona lazım olan qalan alətləri almaq üçün kiçik bir qrant verməyə imkan tapdı.

Bu gün Niyaz mobil telefon təmiri ustası kimi gərgin işini davam etdirir və Sahil icmasında telefonlarının təmirə ehtiyacı olan adamlara kömək edir. Sahil qəsəbəsində peşə təlimi kurslarının keçirilməsinə başlamazdan əvvəl bunların heç biri mümkün ola bilməzdi.

maliyyə institutlarının işini yaxşılaşdırmaq və maliyyələşdirilmənin müxtəlif mənbələrindən istifadə imkanları diapazonunu genişləndirməkdir. Layihəyə RİT, BMT İnkişaf Proqramı (BMT İP), Avrasiya Fondu və AMA birgə sponsorluq etdi. İlkin vəziyyət haqqında üç dildə iki hesabat hazırlandı. Layihə eləcə də Azərbaycanda müsabiqə əsasında seçilmiş və Biznes Mərkəzində AMA tərəfindən keçirilən kredit müfəttişi təlim kurslarında iştirak edən doqquz nəfər tələbənin 2007-ci il yay təcrübə proqramını maliyyələşdirdi. Bu təcrübəçilərə sonradan mikromaliyyələşdirmə sektorunda işləmək üçün daimi iş yerləri təklif olundu.

## İctimai sərmayə

**Xülasə** 2007-ci ildə biz Azərbaycandakı icmalara bizim ictimai sərmayə proqramı (İSP) çərçivəsində sərmayə qoyulmasını, BP-nin sponsorluğunu və əməkdaşların topladığı vəsaitin ikiqat artırılması proqramını davam etdirdik.

**İctimai sərmayə proqramı** Bizim Azərbaycandakı ictimai sərmayə layihələrimiz obyektlərimizin yaxınlığında yaşayan insanlar üçün verdiyimiz müsbət sosial və icma inkişafına davamlı dəstəyi əks etdirir. 2007-ci ildə İSP 60 icmada həyata keçirildi. Həmin il bələdiyyələrlə, yerli hökumət orqanları və şirkətlərlə yaxından əməkdaşlıq etməyimizlə əlamətdar oldu. 2007-ci ildə BP və onun tərəfdaşları ictimai sərmayə proqramı ilə bağlı layihələrə 2,7 milyon ABŞ dolları xərclədi.

**2007-ci ilin əlamətdar hadisələri**

- **"Canlı universitet konsepsiyası" proqramı:** 2005-ci ildə təsis edilmiş bu layihə çərçivəsində 2007-ci ildə əsas diqqət Hacıqabul, Kürdəmir, Ucar, Ağdaş və Yevlax rayonları üzərində cəmlənməklə 24 icmaya sərmayələr qoyuldu. Bu proqram üzrə iş davamlı inkişafla bağlı tərəfdaşlığa sadiq olduğunu nümayiş etdirən icmalarla aparılır. Layihənin davamlılığı icmalar və yerli hökumət arasında uzunmüddətli əlaqələrin yaradılması vasitəsilə gücləndirilir. Proqramı bizim üçün yerli "Ümid" və "Aqro informasiya mərkəzi" QHT-ləri ilə əməkdaşlıqda "Uşaqları Müdafiə Təşkilatı" həyata keçirdi. 2007-ci ildə biz tərəfdaşlarımızla birlikdə proqram çərçivəsində görülən işlər üçün təxminən 1,3 milyon ABŞ dolları xərclədik. Bu proqram 2009-cu ilədək davam edəcəkdir. "Canlı universitet" konsepsiyası proqramının üç əsas tərkib hissəsi vardır: icma-icma tərəfdaşlığı - uğur qazanmış icmalar öz inkişaflarında əldə etdiyi təcrübə və bacarıqlarını yenicə səfərbər edilmiş və ya "yaranmaqda olan" icmalara verirlər; gənclər üçün usta yanında şagirdlik komponenti; və kənd təsərrüfatı xidmətləri mərkəzləri (KTXM) yaratmaqla həyata keçirilən kənd təsərrüfatı komponenti. KTXM-lər hər birində 20 nəfər kənd təsərrüfatı üzrə məsləhətçisi olan şəbəkə əsasında yaradılıb ki, onlar 13 nümunəvi fermanı idarə etmiş və təxminən 900 nəfər fermerə məsləhətlər vermişlər. 2007-ci ildə beş "ulduz" icma "yaranmaqda olan" 15 icmaya qəyyumluq etmiş və onları təlimləndirmişdir; 36 nəfər usta şagirdi peşə təlimi keçmiş və onlardan yeddisi müvafiq işlərlə təmin edilmişdir. Doqquz iştirakçı öz biznesini qurmaq üçün kiçik qrantlar almışlar. 2007-ci ildə Kürdəmir və Ucar rayonlarında iki KTXM açıldı və Samux ("Sərvət") və Aqstafa ("Bərəkətli torpaq") rayonlarında 2006-cı ildə təsis edilmiş KTXM -lər isə öz fəaliyyətlərini davam etdirdilər. Bu mərkəzlərdə kompyuter və ingilis dili kursları keçirildi. "Bərəkətli torpaq" kənd

təsərrüfatı xidmətləri mərkəzində 60 nəfər üçün biznes təlimi keçirildi, "Sərvət" KTXM-nin mütəxəssisləri isə 160 fermerə kənd təsərrüfatı üzrə təlim keçdi. 2007-ci ildə 2 750 nəfər fermer bu mərkəzlərdə müxtəlif sahələr üzrə məsləhətlər aldılar.

- **Suyun təmizlənməsi proqramı:** 2006-cı ildə əvvəllər içməli suyun çatışmazlığından əziyyət çəkən Kürdəmir, Ucar və Ağdaş rayonlarının altı icmasının (BTC/CQBK boru kəmərləri marşrutu boyunca yerləşən) hər birində bir sutəmizləmə qurğusu inşa edildi. 2007-ci ildə ictimai sərmayə proqramını həyata keçirən tərəfdaşımız "Ümid" QHT Kürdəmir və Ucar icmalarında sadə, yerli şəraitdə mümkün olan texnologiyalardan istifadə etməklə əlavə beş sutəmizləmə qurğusunun quraşdırılmasını həyata keçirdi.
- **Zığ icma inkişafı təşəbbüsü:** 2007-ci ilin iyun ayında başa çatan bu proqram üzrə "Ümid" təşkilatı tərəfindən müxtəlif inkişaf layihələri həyata keçirildi. Bu qeyri-hökumət təşkilatı 40 firma üçün biznes planları hazırladı, 126 nəfəri kredit institutları ilə əlaqələndirdi və onlar kredit götürdülər, 156 nəfər gənc usta yanında şagirdlik kursları keçdi və onlardan 31 nəfəri öz biznes fəaliyyətlərinə başladılar. Müxtəlif infrastruktur növləri bərpa edildi. Bütövlükdə, 2004-2007-ci illərdə biz tərəfdaşlarımızla birgə icmaların ayırdıqları vəsaitlərə əlavə olaraq təxminən 650 000 ABŞ dolları məbləğində vəsait xərcləmişik.
- **İqtisadi imkanların yaradılması proqramı (İİYP):** Həyata keçirilməsinə 2007-ci ildə başlanılmış bu proqram bizim əsas tikinti layihələrimizin başa çatmasından sonra Azərbaycanda iqtisadi inkişafa və 17 icmada iş yerlərinin yaradılmasına dəstək vermək üçün təsis edilmişdir. İnteqrasiya edilmiş inkişaf mexanizmini yaratmaq üçün dörd komponent bir-biri ilə əlaqələndirilmişdir: icmalara kömək üçün beynəlxalq fondlar tərəfindən maliyyə vəsaitlərindən istifadənin mümkünlüyü - 423 000 ABŞ dolları məbləğində vəsait ayrılıb; "Ümid" təşkilatı tərəfindən həyata keçirilən usta yanında şagirdlik proqramı - 189 000 ABŞ dolları məbləğində vəsait ayrılıb; "Cunior Açivment Azərbaycan" təşkilatı tərəfindən həyata keçirilən iqtisadiyyat və biznes təlimi - 151 000 ABŞ dolları məbləğində vəsait ayrılıb və "Mədəd" təşkilatı tərəfindən həyata keçirilən informasiya və rabitə texnologiyası (İRT) proqramı - 142 000 ABŞ dolları məbləğində vəsait ayrılıb.
- **Təcili tibbi yardımın inkişaf etdirilməsi təşəbbüsü (TTYİT):** Bu təşəbbüs diqqətini ambulator tibbi yardım və xəstəxanada təcili tibbi xidmətlər üzərində cəmləyir. Bu təşəbbüs əsasında Kürdəmir, Şəmkir və Yevlax rayonlarının təcili tibbi yardım şöbələri təcili tibbi yardım avadanlıqları ilə təmin edildi və Gəncə, Kürdəmir, Şəmkir və Yevlax rayonlarında 220 nəfər şəxs (həkimlər, revmatoloqlar, ambulans heyəti, tibb bacıları, polis işçiləri və yanğınsöndürənlər kimi qəza hadisələrinə ilk cavab verənlər) təcili tibbi yardım üzrə təlim keçdilər. 2008-ci ildə başa çatacaq TTYİT Beynəlxalq Səhiyyə Təşkilatı tərəfindən həyata keçirilir ki, bu, BP və onun tərəfdaşları və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşdirilir.
- **Təhsil təşəbbüsləri:** Biz ya tərəfdaşlarımızla birgə, ya da müstəqil olaraq bir sıra təhsil layihələrinə, o cümlədən məktəblərin əlaqəliliyi və qlobal vətəndaşlıq proqramına və kənd yerlərində geniş əhatəli təhsil proqramına dəstək verdik. Bu barədə daha ətraflı məlumatla (səhifə 56-58-də tanış olmaq olar).

**Əməkdaşların icmalara dəstəyi** Biz öz əməkdaşlarımızı ölkənin hər yerində icmalara verilən hədiyyələrin, səylərin və vaxtın şirkət tərəfindən ikiqat artırılması layihələri vasitəsilə dəstək verməyə təşviq edirik. Verilən belə töhfələr BP qrupu tərəfindən idarə olunan əməkdaşların töhfələrinin ikiqat artırılması fondu (ƏTİAF) vasitəsilə ikiqat artırılır. Bizim üçüncü tərəf inzibatçımız - İanə Köməyi Fondu (İKF) - qlobal ƏTİAF-dan ikiqat artırılan ianələr almaq hüququ olan yerli təşkilatların siyahısını saxlayır və vaxtaşırı olaraq orada dəyişikliklər edir. 2007-ci ildə BP Azərbaycan SİB-nin səkkiz əməkdaşı 5 000 ABŞ dolları məbləğində hədiyyə vermiş və işlər görmüşdür. Bu məbləğ BP ikiqat artırma fondu tərəfindən eyni məbləğlərdə artırılmış və Azərbaycandakı yerli ianə təşkilatlarına verilmişdir.



## Hər xırda şey işə yarayır

2007-ci ildə qış get-gedə sərtləşəndə BP Azərbaycanın iki əməkdaşı - Yekaterina Qolovina və Ramal Quliyev Azərbaycanın məcburi köçkün şəxslərinə (MKŞ) kömək etmək qərarına gəldilər. Bakı Beynəlxalq Rotarakt Klubu ilə birlikdə (hər ikisi həmin klubun üzvləridir) məcburi köçkün şəxslərini qış paltarları ilə təmin etməklə yanaşı, həm də Füzuli rayonunda yenicə tikilmiş məktəbi idman avadanlığı ilə təchiz etmək üçün 2007-ci ilin noyabr/dekabr aylarında bir kampaniya keçirdilər.

Onların səyləri nəticəsində toplanan 10 qutu paltar, Fizuli rayonunun 2000-ə yaxın əhalesi olan Bala Bəhmənli icmasının üzvləri, o cümlədən 1992-93 cü illərdə Dağlıq Qarabağdan didərgin düşmüş məcburi köçkünlər arasında paylanmışdır.

Bu layihəni başa çatdırdıqdan sonra Yekaterina və Ramal paltarları Bakıdan Füzuliyə aparmağa kömək edən Məcid Səmədovla birgə gördükləri işə görə ikiqat artırılan vaxt qrantı verilməsini xahiş etdilər. Bu yolla qazanılan bütün pul sonradan Bakının Nizami rayonunda yerləşən 3 saylı uşaq evinin (eşitmək və danışmaq qabiliyyəti qüsurlu uşaqlar üçün) təmiri üçün xərcləndi.

Əməkdaşların yerli icmalarla işini daha da yaxşılaşdırmaq üçün BP Azərbaycan SİB 2007-ci ildə əməkdaşların iştirak proqramını (ƏİP) həyata keçirməyə başlamaqla vaxta görə vəsaitin ikiqat artırılmasını lokallaşdırmaq qərarını qəbul etdi. ƏTİAF-dan fərqli olaraq ƏİP büdcəsi BP Azərbaycan SİB tərəfindən idarə olunur. Bu proqrama əsasən könüllülər öz iş vaxtlarından kənar saatlarda tanınmış təşkilat və ya icmalarla öz sərbəst vaxtını keçirir və BP Azərbaycandan keçirdiyi vaxtı pulla ikiqat ödəməyi xahiş edir. İl ərzində 38 nəfər əməkdaş səkkiz ƏİP proqramında iştirak edərək icmalarla könüllü olaraq 822 saat keçirmişlər. BP Azərbaycan bu saatların dəyərini ikiqat artıraraq 13 740[a] ABŞ dolları məbləğində töhfə vermişdir.

## Ətraf mühitə sərmayə

**Ətraf mühitə sərmayə proqramı (ƏMSP)**
2007-ci ildə ƏMSP BP-nin idarə etdiyi obyektlərin ətrafında və mövcud olduğumuz bölgələrdə bioloji müxtəlifliyin və ətraf mühitin qorunmasına yönəldilmişdir. Öz tərəfdaşlarımız ilə birlikdə biz bu proqram üzrə 2007-ci il ərzində ümumilikdə 288 500 ABŞ dolları xərcləmişik.

**2007-ci ilin əlamətdar hadisələri**

- **"Yaşıl paket":** Bu il "Yaşıl paket" layihəsinin uğurla başa çatdırılması ilə yaddaqalan olmuşdur - bu, yerli və beynəlxalq tərəfdaşlarla təqribən üç illik sıx fəaliyyətin kulminasiya nöqtəsidir. "Yaşıl paket" məktəbdə çalışan müəllimlərin və 1-ci sinifdən 11-ci sinifədək məktəb şagirdlərinin ətraf mühit barədə biliklərinin genişləndirilməsi məqsədilə tərtib olunmuş bir multimediya, interaktiv tədris vasitəsidir. Bu dəst müəllimlər üçün bir məlumat kitabından, uşaqlar üçün dərslikdən, bir DVD film kolleksiyasından, bir CD-ROM-dan və bir zehni oyundan ibarətdir. Min ədəd dəst nəşr edilərək ölkə məktəblərinə və təhsil mərkəzlərinə pulsuz paylanmışdır. "Yaşıl paket"in tərkibi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilmişdir. Bundan sonra bu dəst rəsmi olaraq milli tədris planına daxil edilmişdir.
  2007-ci ildə 741 müəllim bu paketə daxil olan məsələlərin məktəb şagirdlərinə ən yaxşı yollarla çatdırılması üzrə geniş təlim almışdır. Bu layihə Mərkəzi və Şərqi Avropa üzrə Regional Ətraf Mühit Mərkəzi - RƏMM (Macarıstan) tərəfindən Azərbaycanın "davamlı inkişaf cəmiyyəti uğrunda" (DİCU) qeyri-hökumət təşkilatı ilə əməkdaşlıqda həyata keçirilmişdir. Həmin layihənin ümumi dəyəri 400 000 ABŞ dollarından bir qədər artıq idi ki, bunun da 300 000-i BP və onun BTC/CQBK layihələrindəki tərəfdaşlarının töhfəsi olmuşdur. Məbləğin qalan hissəsi isə ATƏT-in Bakıdakı ofisi tərəfindən təmin olunmuşdur.
- **Ətraf mühit və enerji təşəbbüslərinə dəstək:** Yerli "Ümid" qeyri-hökumət təşkilatı bu proqramı 2007-ci ildə başa çatdırmışdır. İl ərzində bu layihə üzrə enerji, əməyin təhlükəsizliyi və ətraf mühit mövzuları üzrə 13 pilot mikrolayihə yerinə yetirilmişdir. Həmin mikrolayihələrə Azərbaycanda BTC/CQBK marşrutu boyunca 11 icmada günəş enerjisi kollektorlarının, günəş enerjisi ilə işləyən su qızdırıcılarının, bioqaz qurğularının və fotoelektrik cihazlarının quraşdırılması daxil idi.
  Bundan əlavə, "Ümid" icmalarda və məktəblərdə alternativ enerji üzrə təcrübə nümayişləri və məsləhətlər həyata keçirmişdir. Bu QHT məktəb şagirdləri arasında rəsm və məqalə müsabiqələri də keçirmişdir. Həmin layihədən ümumilikdə 10 124 icma üzvü fayda görmüşdür.
- **Tuqay meşələrinin bərpası layihəsi:** BP-nin öndə gedən Tuqay meşələrinin bərpa olunması layihəsi 2007-ci ildə davam etmişdir. Bu layihə aşağıda göstərilən işləri əhatə edirdi: ağacların əkilməsi, meşə gözətçisi evinin inşa olunması və Ağstafa rayonunda 12 hektarlıq torpaq sahəsi üçün suvarma qurğularının quraşdırılması. Bərpa tədbirləri 150 hektarlıq bitişik meşə sahəsini əhatə etmişdir.

**2007-ci ildə digər təşəbbüslər**

- **Bioloji müxtəliflik müsabiqəsi:** 2007-ci ildə biz və tərəfdaşlarımız Azərbaycanda bioloji müxtəliflik üzrə altıncı müsabiqəni təşkil etdik. Müsabiqəyə 44 təşkilat təxminən 80 layihə təqdim etmişdi. "Bioloji müxtəliflik üzrə ən yaxşı layihə" kateqoriyasında 19 120 ABŞ dolları dəyərində əsas mükafat yerli "Ekostil-Azərbaycan" qeyri-hökumət təşkilatına Abşeron yarımadasının nadir və nəsli kəsilməkdə olan bitkilərin toxum bankının yaradılması, eləcə də Azərbaycan Kooperasiya Universitetinin tələbələrinin iştirakı ilə bioloji müxtəliflik barədə maarifləndirmə kampaniyaları aparmaq məqsədi daşıyan layihə üçün verildi. "Ən yaxşı ekoloji məlumatlılıq layihəsi" kateqoriyasında 9 356 ABŞ dolları dəyərində əsas mükafat "Gəncliyin şöləsi" gənclərin inkişafı ictimai birliyi adlı təşkilata aşağıda göstərilən işləri aparmaq təklifləri üçün verilmişdir: ekoloji problemlər və onların həlli yolları barədə Azərbaycanın beş rayonunda rəy sorğusunun keçirilməsi, ekoloji problemlərin həlli üzrə gənclərə təlim keçirilməsi, foto sərgisi və digər fəaliyyətlər. 2007-ci ildə bioloji müxtəliflik müsabiqəsinin əvvəlki qalibləri tərəfindən iki kitab nəşr edilmişdir. Bunlar "Xəzər dənizinin Azərbaycan sektorunda su quşları" və "Abşeron yarımadasının təbiət abidələri" kitablarıdır.
- **BP-nin ətraf mühitin mühafizəsinə rəhbərlik proqramı (ƏMMRP):** Azərbaycan Ornitoloqlar Cəmiyyəti (AOC) imperator qartalı və çöl muymulu quşlarının şəraitinin müəyyənləşdirilməsi üçün BP qrupunun proqramından 24 700 ABŞ dolları dəyərində qrant almışdır. AOC qrupu 2007-ci ildə ƏMMRP çərçivəsində BP tərəfindən paylanmış 502 500 ABŞ dollarını bölüşən 19 ölkədən gəlmiş 26 qrup arasında

[a] Bu, BP Azərbaycan və onun tərəfdaşları tərəfindən qoyulan 7,39 milyon ABŞ dolları məbləğində ictimai sərmayələrə əlavədir.



## Eyvazlılarda gerçəyə çevrilən xəyal

Müntəzəm qaz təchizatına və eləcə də isti su təminatına nail olmaq Azərbaycanın ucqar kənd icmalarında evlərin əksəriyyətinin üz-üzə gəldiyi ən mühüm problemlər sırasındadır. Bu problemlərin həlli yollarından biri günəş enerjisi ilə işləyən su qızdırıcılarının quraşdırılmasıdır.

Ətraf mühit və enerji təşəbbüsləri üçün dəstəyin bir hissəsi olaraq, "Ümid" indiyə qədər 12 ədəd günəş enerjisi ilə işləyən su qızdırıcısını və günəş paneli ilə bir bioqaz qurğusunu Eyvazlılardakı icma fermasında quraşdırmışdır - Eyvazlılar icma ferması bu layihənin həyata keçirilməsi üçün optimal bir məkan olaraq seçilmişdir, çünki bu fermada 50-yə yaxın adam çalışır və təxminən yüz baş mal-qara var.

Bu layihənin sayəsində Eyvazlılardakı ferma işçiləri indi sahədə keçirdikləri ağır iş günündən sonra isti duş qəbul edə bilir və ekoloji baxımdan əlverişli olan "BİOqazdan" istifadə edərək xörək bişirə bilirlər. Bu icmanın (icma Goranboy rayonunda yerləşir) üzvlərindən biri Yəhya Məmmədov belə deyir: "Əvvəllər isti su əldə etmək üçün elektrikdən və ya odundan istifadə etməli olurduq ki, bu da enerji üçün böyük xərclərin ödənilməsi ilə nəticələnirdi. Bu layihə bir uğurdur, belə ki, bizə yerli şəraitdə əldə edilməsi baha olmayan ehtiyatlardan yaranan alternativ enerjidən istifadə etmək imkanı verir".

olmuşdur. Bu proqramın əsas məqsədi bioloji müxtəlifliyin təşviq olunması və dünyanın hər yerində ətraf mühitin qorunması üzrə gənc mütəxəssislərin yetişdirilməsidir. BP ƏMMRP-ni "Bördlayf İnternəşnl", "Fauna and Flora İnternəşnl", "Konserveyşn İnternəşnl", "Vayldlayf Konserveyşn Sosayeti" təşkilatları ilə tərəfdaşlıqda həyata keçirir.

## Mədəni irsin qorunması

BTC marşrutu üzrə qazıntılar zamanı aşkar edilmiş maddi mədəniyyət abidələrinin işlənilməsi üçün təhlillər aparılması, hesabatlar hazırlanması və abidələrin mühafizə olunması istiqamətində 2007-ci il boyunca işlər davam etmişdir.

**2007-ci ilin əlamətdar hadisələri**

Azərbaycan Arxeologiya və Etnoqrafiya İnstitutunun (AEİ) imkanlarının genişləndirilməsi üçün BP Azərbaycan şirkəti və onun tərəfdaşları 2006-cı ildə BTC tapıntılarının mühafizə olunması proqramına (URS Korporeyşn Ltd. tərəfindən həyata keçirilmişdir) başladılar. Həmin proqramın məqsədlərinə aşağıdakılar daxildir: (1) BTC-nin tikintisi ilə əlaqədar aparılan qazıntılar dövründə aşkar edilmiş tapıntıların təmizlənməsi və sabitləşdirilməsi; (2) AEİ üçün mühafizə laboratoriyasının yaradılması; və (3) arxeoloji tapıntıların mühafizəsinin əsas metodları, qaydaları və eləcə də etik aspektləri üzrə AEİ-nun heyətinə təlim keçirilməsi.

2007-ci ildə AEİ URS ilə birgə Azərbaycanda BTC/CQBK marşrutu boyunca aşkar edilmiş maddi-mədəniyyət abidələri ilə bağlı hesabatların hazırlanması, abidələrin daşınması və laboratoriya işlərinin aparılması üzrə birgə işlədilər. 2007-ci ildə AEİ üçün bir mühafizə laboratoriyası yaradıldı. BTC/CQBK-nin tikintisi zamanı qazılıb çıxarılmış 21 arxeoloji material xüsusi mühafizə təmizləməsindən keçirildi. Abidələrin mühafizəsi üzrə bir amerikalı mütəxəssis hər ay AEİ-nin əməkdaşlarına arxeoloji tapıntıların mühafizəsinin əsas metodları, qaydaları və eləcə də etik aspektləri üzrə iş üstündə təlim keçdi. AEİ-nin beş arxeoloqu 27 saat təlimdə iştirak etdi.

İl ərzində öz adımızdan və tərəfdaşlarımız adından Qobustan Dövlət Tarixi İncəsənət Qoruğu (QDTİQ) ilə QDTİQ-nin dörd nəfər bələdçisi üçün BP-nin idarə etdiyi Xəzər Enerji Mərkəzində internatura təlimi keçmək barədə bir anlaşma memorandumu imzaladıq. İnternatura 2007-ci ilin dekabrında başlandı. Bu internatura təlimləri ərzində bələdçilər məktəblilər üçün interaktiv təqdimatların hazırlanmasını, qonaqlar üçün xidmət qaydalarını öyrəndilər və QDTİQ-yə məktəblilərin səfərləri üçün informasiya bukleti hazırladılar.

Xəzər Enerji Mərkəzində arxeoloji sərginin yaradılması üzrə işə 2007-ci ildə başlanıb və bu sərginin 2008-ci ilin sonunda açılması planlaşdırılır.

2007-ci ilin sonuna yaxın biz öz adımızdan və tərəfdaşlarımız adından iri bir mədəni irs proqramını həyata keçirmək üçün ABŞ-da yerləşən Smitsonian İnstitutu ilə qrant sazişini işləyib hazırladıq və 2008-ci ilin fevralında onu imzaladıq. Smitsonian İnstitutu Qobustan Milli Dövlət Qoruğu, AEİ və Gürcüstan Milli Muzeyi üçün bacarıq və qabiliyyətlərin yaradılması, eləcə də BTC/CQBK-nin tikintisi zamanı aşkar edilmiş arxeoloji tapıntıların ictimai təbliğini əhatə edəcək işə başlamışdır.

## 2.2 Gəlirlərin şəffaflığı

**Biz 2007-ci ildə gəlirlərin daha böyük şəffaflığını təmin etmək üçün hökumətlə, vətəndaş cəmiyyəti ilə və mədən sənayesi şirkətləri ilə əməkdaşlıq etdik. Bizdə eləcə də bütün fəaliyyətimiz ərzində vergilər üzrə ən böyük audit keçirildi.**

Şəffaflıq və yaxşı idarəetmə BP qrupunun dəyərlərini və qarşılıqlı faydalar yaratmaq barədə öhdəliklərini ifadə edir və karbohidrogenlərin işlənməsindən əldə edilən sərvətin səmərəli şəkildə və geniş əhatəli mənfəət üçün istifadə olunmasına təminat verir.

Biz mədən sənayesi tərəfindən hökumətə ödənilmiş gəlirlərin şəffaflığını təşviq etmək məqsədi ilə tərtib olunmuş beynəlxalq təşəbbüsləri dəstəkləyirik. Bu illər ərzində biz könüllü, konsensus yaradan yanaşmaya ardıcıl olaraq dəstəyimizi ifadə etmişik və inanırıq ki, bizim kömək göstərə biləcəyimiz çox sayda sahələr mövcuddur.

2007-ci ildə biz Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və yerli və beynəlxalq qeyri-hökumət təşkilatları (QHT) koalisiyası ilə Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün (MSŞT) tətbiqi üzrə əməkdaşlığı davam etdirmişik. Oktyabr ayında biz 2007-ci ilin yanvar-iyun aylarını əhatə edən 7-ci MSŞT hesabatımızı müstəqil məsləhət təşkilatlarına təqdim etmişik. Dekabr ayında mədən sənayesi şirkətlərinin ümumiləşdirilmiş hesabatları ARDNF-nin internet səhifəsində yerləşdirilmişdir.

Biz bu nəşrdə özümüzün yalnız BP-yə aid olan MSŞT məlumatlarımızı, o cümlədən əvvəlki hesabatlarımızın yekununu əks etdirən cədvəli ictimaiyyət üçün açıqlamaqda davam edirik. 2007-ci təqvim ilinin məlumatlarını əhatə edən 8-ci MSŞT hesabatımızla bu hesabatın 61 səhifəsində tanış olmaq mümkündür.

Azərbaycanın MSŞT-dəki səyləri sentyabr ayında öz qiymətini almışdır, MSŞT-yə namizəd olmaq üçün Azərbaycan 15 ölkə arasında olmuşdur. Bu təqdimat hökumətin yenidən qurulması mövzusunda 7-ci ümumdünya forumu zamanı olmuşdur. Azərbaycanın MSŞT-ni tətbiq etməsi prosesi təsdiq olunduqdan sonra o, MSŞT-in tələblərinə riayət edən hesab olunacaqdır.

Bütün il boyu ARDNF-ə Azərbaycan iqtisadiyyatının makroiqtisadi modelinin işlənib hazırlanmasında gördüyü işlərə, ARDNF daxilində və işçi qrupunda (ARDNF-nin, İqtisadi İnkişaf Nazirliyinin, Maliyyə Nazirliyinin, Azərbaycan Milli Bankının və Prezident Aparatının mütəxəssislərindən təşkil olunub) səriştə və bacarıqların aşılanmasını dəstəkləməkdə davam etmişik. 2007-ci ildə bu layihənin ikinci mərhələsi həmin modelin əlavə məlumatlarla təkmilləşdirilməsi və Azərbaycan iqtisadiyyatı üçün nadir olan müxtəlif ssenarilər üzrə variantların tərtib olunması üzərində cəmləşdirilmişdir.

Buna oxşar təşəbbüs üzrə 2007-ci ildə BP qrupunun iqtisadçıları İqtisadi İnkişaf Nazirliyi ilə dialoq aparmışlar, dialoqun mövzusu bu nazirliyin makroiqtisadi siyasət işləyib-hazırlamaq bacarıqlarının yaradılması və Azərbaycanda iqtisadi araşdırma aparan və bacarıqlar yaradan aparıcı qurumlarla əlaqələrin genişləndirilməsi olmuşdur.

2007-ci ildə Azərbaycanın şəffaflıq təşəbbüsü daha geniş dairədə etiraf olunmağa başlamışdır. İyun ayında ARDNF BMT-nin "ictimai xidmətlərdə şəffaflığın, məsuliyyətin və cavabdehliyin yaxşılaşdırılması" kateqoriyası üzrə ictimai xidmətlər mükafatına layiq görülmüşdür. Dövlət Neft Fondu keçmiş şərq blokundan / MDB-dən bu mükafata layiq görülmüş ilk hökumət qurumudur.

Digər təşəbbüslər üzrə HPBS gəlirləri və vergi strukturu barədə jurnalistlər və MSŞT üzrə QHT koalisiyası üzvləri üçün təqdimat keçirmişik ki, onların HPBS çərçivəsində gəlirlərin bölünməsinin necə işləməsi barədə məlumatlılığı və anlayışları artsın.

2007-ci ildə öz tariximizdə vergilər üzrə ən böyük, Azərbaycanda isə indiyə qədər ən iri audit keçirildi. Şirkətimizin vergi qrupu buna altı çətin ay sərf etdi və 2004-cü ildən 2006-cı ilə qədər müxtəlif layihələrə sərf etdiyimiz səkkiz milyard dollardan artıq xərc yenidən nəzərdən keçirildi.

# 2.3 Yerli ehtiyatların inkişaf etdirilməsi

**2007-ci ildə Azərbaycanda yerli ehtiyatların inkişaf etdirilməsini təşviq etmək üçün öz səylərimizi artırdıq.**

İki əsas çətinlik 2007-ci ildə Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi səylərimizlə ziddiyyət təşkil edib - yerli bazar şəraiti ilə BP-nin mütərəqqi texnologiyaları tətbiq etmək arzusu arasında uyğunsuzluq; eləcə də BP-nin yerli ehtiyatlardan istifadə planının ölkənin iqtisadi yüksəlişi ilə bir araya gətirilməsinə ehtiyacın artması.

Bu istiqamətdə biz BP və onun Azərbaycandakı tərəfdaşlarının həyata keçirməkdə olduqları layihələr üçün yerli ehtiyatların inkişaf etdirilməsinə yardım göstərmək məqsədi ilə Biznes İnkişaf Mərkəzi (BİM) vasitəsilə yeni təşəbbüslər həyata keçirmişik. BİM öz diqqətini tədarük və təchizatın idarə edilməsi (TTŞİ) üzrə müqavilə sahibləri və Regional İnkişaf Təşəbbüsü (RİT) qrupu ilə işləyərək sektor strategiyasının inkişaf etdirilməsi üzərinə cəmləşdirmişdir.

Bu strategiya yerli şirkətlər üçün onların öz səriştələrinə və BP-nin Azərbaycandakı biznes ehtiyaclarına əsaslanan müqavilə imkanlarının müəyyənləşdirilməsini ehtiva edir. BİM-in işçi heyəti səciyyəvi texniki tələblərimizi və tələbat profillərimizi çəkilən xərclərin hər bir prioritet sektoru üzrə qiymətləndirir. Bu işin görülməsi ilə BP-nin Azərbaycandakı təchizatçı şəbəkəsi üçün yeni potensial iştirakçıların müəyyənləşdirilməsinə və öz ehtiyaclarımıza uyğun gələn spesifik biznes inkişafı planlarının tərtib olunmasına yardım etmək mümkün olmuşdur. Bu strategiyanı işləyib hazırlayarkən BİM həmçinin yerli ehtiyatların davamlı olaraq inkişaf etdirilməsi üzrə yeni yanaşma metodunun daha uzunmüddətli



## İlin gənc sahibkarı

Eyvaz Mirzəyevin 28 yaşı var, region üçün sənaye təchizatı, elektrik təchizatı və xidmətlərin təmin edilməsi üzrə ixtisaslaşmış "Münasib" Sənaye Təchizat (MST) Ltd şirkətinin sahibi və rəhbəridir. O, öz karyerasına 1996-cı ildə bir neft və qaz xidməti şirkətinə işə qəbul olunmaqla Azərbaycanın enerji sektorunda başlamışdır. Bu biznesdə altı ildən artıq çalışandan sonra müəssisənin özünə məxsus filialını yaratmaq qərarına gəlmiş və 2004-cü ildə Bakıda şirkət təsis etmişdir.

Həmin dinamik inkişafla müşayiət olunan ilk ildən sonra Eyvaz MST-nin təchizat şəbəkəsini Gürcüstana və Qazaxıstana qədər genişləndirdi. Eyni zamanda, o Böyük Britaniyadakı, Norveçdəki və ABŞ-dakı nüfuzlu təchizatçılarla mühüm distribüterlik sazişləri imzalayaraq güclü biznes əlaqələri yaratdı.

Eyvaz inanır ki, "İlin gənc sahibkarı" adına layiq görülməsi MST-nin artan nüfuzunu gücləndirəcək. O deyir: "Ən yaxşı biznes mükafatı Azərbaycanın daxilində və xaricində öz biznesimizi daha da inkişaf etdirmək üçün bizə stimul verir. Bu, bizim etibarlılığımıza beynəlxalq inamı artıracaq".

Ceyhun İmanovun (2006-cı ilin gənc sahibkarı olub) JİS studiyası "quş qripi" ilə bağlı plakatların və SİB-də yaymaq məqsədilə nəşr edilmiş bukletlərin bədii tərtibatına görə 2007-ci ildə BP qrupunun ticarət markası mərkəzinin akkreditə olunmuş qurumu statusuna layiq görülmüşdür.

nəticələrini nəzərə almışdır.

Buna paralel olaraq, tədarük prosesini kiçik yerli firmalar üçün daha da asanlaşdırmaq məqsədi ilə tədarük prosesinin hər bir mərhələsinə dəyişiklik etmişik ki, yerli firmalar beynəlxalq təchizatçılarla rəqabət apara bilsinlər. Bu dəyişikliklər müqavilə iş həcmlərinin daha idarə oluna bilən fəaliyyətlərə bölünməsini, bütün sektorlar boyunca yerli ehtiyatlardan istifadənin qiymətləndirilməsi meyarlarının məcburi tətbiqini, eləcə də kvalifikasiyadan öncə və tender şərtlərinə baxış keçirilməsini, xarici podratçıların yerli ehtiyatlar barədə götürdükləri öhdəliklərin qiymətləndirilməsini əhatə edir. BİM TTŞİ müqavilə sahibləri ilə işləyir ki, yerli ehtiyatlardan istifadə tələblərinin müvafiq qaydada tətbiqi təmin edilsin.

Bu hesabatın regionun inkişaf etdirilməsi bölməsində qeyd olunduğu kimi, 2006-cı ildə həyata keçirilməyə başlanmış sahibkarlığın inkişafı və təlim proqramında (SİTP) da irəliləyişlər olmuşdur. SİTP yerli biznesin inkişafına kömək göstərmək üçün dəyəri milyon dollarla olan üçillik bir təşəbbüsdür. Bu proqramın idarə olunması və xüsusi olaraq BP-nin biznes hədəfləri ilə Azərbaycanda yerli ehtiyatların inkişaf etdirilməsi arasında möhkəm əlaqənin təmin edilməsi üçün BİM başlıca rol oynayır.

BP həmçinin sahibkarlıqla əlaqəli müəssisələrdə əməkdaşlığın potensial yollarını aramaq üçün Azərbaycanın hökumət idarələri və təşkilatları ilə də müzakirələr aparmışdır.

**Bizim Azərbaycandakı xərclərimiz:** 2007-ci ildə BP və tərəfdaşları ölkə daxilində ümumilikdə 1 milyard 495 milyon ABŞ dolları məbləğində vəsait xərcləmişlər (əməliyyatlar və layihələr üzrə). Bu xərclər belə bölünür: kiçik və orta

**2007-ci il üzrə "Ən yaxşı biznes" mükafatının qalibləri**

| Mükafatın kateqoriyası | Qalib |
|---|---|
| "Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit üzrə iş icrası" mükafatı | Xəzər Qazma Şirkəti (XQŞ) |
| "İlin gənc sahibkarı" | Eyvaz Mirzəyev |
| "İlin işəgötürən şirkəti" | ITS sınaq xidmətləri |
| "İlin şirkəti" | Enkotek |
| "İlin icma sahibkarı" | İcma əsaslı biznes təşkilatı, İnsan İnkişafı və Davamlı Gəlirlər İctimai Birliyi |



**Yerli öhdəliklərin artması**

Səkkiz yerli şirkət 2007-ci ildə tenderdə qalib gələrək Azərbaycanda BP ilə yeni uzunmüddətli müqavilələri bağlamışdır:

- Dalğıc
- Azərtunelsutikinti
- Rapid Solutions
- Debet
- ABTC
- English Services Direct
- EKOL
- ARDNŞ ekologiya bölməsi



## İlin şirkəti

"Enkotek" 2000-ci ildə təsis olunmuşdur. Aradan yeddi il keçəndən sonra o, müxtəlif ixtisas sahələrini əhatə edən bir şirkətə çevrilərək, Azərbaycanın neft və qaz sənayesi üçün tikinti, quraşdırma və istismar işləri üzrə layihə-mühəndislik, layihənin idarə olunması və nəzarət xidmətləri göstərir.

Hazırda bu şirkətin səriştəsi karbohidrogen sektorundan xeyli kənara çıxaraq, mülki-mühəndislik və digər mühəndislik sahələrini əhatə edir. Misal üçün, "Enkotek" Azəri-Çıraq-Günəşli (AÇG) yataqlarının işlənməsini, Şahdəniz yatağının işlənməsini, eləcə də, Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz Boru kəməri obyektlərini dəstəkləmək üçün kiçik həcmli texniki mühəndislik işləri, modifikasiya və dizayn xidmətlərini təmin edir.

Biznes ictimaiyyəti arasında "Enkotek" öz çevikliyinə görə yaxşı tanınan bir şirkətə çevrilmişdir və çoxlu sayda kiçik layihələri səmərəli şəkildə həyata keçirə bilmək imkanına malik olması ilə fəxr edir. 2007-ci ildə münsiflər heyəti bu şirkətin öz mühəndis-layihə işlərini uğurla və yüksək keyfiyyətlə yerinə yetirməsində göstərdiyi ardıcıllığı xüsusi qeyd etmişdir. Onun öz işçilərinə davamlı olaraq təlim verməsi də bəyənilmişdir.

"Enkotek" şirkətinin meneceri Faiq Rzayev deyir: "Biz "İlin şirkəti" mükafatına layiq görülməyimizdən qürur duyuruq. Bizim üçün bu mükafat daha gərgin işləməyimiz üçün güclü bir stimul rolunu oynayır".

müəssisələrlə 111 milyon ABŞ dolları (2006-cı illə müqayisədə 44% artıq); dövlət müəssisələr ilə 43 milyon ABŞ dolları (28% az); birgə müəssisələrlə 450 milyon ABŞ dolları (13% az), dolayı yolla Azərbaycanda çalışan xarici təchizatçılar vasitəsilə yerli xərcin məbləği 891 milyon ABŞ dolları (8% artıq).

**Yerli təchizatçılar vasitəsi ilə ölkə daxilindəki davamlı xərclərimiz** (yalnız əməliyyat xərclərimiz, başqa sözlə, daha uzunmüddətli xərcimiz) 2007-ci ildə ümumilikdə 953 milyon ABŞ dolları olmuşdur ki, bu da 2006-cı illə müqayisədə 4% çoxdur. Buraya daxildir: kiçik və orta müəssisələr vasitəsilə birbaşa xərclənmiş 102 milyon ABŞ dolları (2006-cı illə müqayisədə 51% artıq); dövlət müəssisələri vasitəsilə xərclənmiş 21 milyon ABŞ dolları (2006-cı illə müqayisədə 40% az); birgə müəssisələr vasitəsilə xərclənmiş 320 milyon ABŞ dolları (2006-cı illə müqayisədə 8% az); dolayı şəkildə xərclənmiş 511 milyon ABŞ dolları (2006-cı illə müqayisədə 14% artıq).

İllər üzrə xərclərin göstəricilərindəki dəyişikliklər layihələr tikinti mərhələsindən istismar əməliyyatları mərhələsinə keçdikcə Azərbaycandakı biznesimizin təkamül edən təbiətini əks etdirir. Hazırda biz öz səylərimizi kiçik və orta müəssisələrin inkişaf etdirilməsi üzərində cəmləşdiririk.

Ümumilikdə, BP və tərəfdaşları 2007-ci ildə 2 637 şirkət ilə iş görmüşdür. Həmin şirkətlərdən 472-si (17,9%-i) yerli təchizatçılar olmuşdur. 2007-ci ildə Biznes İnkişaf Mərkəzində 161 yerli təşkilat, o cümlədən 67 yerli kiçik və orta müəssisə təlim keçmişdir.

İl ərzində biz ikinci "Ən yaxşı biznes mükafatı" müsabiqəsinin qaliblərinin adlarını elan etdik. Bu, hər il həyata keçirilən bir təşəbbüsdür, BP öz podratçılarını Azərbaycanın iqtisadi inkişafına verdikləri töhfələrə görə qiymətləndirir.

Biz inanırıq ki, Azərbaycanda yerli ehtiyatları inkişaf etdirmək təşəbbüsümüz bu ölkənin davamlı inkişafına yardım edəcək.

## 2.4 Təhsil təşəbbüsləri

**Azərbaycandakı təhsil təşəbbüslərimiz enerji sənayesi barədə biliklərin genişləndirilməsini, yerli işçi qüvvəsinin bacarıq və səriştələrinin təkmilləşdirilməsini, biznes təlimlərinin və qabaqcıl təcrübənin təşviq olunmasını nəzərdə tutur.**

2007-ci ildə Azərbaycanda bir sıra təhsil təşəbbüsləri həyata keçirdik:

**Xəzər Enerji Mərkəzi (XEM)** Bu Mərkəz 2007-ci ildə də diqqət mərkəzində olmaqda davam etmişdir, il ərzində 8 478 qonaq, o cümlədən 5 855 uşaq buraya səfər etmişdir. BP və tərəfdaşları XEM-in saxlanması üçün 2007-ci ildə 1,039 milyon ABŞ dolları xərcləmişlər.

Bir neçə yeni layihə həyata keçirilmişdir. Mart ayında "Enerji bizim həyatımızda" adlı elmi seminarı Böyük Britaniyada yerləşən "Ze Floting Point Sayns Teatr" və "Ze Kreativ Sayns Konsaltənsi Ltd" mütəxəssisinin nəzarəti ilə "Britiş Kaunsl" təşkilatı təşkil etmişdi. Bu tədbirdə dörd məktəbi və "Qızıldaş" uşaq evini təmsil edən 200-dən artıq uşaq iştirak etdi.

XEM həmçinin orta məktəb şagirdləri üçün enerji barədə məlumat xarakterli maarifləndirmə dəstini də nəşr etmişdir. Bu dəstin yerli məktəblərə paylanmasına 2007-ci ilin noyabr ayında başlanmışdır.

Azərbaycan üzrə 3-cü "Leqo" robotlar yarışmasında qalib gəldikdən sonra Lökbatan-XEM komandası Briminqhəm universitetində Böyük Britaniya üzrə robotlar yarışmasının finalında iştirak etmək üçün 2007-ci ilin yanvarında Böyük Britaniyada səfərdə oldu. Bu komanda 28 komanda arasında 5-ci yeri tutdu. XEM təlimə və yerli məktəblər üçün Azərbaycan üzrə 4-cü milli "Leqo" robotları yarışmasına sponsorluq etməklə 2007-ci ildə öz dəstəyini davam etdirmişdir.

**Məktəblərdə iqtisadi və biznes təhsili proqramı** İyun ayında BP və tərəfdaşları "Cunior Açivment Azərbaycan" təşkilatı üçün yeni bir qrant ayırmağa razılıq verdilər. Bu qrant AGN-ə öz fəaliyyətlərini genişləndirməyə imkan yaradacaq və Xətai, Səbail və Qaradağ rayonlarının 15 məktəbində şagirdləri və müəllimləri iqtisadi və biznes təhsili və təlimi ilə təmin edəcək. Bu layihə 49-cü səhifədə təsvir olunmuş iqtisadi imkanlar proqramının bir tərkib hissəsidir.

**İcmalar üçün iqtisadi maarifləndirmə proqramı** Bu proqram əsasən BP və tərəfdaşlarının dəstəyi ilə yaradılmış MMC nümayəndələrinə, yerli iş adamlarına və öz kommersiya bacarıqlarını, bazar iqtisadiyyatı, biznes etikası barədə biliklərini gücləndirmək və yəqin ki, öz şəxsi biznesinə başlamaq istəyən icma üzvləri üçün iqtisadi və biznes təlimləri təşkil edir. Bu proqram AGN tərəfindən Yevlaxda, Samuxda, Ağstafada, Ucarda, Kürdəmirdə və Ağdaşda yerləşən doqquz icma mərkəzində həyata keçirilir. 2007-ci ildə 42 iş adamı dəstək almışdır və bu proqram üzrə 133 000 ABŞ dolları xərclənmişdir.



**Gənclərin məşğulluğu və iqtisadi imkanların genişləndirilməsi təşəbbüsü** Bu layihə 2007-ci ildən həyata keçirilməyə başlanmışdır, yerli "Ümid" təşkilatı tərəfindən icra edilir və usta yanında şagird proqramlarını gənclər üçün müəyyənləşdirilən ehtiyaclara görə uyğunlaşdırmaq məqsədi ilə tərtib olunmuşdur. Bu layihə həm də iqtisadi imkanlar yaradılması proqramının bir hissəsidir (səhifə 49).

**Məktəbin əlaqələndirilməsi və qlobal vətəndaşlıq proqramı** İnformasiya və Rabitə Texnologiyasının (İRT) yayılmasına dəstəyimizi BTC/CQBK, QİBK marşrutu boyunca yerləşən kənd məktəblərində və eləcə də seçilmiş təhsil ocaqlarında təlim keçməklə davam etdiririk. 2007-ci ildə bu proqram üzrə BP və tətəfdaşları 147 000 ABŞ dolları məbləğində vəsait xərcləmişlər. Avqust ayında imzalanmış ayrıca bir müqavilə bu layihəni Səngəçal terminalı ətrafındakı, Bakı dəhlizinin Zığ və Bayılda yerləşən 15 məktəbi əhatə etmək üçün genişləndirmişdir. 2007-ci ilin qalan müddətində yeni layihə üzrə təxminən 100 000 ABŞ dolları məbləğində xərclənmişdir.

**Kənd yerlərində geniş əhatəli təhsil proqramı (KGƏTP)** Bu il ərzində xüsusi ehtiyacı olan çoxlu sayda uşağa KGƏTP



## İcmanın iqtisadi maarifləndirilməsi proqramının təsiri necə olmuşdur

Qorxmaz Əbdülrəhimov icmanın iqtisadi maarifləndirilməsi proqramının regional təlimatçılarından biri olaraq bu proqrama 2007-ci ilin mart ayında qoşulmuşdur və faktiki təlimatçı fəaliyyətinə başlamazdan əvvəl təlimatçılar üçün kursda ayrıca təlim keçmişdir. "Öz əsas biznes səriştələrimin təkmilləşəcəyinə və eləcə də, qazandığım hər hansı biliyi öz şirkətimin heyətinə ötürə biləcəyimə inanırdım". BP və tərəfdaşlarının son illərdə sponsorluq etdikləri içməli su layihələrinin nəticəsi olaraq yaranmış doqquz biznesdən biri Qorxmazındır. O, kənd icmalarında almağa hamının imkanı çatan içməli su satır. Lakin bazar strategiyasının aydın olmaması ucbatından "Kəhriz-L" adlanan bu şirkət satış həcmləri aşağı olduğuna görə zəifləmişdi.

Qorxmaz və onun həmkarı, tezliklə öz şəxsi şirkətindən ona qoşulan bəzi şəxslər, Ağdaşın Orta Ləki kəndinin bu işə aidiyyatı olan xeyli sakini bu kursun əsas məramlarını mənimsəməyə başladılar. "Biz tezliklə bir sıra bazar araşdırmaları vərdişlərinə yiyələndik, bu vərdişlərlə öz şirkətimizin məhsullarına olan tələbləri təhlil etdik. Bu, bizi öz məhsullarımızın tanıdılması barədə dərindən düşünməyə vadar edir. Üç aylıq kursun sonuna yaxın biznes planımızı necə yazmağı öyrəndik. Kursun sonuna qədər artıq öz biznesimiz və onu necə idarə etmək barədə tam təsəvvürümüz var idi".

"Kəhriz-L" şirkətinin kəskin şəkildə böyüməsi ilə nəticələr çox möhtəşəm oldu, şirkət qonşu kəndlərdən yeni müştərilərin diqqətini cəlb etdi və cəmi beş ayın içində su satışının həcmini 12 dəfə artıraraq 72 tona çatdırdı. Bu şirkət həmçinin bir türk firması ilə də işləməyə başladı, həmin firmanın ofislərinə və sahələrinə su çatdırdı.

Qorxmaz irəli baxaraq icmanın iqtisadi mövzuda maarifləndirilməsi proqramı təlimlərində iştirakını davam etdirməyi nəzərdə tutur. "Cəmiyyətimizin inkişaf etdirilməsində biznes savadı həyati əhəmiyyət daşıyır," - o, deyir. - "Bir menecer olaraq mən əlavə kapital cəlb etməklə öz biznesimi genişləndirməyi planlaşdırıram."



## BP-nin uğur qazanmış təqaüdçüsü

Məlum oldu ki, Böyük Britaniyada magistratura təhsili almaq üçün seçilmiş ilk adamlardan biri Çingiz Orucov BP-də işləyir. Həmin vaxt o, BP Azərbaycan şirkətinin ictimai sərmayə proqramı qrupunda BP-nin iqtisadi inkişaf və aqrar biznes məsələləri üzrə məsləhətçisi idi.

Çingiz BP ilə 2006-cı ildən əlaqədədir. Əvvəllər "Petrofak" (neft inşaatı şirkətidir) üçün ictimaiyyətlə əlaqələr üzrə məsul şəxs və Yevlax rayonunda "Sikor" (neft dağılmalarına qarşı cavab tədbiri görən şirkətdir) üçün ölkə üzrə direktor müavini kimi çalışmışdır. "Mənim sahə səfərlərinə və qarşılıqlı üzbəüz ünsiyyətə bağlılığım buradan gəlir", - o deyir.

Təhsilinə görə iqtisadçı olan Çingiz Azərbaycan Dövlət İqtisad Universitetini bitirmiş və keçid dövrü iqtisadi siyasəti və ətraf mühit dəyişməsinin iqtisadiyyata təsiri kimi sahələr üzrə ixtisaslaşmaq qərarına gəlmişdi. BP-nin təqaüd proqramı onun üçün yaxşı bir imkan oldu.

2007-ci ilin payızında o, York Universitetində təhsil alan ilk azərbaycanlı tələbə olmaq üçün Böyük Britaniyaya yola düşdü. Çingiz Bakıya qayıtmağı və diqqətini inkişaf məsələləri üzərində cəmləşdirməyi planlaşdırır.

"Biz (Azərbaycanın 25-35 yaşlar arasında olan nəsil) o nəsilik ki, Azərbaycanın çiçəklənməsini və ya "neft lənəti" adlandırılan bəlaya düşəcəyini müəyyənləşdirəcəkdir", - deyə o qeyd edir. "Ümidvaram ki, BP-nin təqaüd proqramları gələcəkdə ölkənin hər yerində daha böyük layihələrdə gözəl bir nümünə və metodologiya üçün yaxşı bir mənbə olacaq".

vasitəsi ilə (bu proqramı Beynəlxalq Tibb Korpusu təşkilatı həyata keçirir) kömək göstərilmişdir və 12 nəfər ümumi siniflərə daxil edilmişdir. On iki nəfər müəllim uşaq üzərində cəmləşdirilən tədris metodları üzrə təlim keçmişdir. Hamını əhatə edən təhsil barədə öyrədici material işlənib hazırlanaraq Bakı, Sumqayıt, Mingəçevir və Yevlaxda yayılmışdır.

**BP Azərbaycan şirkətinin təqaüdləri** Biz Azərbaycanda bütövlüklə və ya qismən üç təqaüd layihəsinə yardım göstərmişik:

- **Təhsil üçün təqaüd proqramı:** Bu yeni təşəbbüs Azərbaycanda tələbələrin neft və qazla əlaqəli araşdırmalar aparmağa maraqlandırılmasına kömək edir. 2007-ci ildə universitetlərdən neft-qaz mühəndisliyi və geologiya ixtisaslarına yiyələnən 50 tələbənin və "Azərbaycan Gənc Mütəxəssislərin İnkişafı" cəmiyyətindən 15 tələbənin hər birinə təhsillərinin dəstəklənməsi üçün 1 000 ABŞ dolları məbləğində birdəfəlik təqaüdlər verilmişdir.
- **Azərbaycanda neft və qaz ixtisasları üzrə təqaüd proqramı:** Bu proqram Azərbaycanlı tələbələrə ABŞ, Böyük Britaniya, Türkiyə, Rusiya və Azərbaycan universitetlərində mühəndislik və geoloji elmlər üzrə bakalavr və magistratura təhsili almağa imkan yaradır. 2007-ci ildə 90 nəfər bakalavr və 11 nəfər magistr təhsili alan tələbəyə dəstək verilmişdir.
- **Magistratura proqramı:** Bu təşəbbüs Azərbaycan mütəxəssislərinə Böyük Britaniyada müasir təhsil almağa imkan yaradır. 2007/08-ci tədris ilində aparıcı Britaniya universitetlərində biznes magistri, ictimai idarəetmə üzrə magistr və ya elmlər magistri kurslarında təhsil almaq üçün ərizə vermiş 71 namizəd arasından səkkiz təqaüdçü seçilmişdir.

**Təhsil üzrə digər fəaliyyətlər** Azərbaycan-Böyük Britaniya Məzunlar Assosiasiyasına (ABBMA) dəstəyimizi davam etdirmişik. Bu, Böyük Britaniyada təhsil almış gənc mütəxəssislər şəbəkəsidir və öz üzvlərinə peşə ixtisasının inkişaf etdirilməsində kömək edir. Daha bir təşəbbüs jurnalistlər üçün təlim keçilməsini əhatə edir. Biznes jurnalistikası kursu kimi tanınan bu layihəni BP, "Britiş Kaunsl" və "Tomson" Fondu idarə edir və layihə özündən əvvəlki proqramlara əsaslanır. Yerli media təşkilatlarında işləyən on iki nəfər jurnalist 2007-ci ildə bu proqramda iştirak etmişdir.

2007-ci ilin sonunda biz iki yeni təhsil layihəsinin planlaşdırılmasını başa çatdırdıq. Onlardan birincisi Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ilə əməkdaşlıqda həyata keçiriləcək. 2008-ci ilin əvvəlində BP-nin Azərbaycan ofisi və AMEA-nın imzaladıqları anlaşma memorandumuna əsasən şirkət AMEA-ya akademik səriştələrin və biliklərin yaradılması üçün kömək edəcək. Bu layihənin məqsədi geoloq alimlərin gələcək nəsillərini dəstəkləməkdir və yataqların modelləşdirilməsi, akademiyada neft və qaz geologiyası üzrə magistratura təhsilinin başlamasının məqsədəuyğunluğunun təhlili daxil olmaqla, çoxlu işlər vasitəsi ilə həyata keçiriləcək.

BP-"Britiş Kaunsl" interaktiv tədris layihəsi adlanan ikinci layihə 2008-ci ilin aprelində başlanmışdır və məqsədi üç fənn - fizika, kimya və biologiya üzrə fəal öyrətmə və öyrənmə üsullarından istifadəyə stimul yaradan müəllimlərin sınaqdan keçirilmiş təlimləndirilməsi modelini təqdim etməkdir.

# 2.5 Fəsil 2 üzrə əsas statistik göstəricilər

## Regional inkişaf təşəbbüsü

- Azərbaycanda RİT layihələrinə çəkilən xərclər 2007-ci ildə 3,7 milyon ABŞ dolları olmuşdur.
- Yerli ehtiyatlardan istifadəni gücləndirmək üçün sahibkarlığın inkişafı və təlim proqramlarına ayrılmış vəsait 5,2 milyon ABŞ dolları təşkil etmişdir.
- Azərbaycanın qərb rayonlarında mikromaliyyələşdirmədən istifadəni genişləndirmək məqsədi ilə BMK ilə bir milyon dollarlıq müqavilə imzalandı.

## İctimai sərmayə proqramı

- Biz 2007-ci ildə tərəfdaşlarımızla birlikdə Azərbaycanda müxtəlif ictimai sərmayə layihələrinə 2,7 milyon ABŞ dolları məbləğində vəsait xərclədik.
- Biz və tərəfdaşlarımız əhalinin ətraf mühit haqqında məlumatlılıq səviyyəsinin qaldırılması üçün "Yaşıl paket" layihəsinə 300 000 ABŞ dolları xərclədik.
- Bizim əməkdaşlarımız yerli xeyriyyəçilik tədbirlərinə 5 173 ABŞ dolları məbləğində vəsait topladı və məbləğ BP fondları vasitəsilə ikiqat artırıldı.
- 2007-ci ildə 10 124 nəfər icma üzvü alternativ enerji layihələrindən faydalandı.

## Təhsil təşəbbüsləri

- 2007-ci ildə Xəzər enerji mərkəzinə 8 478 nəfər baş çəkib ki, bunların da 5 855 nəfəri uşaq olub.
- XEM-nin 2007-ci il üzrə xərcləri 1,039 milyon ABŞ dolları olmuşdur.
- 2007-ci ildə BP şirkətinin maliyyələşdirdiyi təqaüd proqramlarında 175 nəfər Azərbaycan vətəndaşı iştirak etdi.

## Sahibkarlığın inkişafı

- 2007-ci ildə səkkiz yerli şirkət BP Azərbaycan şirkəti ilə yeni müqavilələr bağladı.
- Bizim kiçik və orta müəssisələr (KOM) vasitəsilə xərclədiyimiz vəsaitin miqdarı 111 milyon ABŞ dollarına çatdı ki, bu da 2006-ci illə müqayisədə 44% çoxdur.
- 2007-ci ildə əla icra göstəricilərinə nail olduğuna görə beş yerli şirkət "Ən Yaxşı Biznes" mükafatı ilə təltif olundu.
- BP Azərbaycan şirkəti və onun tərəfdaşları ölkə daxilində ümumilikdə 1,495 milyard ABŞ dolları xərclədi ki, bu da 2006-cı ildəkinə nisbətən 1% çoxdur.

# Dörd illik icra göstəriciləri[a]

| | 2004 | 2005 | 2006 | **2007** |
|---|---|---|---|---|
| **İstismar** | | | | |
| Hasil edilmiş karbohidrogenlərin ümumi həcmi (gündə orta hesabla min barel) | 132,2 | 261,0 | 472,0 | **668,0** |
| **Maliyyə**[b] | | | | |
| Əməliyyat məsrəfləri - sərf olunmuş ümumi məbləğ (min ABŞ dollar) | 157 668 | 213 983 | 254 000 | **615 000** |
| Əsaslı məsrəflər - sərf olunmuş ümumi məbləğ (min ABŞ dollar) | 5 122 678 | 5 160 705 | 4 437 000 | **3 404 000** |
| **Texniki təhlükəsizlik**[c] | | | | |
| Ölüm halları - əməkdaşlar | 0 | 0 | 0 | **0** |
| Ölüm halları - podratçılar | 2 | 2 | 1 | **0** |
| Qəza nəticəsində itirilmiş iş günü hadisəsi (QNİİG) - işçi qüvvəsi | 8 | 3 | 5 | **5** |
| Qəza nəticəsində itirilmiş iş günü hadisələrin (QNİİG) baş vermə tezliyi - işçi qüvvəsi | 0,03 | 0,01 | 0,03 | **0,04** |
| Qeyd olunan xəsarətlər - işçi qüvvəsi | 113 | 73 | 39 | **41** |
| Qeyd olunan xəsarətlərin baş vermə tezliyi - işçi qüvvəsi | 0,44 | 0,33 | 0,25 | **0,31** |
| İşlənmiş saatlar - əməkdaşlar (milyon saat)[d] | 3,5 | 3,85 | 5,73 | **11,53** |
| İşlənmiş saatlar - podratçılar (milyon saat)[e] | 48,22 | 40,24 | 25,45 | **14,76** |
| **Ətraf mühit** | | | | |
| Birbaşa karbon dioksid ($CO_2$) (kilo ton) | 946,7 | 1 649,2 | 1 686,5 | **1 980,1** |
| Dolayısı ilə karbon dioksid ($CO_2$) (kilo ton) | 0 | 0,5 | 0,4 | **0,3** |
| Birbaşa metan ($CH_4$) (kilo ton) | 4.6 | 6,7 | 5,7 | **9,4** |
| Birbaşa ümumi istilikxana qazı (İXQ) (min ton $CO_2$ ekvivalenti) Azərbaycanda | 1 042,8 | 1 789,5 | 1 806,5 | **2 176,2** |
| Məşəldə yandırılma (kəşfiyyat və hasilat) (ton) | 283 953 | 448 279 | 332 641 | **280 774** |
| Kükürd dioksid (SOx) (ton) | 59 | 814 | 237 | **249**[f] |
| Azot oksidləri (NOx) (ton) | 1 621 | 3 538 | 3 711 | **3 953**[f] |
| Qeyri-metan karbohidrogenlər (QMKH) (ton) | 1 327 | 3 229 | 7 562 | **3 014** |
| Xam neft dağılmalarının sayı | 20 | 54 | 41 | **71** |
| Dağılmış məhsulun həcmi (litr) | 21 376 | 24 410 | 8 396 | **4 534** |
| Dağılandan sonra yığılmamış məhsulun həcmi (litr) | 3 061 | 1 024 | 1 100 | **1 192** |
| Suya atılmalar - tərkibində sintetik əsaslı qazma məhlulu olan qazma şlamları (ton) | 6 077 | 3 315 | 1 563 | **6 811** |
| **Əməkdaşlar** | | | | |
| BP Azərbaycanda daimi əməkdaşların sayı | 1 505 | 1 741 | 2 048 | **2 199** |
| **Sosial xərclər** | | | | |
| BP Azərbaycan SİB və tərəfdaşları tərəfindən - ümumi məsrəf (milyon ABŞ dolları) | 34,25 | 25,45 | 17,12[g] | **21,10**[h] |

[a] Başqa cür göstərilməyibsə, bu cədvəl yalnız BP Azərbaycana aiddir.
[b] BP Azərbaycan SİB və onun tərəfdaşları.
[c] BP Azərbaycan SİB üzrə yekun məlumatlar.
[d] Əməkdaşlar tərəfindən işlənilmiş saatlar BP Azərbaycan SİB ilə əmək müqaviləsi bağlamış fərdlərin işlədikləri saat kimi müəyyən edilir; bu tərif BP qrupu tərəfindən verilən tərifə uyğundur.
[e] Podratçılar tərəfindən işlənilmiş saatlar bizim nəzarətimiz altında olan podratçıların işlədikləri saatlar kimi müəyyən edilir; bu tərif BP qrupu tərəfindən verilən tərifə uyğundur.
[f] Müqayisə məqsədi ilə bu rəqəm 2006-cı ildəki (2007-ci ilə qarşı) proqnozdan istifadə edilməklə verilmişdir.
[g] Keçən ilki hesabatda səhv - 2006 BP Azərbaycan davamlı inkişaf haqqında hesabatda göstərilmiş 13,31 milyon ABŞ dollar əvəzinə 17,12 milyon ABŞ dollar olmalıdır.
[h] Bu nəğd pul olan rəqəmdir; əvvəlki illərdə olduğu kimi, BTC qrantı və BP-nin Gürcüstana verəcəyi məbləğ bura daxil deyildir.

# 2007-ci il BP Azərbaycan MSŞT hesabat formasının surəti

**Reporting form for a foreign extractive industry company about payments to the government of Republic of Azerbaijan (host government)**

Name of company: BP
BP Exploration Caspian Sea Ltd (TIDN 9900070211), Amoco Caspian sea Petroleum Ltd (TIDN 9900071821);
Name of industry: Oil and gas
Activity type: Production Sharing Agreements (Azeri-Chirag-Guneshli, Shah Deniz, Alov, Inam)
Reporting Period: Annual, January - December 2007

| Payment description | Value[1] | | Volume | |
|---|---|---|---|---|
| | mln.US dollar | bln. AZM | Oil mln.boe | Gas (natural associated) nm³ |
| 1 | 2 | 3 | 4 | 5 |
| **1.** Payments/allocations of foreign company to host government<br>**1 a) Host Government's production entitlement in foreign company's Production Stream**<br>- in kind (SOFAZ)<br>- in cash[2] | <br><br><br>0.615 | | 10.360 | |
| **1 b) Payments of foreign company to host government**<br>Royalties<br>- in kind<br>- in cash | | | | |
| Profit tax | 799.735 | | | |
| Other tax (excluding employee income tax, Social Protection Fund tax, withholding tax) | | | | |
| Dividends | | | | |
| Signing bonuses and other bonuses | 12.750 | | | |
| License fees, entry fees and other considerations for licenses | | | | |
| Other payments, including:<br>a) transportation tariff (SOFAZ)<br>b) acreage fee | <br>0.000<br>0.450 | | | |
| **2.** Payments/ allocations of foreign company to host state-owned company<br>**2 a) Host state-owned company's production entitlement in foreign company's Production Stream**<br>in kind -<br>in cash | | | | |
| **2 b) Payments to host state-owned company**<br>Royalties<br>- in kind<br>- in cash | | | | |
| Profit tax | | | | |
| Other tax (excluding employee income tax, Social Protection Fund tax, withholding tax) | | | | |
| Dividends | | | | |
| Signing bonuses and other bonuses | | | | |
| License fees, entry fees and other considerations for licenses | | | | |
| Other payments, including:<br>a) transportation tariff (SOCAR)<br>b) associated gas[3] (SOCAR) | 0.277 | | | 2,295,332,277.863 |

Company authorized officer ____________

Form completing date 2/5/08

[1] For a reporting line only one of value columns shall be filled (either USD or AZM).
[2] The payment is for SD gas.
[3] BP as the operator of AIOC, reports within BP's template, the total gross number for associated gas delivered to SOCAR in 2007.

# MSŞT-nin 2003 - 2007-cı illər üzrə hesabat məlumatları

| | 2003<br>Yanvar 1 - Dekabr 31 | | | 2004<br>Yanvar 1 - Dekabr 31 | | | 2005<br>Yanvar 1 - Dekabr 31 | | | 2006<br>Yanvar 1 - Dekabr 31 | | | 2007<br>Yanvar 1 - Dekabr 31 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Dəyər | Həcm | | Dəyər | Həcm | | Dəyər | Həcm | | Dəyər | Həcm | | Dəyər | Həcm | |
| | milyon ABŞ dolları | Neft milyon barel neft ekviva-lenti | Qaz (təbii, səmt) min normal m3 | milyon ABŞ dolları | Neft milyon barel neft ekviva-lenti | Qaz (təbii, səmt) min normal m3 | milyon ABŞ dolları | Neft milyon barel neft ekviva-lenti | Qaz (təbii, səmt) min normal m3 | milyon ABŞ dolları | Neft milyon barel neft ekviva-lenti | Qaz (təbii, səmt) min normal m3 | milyon ABŞ dolları | Neft milyon barel neft ekviva-lenti | Qaz (təbii, səmt) min normal m3 |
| 1. Xarici şirkətin fəaliyyət göstərdiyi ölkə hökumətinə ödənişləri/ayırmaları<br>1a) Xarici şirkətin hasilatında hökumətə düşən pay<br>- natura ilə (ARDNF)<br>- nağd pulla | | | | | 2.29 | | | 4.89 | | | 6.498 | | 0.615 | 10.360 | |
| Mənfəət vergisi | | | | | | | | | | 472.032 | | | 799.735 | | |
| İmzalama bonusu və digər bonuslar | | | | | | | | | | | | | 12.750 | | |
| Digər ödənişlər, o cümlədən:<br>a) Nəqletmə tarifi (ARDNF)<br>b) Akrhesabı ödəmələr (ARDNF) | 3.80<br>0.45 | | | 3.95<br>0.45 | | | 4.45<br>0.45 | | | 4.212 | | | 0.000<br>0.450 | | |
| 2. Xarici şirkətin fəaliyyət göstərdiyi ölkənin dövlət şirkətinə ödənişləri/ayırmaları<br>2a) Xarici şirkətin hasilatında yerli dövlət şirkətinə düşən pay<br>- natura ilə<br>- nağd pulla | | 2.26 | | | | | | | | | | | | | |
| Digər ödəmələr, o cümlədən:<br>a) nəqletmə tarifi (ARDNŞ)<br>b) səmt qazı[a] (ARDNŞ) | 0.05 | | | 0.07 | | 948,576,000 | 0.81 | | 1,778,<br>570,000 | 1.214 | | 2,191,730,<br>873.711 | 0.277 | | 2,295,332,<br>277.863 |

[a] ABƏŞ-in əməliyyatçısı kimi ARDNŞ-yə çatdırılan səmt qazının ümumi miqdarı barədə BP-nin hesabat forması daxilində məlumat verir.

# Müstəqil şirkətin BP rəhbərliyinə əminlik barədə təminat bəyanatı

BP Azərbaycan 2007-ci il üçün davamlı inkişaf haqqında hesabat ("Hesabat") bu biznes bölümü daxilində məlumatların toplanması və təqdim edilməsinə görə məsuliyyət daşıyan BP Azərbaycan rəhbərliyi tərəfindən hazırlanmışdır. Bizim məsuliyyətimiz, aşağıda göstərildiyi kimi, BP rəhbərliyinin təlimatlarına uyğun olaraq Hesabatda verilmiş məlumat, fakt və işıqlandırılmış məsələlərin əhatə dairəsi barədə məhdud əminlik öhdəliyini yerinə yetirməkdən ibarətdir.

Bu işlərin yerinə yetirilməsində biz yalnız BP p.l.c.-nin rəhbərliyi qarşısında onlarla razılaşdırılmış səlahiyyətlər çərçivəsində cavabdehik. Buna görə də, hər hansı digər bir məqsədə görə və ya hər hansı digər şəxs və ya təşkilat qarşısında heç bir məsuliyyət daşımırıq. Hər hansı üçüncü tərəfin Hesabata nə dərəcədə etibar etməsinin məsuliyyəti tamamilə onun öz üzərinə düşür.

## Gəldiyimiz nəticələr gördüyümüz hansı işlərə əsaslanır?

Əminlik üzrə götürdüyümüz öhdəlik Beynəlxalq Mühasiblər Federasiyasının Beynəlxalq Standartlarına (İSAE3000) uyğun olaraq planlaşdırılmış və həyata keçirilmişdir.
Hesabat aşağıdakı meyarlara görə qiymətləndirilmişdir:

- Hesabatın 2007-ci ildə media nümayəndələri tərəfindən BP-nin Azərbaycandakı fəaliyyətləri ilə əlaqədar qaldırdığı davamlı inkişafa dair əsas məsələlər, BP Azərbaycanın mühüm davamlı inkişaf problemləri ilə bağlı özünün keçirdiyi yoxlama və seçilmiş daxili sənədləri əhatə edib-etməməsi.
- Hesabatda verilmiş davamlı inkişaf haqqında məlumatların BP-nin müvafiq rəhbərləri tərəfindən verilən izah və dəlillərə uyğun gəlib-gəlməməsi .
- Hesabatda verilmiş davamlı inkişaf haqqında məlumatların müvafiq strateji icra bölümü səviyyəsində qeydə alınmış məlumatlara uyğun gəlib-gəlməməsi

Nəticələr aşağıdakı işlər əsasında çıxarılmışdır:

1. 2007-ci ildə risklərin qiymətləndirilməsi, etik normalara riayət haqqında təsdiqlər və maraqlı tərəflərin rəy və təklifləri də daxil olmaqla, BP-nin Azərbaycanda davamlı inkişaf məsələləri ilə bağlı apardığı işlərlə əlaqədar şirkətdənkənar media hesabatlarının və daxili sənədlərin bir komplektini nəzərdən keçirmişik.
2. Hesabatda əksini tapmalı əsas məsələlərin müəyyənləşdirilməsi üçün BP Azərbaycanın nəzərdə tutduğu prosesin Hesabat hazırlanan zaman tətbiq olunub-olunmadığını yoxlamışıq.
3. Hesabatda davamlı inkişaf üzrə verilmiş icra göstəriciləri və bəyanatlar haqqında məlumat və ya izahatları diqqətlə nəzərdən keçirmişik. Davamlı inkişaf üzrə hesabatda əksini tapmış göstəriciləri dəstəkləyən sənədləri yoxlayarkən ölkə və ya sahə səviyyəsində məlumatların toplanması, müqayisə edilməsi və onların necə əldə edilməsi proseslərini yoxlamamışıq.

## Əminlik səviyyəsi

Dəlil toplama prosedurlarımız məhdud əminlik səviyyəsi əldə etmək və nəticələri əsaslandırmaq üçün nəzərdə tutulmuşdur. Həyata keçirilmiş dəlil toplama prosedurlarının səviyyəsi məqbul əminlik öhdəliyinin yerinə yetirilməsinə (məsələn, maliyyə auditi) verilən tələblərlə müqayisədə aşağıdır və buna görə də, nisbətən aşağı səviyyəli əminlik təmin edilmişdir.

## Gəldiyimiz nəticələr

Hesabatla bağlı apardığımız yoxlama əsasında və işimiz üçün müəyyən edilmiş səlahiyyətlər dairəsində aşağıdakı nəticələrə gəlmişik. Bu nəticələr yuxarıdakı "Gəldiyimiz nəticələr gördüyümüz hansı işlərə əsaslanır?" bölməsi ilə birlikdə oxunmalıdır.

**1. Əsas məsələlər Hesabatda əhatə olunubmu?**
Media məlumatlarının, seçilmiş daxili sənədlərin və BP Azərbaycanın əsas məsələlərin müəyyən edilməsi üçün istifadə etdiyi prosesin yoxlanılmasına əsaslanaraq bildiririk ki, davamlı inkişafa aid hər hansı vacib məsələnin Hesabata daxil edilməməsi faktı bizə məlum deyildir.

**2. Hesabatda BP Azərbaycanın davamlı inkişaf üzrə icra göstəriciləri dəlil-sübut və ya izahatlarla təsdiqlənirmi?**
Hesabatda BP Azərbaycan rəhbərliyi tərəfindən BP Azərbaycanın davamlı inkişaf üzrə həyata keçirdiyi fəaliyyətlərlə bağlı təqdim edilmiş təsdiq və məlumatlarda hər hansı bir qeyri-düzgün bəyanatın olması bizə məlum deyildir.

## Bizim müstəqilliyimiz

BP p.l.c.-nin auditorları kimi "Ernst & Young"dan İngiltərə və Uelsdə diplomlu mühasiblər institutunun (İUDMİ) "Peşəkar etika haqqında təlimat"ında müəyyənləşdirilmiş müstəqillik tələblərinə riayət etmək tələb olunur. Ernst & Young şirkətinin İUDMİ-nun tələbləri nəzərə alınan və müəyyən hallarda həmin tələblərdən daha ciddi olan müstəqil strategiyaları firmalar, tərəfdaşlar və peşəkar işçilərə tətbiq olunur. Bu strategiyalar sifarişçilərimizə münasibətdə müstəqilliyə xələl gətirən və ya gətirə biləcəyi ehtimal olunan hər hansı maliyyə maraqlarını qadağan edir. Hər il işçi və tərəfdaşlardan şirkətin siyasətlərinə riayət etdiklərini təsdiq etmək tələb olunur.

Biz hər il müstəqilliyimizə və obyektivliyimizə xələl gətirə biləcək hər hansı hadisənin, qadağan edilmiş xidmətlər də daxil olmaqla, baş verib-vermədiyini BP-yə bildiririk. 2007-ci ildə heç bir belə hadisə və ya xidmət olmamışdır.

***Ernst & Young LLP***
London
İyun, 2008-ci il

[a] Auditlər istisna olmaqla əminlik öhdəlikləri və ya tarixi maliyyə məlumatları üzrə yoxlamalar üçün Beynəlxalq Mühasiblər Federasiyası (ISAE3000).

# Sözlük

| | |
|---|---|
| ABBMA | Azərbaycan-Böyük Britaniya Məzunlar Assosiasiyası |
| ABƏŞ | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| ABŞ | Amerika Birləşmiş Ştatları |
| ABTM | Azərbaycan Bank Təlim Mərkəzi |
| ACDİ/VOCA | Kənd Təsərrüfatının Beynəlxalq Kooperativ İnkişafı və Könüllülərin Xarici Kooperativ Yardımı |
| AÇG | Azəri-Çıraq-Günəşli |
| AEİ | Arxeologiya və Etnoqrafiya İnstitutu |
| Aİ | Avropa İttifaqı |
| AMA | Azərbaycan Mikromaliyyələşdirmə Assosiasiyası |
| AMEA | Azərbaycan Milli Elmlər Akademiyası |
| AMMB | Azərbaycan Mikromaliyyə Bankı |
| AOC | Azərbaycan Ornitoloqlar Cəmiyyəti |
| ARDNF | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| ARDNŞ | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| ASTK | Azərbaycan Sosial Təhlil Komissiyası |
| AT qaz | Aşağı təzyiqli qaz |
| ATƏ (GTZ) | Almaniya Texniki Əməkdaşlıq təşkilatı |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| AYİB | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| AZAL | Azərbaycan hava yolları |
| BİYF | Beynəlxalq İctimaiyyətə Yardım Fondu |
| BİM | Biznes inkişaf mərkəzi |
| BİO | Bütövlüyün idarə olunması standartı |
| BKTNQ | Buxarların kondensasiya temperaturuna nəzarət qurğusu |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| BMTİP | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |
| BPGC | Britaniya Peşə Gigiyenası Cəmiyyəti |
| BTC | Bakı-Tbilisi-Ceyhan |
| BYƏ | Boru kəməri yoxlama ərsi |
| CQA | Konteinment Kuoliti Asoşieyts şirkəti |
| CQBK | Cənubi Qafqaz Boru Kəməri |
| DİCU | Davamlı İnkişaf Cəmiyyəti uğrunda, Azərbaycan QHT |
| DM | Davranış məcəlləsi |
| DSG | Dərinsulu Günəşli |

| | |
|---|---|
| DTD | Dolayı termal desorpsiya |
| ETSN | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| Ə və Xİ | Əlaqələr və xarici işlər |
| ƏE | Əmək ehtiyatları |
| Əİ | Əməlliyyatların idarə edilməsi |
| ƏİP | Əməkdaşların iştirak proqramı |
| ƏİS | Əməliyyatların idarə edilməsi sistemi |
| ƏMMRP | Ətraf mühitin mühafizəsinə rəhbərlik proqramı |
| ƏMSFP | Ətraf mühit və sosial fəaliyyət planı |
| ƏMSP | Ətraf mühitə sərmayə proqramı |
| ƏTİAF | Əməkdaşların töhfələrinin ikiqat artırılması fondu |
| ƏTMS | Əməyin təhlükəsizliyi ilə əlaqədar müşahidələr və söhbətlər |
| ƏTTA | Əməyin təhlükəsizliyi üzrə təkmilləşdirilmiş auditi |
| g | Gündə |
| HPBS | Hasilatın pay bölgüsü sazişi |
| XEM | Xəzər enerji mərkəzi |
| XİMŞ | Xəzərdə İşlənmələr üzrə Məsləhət Şurası |
| XTTM | Xəzər Texniki Təlim mərkəzi |
| İB | İcra bölümü |
| İBKMİ | İxrac boru kəmərlərinin mühafizəsi idarəsi |
| İƏ | İntellektual ərsinləmə |
| İƏMŞ | İcmalarla əlaqələr üzrə məsul şəxs |
| İİYP | İqtisadi imkanlar yaradılması proqramı |
| İKF | İanə Köməyi Fondu |
| İHİİ | İşçi Heyət və İnkişaf İnstitutu |
| İMK | İnterneşnəl Medikal Korps |
| İN | İşə nəzarət |
| İNL | İlkin Neft Layihəsi |
| İNX-2 | İnam kəşfiyyat quyusu |
| İPA | Aralıq ərsinburaxma stansiyası Azərbaycan |
| İQ | İstixana qazları |
| İRT | İnformasiya və Rabitə Texnoloqiyası |
| İS | İdarəetmə sistemi |
| ISO | Beynəlxalq Standartlar Təşkilatı |
| İSP | İctimai Sərmayə Proqramı |

| | |
|---|---|
| İÜİMP | İcmalar üçün iqtisadi maarifləndirmə proqramı |
| K və H | Kəşfiyyat və hasilat |
| KAEƏ | Korroziyanı aşkar edən ərsin |
| KƏ | Konfiqurasiya ərsin |
| KEMP | Kompleks ekoloji monitorinq proqramı |
| KGƏTP | Kənd yerlərində geniş əhatəli təhsil proqramı |
| KOM | Kiçik və orta müəssisələr |
| KSVP | Kompressor və Suvurma Platforması |
| KTT | Kompleks təchizat və ticarət |
| KTXM | Kənd təsərrüfatı xidmətləri mərkəzi |
| Q və T | Qazma və tamamlama |
| QA | Qərbi Azəri |
| QDTİQ | Qobustan Dövlət Tarixi İncəsənət Qoruğu |
| QHT | Qeyri-hökumət təşkilatı |
| QİBK | Qərb İxrac Boru Kəməri |
| QNİİG | Qəza nəticəsində itirilən iş günü |
| QNİİG (t) | Qəza nəticəsində itirilən iş günü (tezlik) |
| QOX | Qeyd olunmalı xəsarət |
| QOX (t) | Qeyd olunmalı xəsarətlər (tezlik) |
| QŞ | Qazma şlamları |
| QŞYLV | Qazma şlamlarının yenidən laya vurulması |
| MDB | Müstəqil Dövlətlər Birliyi |
| MFHİE | Mühüm fövqəladə halların idarə edilməsi |
| MİP | Milli İnkişaf proqramı |
| MK | Meksika körfəzi |
| MKM | Mikro və kiçik müəssisələr |
| MKŞ-lər | Məcburi köçkün şəxslər |
| MMİ | Böyük Britaniyadakı Mexanik-Mühəndislər İnstitutu |
| MN və M | Maliyyə nəzarəti və mühasibat |
| MSŞT | Mədən sənayesində şəffaflıq təşəbbüsü |
| MTQ | Mayeləşdirilmiş təbii qaz(lar) |
| MTTS | Mərkəzi tullantıların toplama sahəsi |
| NMC | Neft Mühəndisləri Cəmiyyəti |
| NOx | Azot oksidləri |
| ÖDMT | Özəl və dövlət müəssisələri tərəfdaşlığı layihəsi |
| PSA | Azərbaycanda nasos stansiyası |
| QŞYLV | Qazma şlamlarının yenidən laya vurulması |
| RƏMM | Reqional ətraf mühit mərkəzi |
| RİT | Regional İnkişaf Təşəbbüsü |
| RKT | Rəqəmli və kommunikasiyalar texnologiyası |
| SDX-4 | Şahdəniz kəşfiyyat quyusu |
| SnƏQM | Sintetik əsaslı qazma məhlulu |
| SƏQM | Su əsaslı qazma məhlulu |
| SƏTƏM | Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit |
| SƏTTƏM | Sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühit |
| SƏTTƏM və SİS | Sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik, ətraf mühit və sosial idarəetmə sistemi |
| SİB | Strateji İcra Bölümü |
| SİTP | Sahibkarlığın inkişafı və təlim proqramı |
| SOx | Kükürd oksidləri |
| STEP | Səngəçal terminalının genişləndirilməsi layihəsi |
| STOP | Təhlükəsizlik texnikası üzrə təlim və müşahidə proqramı |
| SYT | Səyyar yaşayış tikililər |
| ŞA | Şərqi Azəri |
| ŞD | Şahdəniz |
| ŞİBK | Şimal İxrac Boru Kəməri |
| ŞLT | "Şelflayihətikinti" |
| t/o | Tətbiq olunmur |
| TATK | Təşkilatlararası təhlükəsizlik komitəsi |
| TƏMÖHS | Tranzit əraziyə malik ölkə hökuməti ilə saziş |
| TkAz | Tekfen-Azfen Alyansı |
| TMMM | Təchizatçıları müəssisələri maliyyələşdirmə mexanizmi |
| TNK | Tümennefteqaz, Nijnevartovsknefteqaz, Kaluqanefteprodukt |
| TTİİQ | Təhlükəli tullantıların idarəedilməsi qurğusu |
| TTİO | Tədarük və təchizat sisteminin idarə edilməsi |
| TTYİT | Təcili tibbi yardımın inkişaf etdirilməsi təşəbbüsü |
| ÜDM | Ümumi daxili məhsul |
| YDŞ | Yeni Düşüncələr şəbəkəsi |
| YLƏT | Yeni layihələr üçün ətraf mühitlə bağlı tələblər |
| YLQ | Yeraltı laylar və quyular |

| | |
|---|---|
| YNQÜS | Yol-nəqliyyat qəzalarının ümumi sayı |
| YPOH (t) | Yüksək potensiallı hadisə (tezlik) |
| YTŞQ | Yüksək təzyiqli Şahdəniz qazı |

**Vahidlər**

| | |
|---|---|
| Km | Kilometr |
| Mln | Milyon |
| MWh | Saatda meqa vatt |

# Necə ...

## ... XEM-ə necə getmək olar?

Bütün potensial qonaqlar səfər tarixi və vaxtını sifariş vermək üçün mərkəzlə əlaqə saxlamalıdırlar. Xahiş edirik ki, mərkəzə pulsuz səfər etmək üçün sizin xahişinizin nəzərə alınması məqsədilə 3 gün öncədən bildiriş təqdim edəsiniz. Məktəblilərin səfərləri əvvəlcədən təşkil edilməli və onlar öz valideynləri və ya müəllimləri tərəfindən müşayiət olunmalıdırlar! Telefon: (+994 12) 447 02 55 / 447 17 19/29;
E-poçt: *cec@bp.com; Veb-səhifə: www.cec.az*
Ünvan: Qaradağ rayonu, AZ1082, BP şirkətinin istismar etdiyi Səngəçal terminalı, Salyan şosesi
Təhlükəsizlik məsələləri ilə bağlı məhdudiyyətlərlə əlaqədar olaraq səfərlər əvvəlcədən təşkil olunmalıdır.

## ... İSP/ƏMSP qrantları üçün ərizə ilə müraciət etməyi öyrənmək istəyirsinizmi?

İctimai Sərmayə Proqramı və ya Ətraf Mühitə Sərmayə Proqramı üzrə qrantlar ilə bağlı suallar üçün aşağıdakı ünvanla əlaqə saxlamağınız xahiş olunur:

Bakı, AZ1003, Azərbaycan, Villa Petrolea, 3-cü mərtəbə, otaq 315 room, Neftchilar prospekti, 2
Baku, AZ1003, Azerbaijan
Phone: (+994 12) 497 90 00; Fax: (+994 12) 497 96 02
Email: cnp@bp.com

## ... necə əlaqə saxlamaq olar?

BP şirkəti və onun tərəfdaşları ilə bağlı biznes imkanları haqqında öyrənmək üçün aşağıdakı ünvanla əlaqə saxlamağınız xahiş olunur:

Biznes Mərkəzi
Mirzə Mansur küçəsi 99,
(İçəri Şəhər) AZ1004
Bakı, Azərbaycan
Phone: (+994 12) 497 96 24
Fax: (+994 12) 497 96 54
E-poçt: office@ecbaku.com
Veb-səhifə: www.ecbaku.com

## ... iş üçün necə müraciət etməli?

Təcrübəli işçilər, internatura, illik işəgötürmə proqramı üzrə elanlar aşağıdakı internet səhifəsində yerləşdirilir: http://www.bp.com/caspian/careers/

Qeyd: hər il işəgötürmə proqramları noyabr ayında başlayır və yerli qəzetlərdə elan verilir.

## ... problemli məsələləri necə qaldırmaq olar?

24 saat fəaliyyət göstərən "OpenTalk" telefon nömrələri:

Azərbaycan (+994 12) 497 98 88
Beynəlxalq xətt (+1 704) 540 2242
Faks: (+1 704) 556 0732
E-poçt: opentalk@myalertline.com
Məktub: OpenTalk, 13950 Ballantyne Corporate Place, PMB 3767, Charlotte, NC28277, USA
Intranet: *http://baku.bpweb.bp.com/dep/ethics/opentalk/compliance.asp*
"OpenTalk" haqqında əlavə suallar BP Azərbaycana unvanlana bilər.

## ... şikayətlər/narahatlıq doğuran məsələlər/məlumatların verilməsi üçün xahiş

Siz öz şikayətlərinizi / sizi narahat edən məsələləri / məlumatlarla bağlı marağınızı bildirmək və başqa məsələlər üçün bizimlə aşağıdakı ünvanda əlaqə saxlaya bilərsiniz:
Əlaqə saxlanılmalı İƏMŞ:
Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir
Telefon: (+994 50) 225 02 51 / 225 02 45
Ucar, Ağdaş, Yevlax, Goranboy
Telefon: (+994 50) 225 02 57 / 225 02 45
Samux, Şəmkir, Tovuz, Ağstafa
Telefon: (+994 50): 225 01 75 / 225 02 60
Layihə informasiya mərkəzlərinin nömrələri:
Kürdəmir (+994 145) 6-64-08; Yevlax (+994 166) 6-58-84
Tovuz (+994 231) 5-50-99
http://www.bp.com/caspian/contactus

# Rəy və təkliflər

**Xülasə** 2006-cı il BP Azərbaycanda davamlı inkişaf haqqında hesabata tələbələr, təhsil müəssisələri və media mənsubları tərəfindən verilən rəy ümumiyyətlə müsbət oldu. Bu hesabat şirkətdən kənara yayımlandı. Hesabatın eləcə də elektron versiyasından istifadə etmək mümkün idi.

2006-cı il hesabatının müzakirələrində tələbələr, müəllimlər, QHT və kütləvi informasiya vasitələrinin təmsilçiləri və müxtəlif təhsil proqramlarının məzunları da daxil olmaqla 100 nəfərdən artıq şəxs iştirak etdi.

Verilən müsbət rəylər 2006-cı il hesabatının hərtərəfli olduğunu bir daha ön plana çəkdi. Mənfi rəylər nəşrin vaxtı ilə bağlı idi.

## Tələbələrin qeyd və təklifləri

- Texniki Universitetin, ABŞ təhsilli Azərbaycanlı Məzunlar Assosiasiyasının, Bakı Dövlət Universitetinin, Qafqaz Universitetinin, Azərbaycan Böyük Britaniya Məzunlar Assosiasiyasının və Azərbaycan Dillər Universitetinin tələbə və məzunları rəy və təkliflərin öyrənilməsi yığıncaqlarında iştirak etdilər.
- Əvvəlki illərdə olduğu kimi, müzakirələrdə iştirak edənlər ən çox işəgötürmə ilə bağlı məsələlərlə maraqlanırdılar. Digər maraq doğuran sahələrə BP təqaüd proqramları və BP Azərbaycanın gələcəyi daxil idi.

## Mətbuat mənsublarının qeyd və təklifləri

- Kütləvi informasiya vasitələrinin nümayəndələrinin hesabatla bağlı rəyi ümumiyyətlə müsbət idi və onlar qeyd etdilər ki, 2006-cı il hesabatı əvvəlkilərdən daha əhatəli və daha məlumatlıdır.
- Onları narahat edən başlıca məsələ hesabatın iyul/avqust aylarında nəşr olunması ilə əlaqədər idi. Kütləvi informasiya vasitələrinin nümayəndələrinin rəyincə, hesabatın bu aylarda nəşr edilməsi onun dəyərini və faydalılığını azaldır.
- Hesabatın Azərbaycan dilində olan variantı və orada işlədilən texniki terminlər də bəzi suallar doğurdu.

## Vətəndaş cəmiyyətinin rəyi

- Əvvəlki hesabatlara nisbətən bu hesabatın müzakirəsində QHT-lər bir qədər zəif iştirak etdilər və onlardan alınan rəy və təkliflər az oldu.
- Tədqiqatlardan belə çıxır ki, bu, BP-nin Azərbaycandakı QHT-lərə açıqlığını və onların asanlıqla əldə edə biləcəyi məlumatların həcmini əks etdirir.
- Bəzi QHT-lər BP-nin sponsorluq etdiyi layihələrdə öz iştirakları ilə bağlı əhvalatların nəşrə daxil edilməsinə maraq göstərdilər.



## Maraqlı tərəflərin qeyd və təkliflərinə bizim cavabımız

Hər il BP Azərbaycanın davamlı inkişaf haqqında hesabatı bizə gördüyümüz işlər barədə mümkün olan qədər açıq hesabat verməklə, maraqlı tərəflərlə görüşmək və onlardan rəy və təkliflər almaqla Azərbaycan cəmiyyəti ilə əlaqələrimizi genişləndirməyə və dərinləşdirməyə imkan verir. Bu isə fəaliyyətlərimizin istiqamətlərini müəyyən etməkdə bizə kömək edir.

Keçən il biz 2006-cı il hesabatı ilə əlaqədar rəy və təkliflər almaq üçün yeddi müzakirə keçirdik. Müzakirələrdən sonra biz verilən şərhləri nəzərdən keçirdik və bu 2007-ci il hesabatında bəzi mühüm dəyişikliklər etdik. Biz:

- Hesabatın nəşr vaxtını tezləşdirməyə cəhd etmişik. Davamlı inkişaf haqqında hesabatın hazırlanması və nəşr edilməsi mürəkkəb proses olsa da, biz başa düşürük ki, hesabatın ilin əvvəllərində hazır olmasına bir tələbat var.
- Hesabatın yayım dairəsini geniş-ləndirmək üçün tədbirlər görmüşük.

2007-ci il hesabatında biz Azərbaycan hökumətinə ödədiyimiz vergilər (səhifələr 61-62), yerli müəssilər vasitəsilə xərclənən vəsaitlər (səhifələr 54-55), Azərbaycanda gəlirlərin şəffaflığının gücləndirilməsi (səhifə 52), işəgötürmə təcrübəmiz və əməyin təhlükəsizliyi və ətraf mühit göstəricilərimiz (səhifələr 25-32) barədə məlumatların açıqlanması ənənəmizi davam etdirmişik.

Bəzi məlumatları kommersiya və ya etika baxımından açıqlamaq mümkün deyildir. Buna misal olaraq, ayrı-ayrı işçilərimizə/podratçılarımıza nə qədər ödədiyimiz barədə məlumatları göstərmək mümkün deyil, çünki bu, məxfi və şəxsi məsələdir.

Biz eləcə də bu ölkədə BP-nin əldə etdiyi gəlirləri açıqlamırıq, çünki belə məlumatlar bazar həssaslığı ilə əlaqədar məlumatlardır. Lakin bununla belə, BP qrupunun gəlirləri və xərcləri üzrə ümumi hesabatla BP-nin 2007-ci il üçün İllik hesabatında http://www.bp.com/annual review saytında tanış olmaq olar.

Əgər bu hesabatla bağlı rəy və təklifləriniz olarsa, biz onları məmnuniyyətlə eşitmək istərdik. Lütfən, bizimlə bu hesabatın axırıncı səhifəsində verilmiş ünvanda əlaqə saxlayın.



**Aydın Haşımov**
Sərmayələr və ictimai hesabatlar üzrə menecer

# Əlavə məlumat

BP şirkətinin Xəzər/Qafqaz regionunda həyata keçirdiyi enerji layihələri haqqında daha çox məlumat ümumdünya internet şəbəkəsində mövcuddur. Əsas saytlar aşağıdakılardır:

**www.bp.com/caspian**
Bu sayt müxtəlif Xəzər enerji layihələri haqqında əsas məlumat mənbəyidir. Buraya layihənin təfərrüatları, yeni məsələlər, Azərbaycan, Gürcüstan və Türkiyədə həyata keçirilmiş ƏMSSTQ-lər və layihələri, kreditor hesabatlarını, QHT monitorinq hesabatlarını və BP-nin cavablarını, ASTK zəmanət məktublarını və bizim cavablarımızı, əvvəlki BP Azərbaycan davamlı inkişaf haqqında hesabatları və digər sənədləri tənzimləyən hüquqi sazişlər (HPBS, TƏMÖHS və HAS daxil olmaqla) daxildir. Sayt çoxdilli bir saytdır və müntəzəm şəkildə təzələnir.

**www.bp.com**
Bu saytda BP qrupu, o cümlədən onun strategiya və dəyərlərinin təfərrüatları haqqında məlumatlar, Xəzər və Qafqaz regionunda işləri və əməliyyatları haqqında hesabatlar və qrupun davamlı inkişaf haqqında hesabatları öz əksini tapır.

**www.caspsea.com**
Bu sayt Xəzərdə işlənmələr üzrə məsləhət şurasının saytıdır. Buraya şuranın 2004-2007-ci illər üzrə hesabatlarının və BP şirkətinin cavablarının tam mətni, şura üzvlərinin tərcümeyi-hallarının təfsilatları və XİMŞ-nin səlahiyyətlər dairəsi daxildir.

**www.ecbaku.com**
Bu saytda Bakı şəhərində yerləşən Azərbaycan Biznes Mərkəzi tərəfindən təmin olunan işlər və xidmətlər barəsində məlumatlar verilir.

## Bizimlə əlaqə saxlayın

Aydın Haşımov,
Sərmayələr və ictimai hesabatlar üzrə menecer

Tamam Bayatlı,
Əlaqələr üzrə menecer

BP Azərbaycan Strateji İcra Bölümü, Villa Petrolea, Neftçilər prospekti 2 (Bayıl), Bakı, Azərbaycan.

Qeyd və təkliflər bu internet ünvana göndərilə bilər: www.bp.com/caspian/sr

Öz qeyd və təkliflərinizi təqdim etmək və ya suallar vermək üçün əlaqələr və xarici işlər şöbəsinə +994 12 497 92 72 nömrəli telefona zəng edin.

## Layihə və istehsal

Layihələndirib:
Ceyhun İmanov studiyası

Azərbaycanda çap edib:
Nurlar nəşriyyat-poliqrafiya mərkəzi